www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 18 yanvar 2019-cu il Cümə № 13 (7181) Qiymәti 60 qәpik

**Xəbər**

## Güclü külək Bakıda fəsadlar törətdi

yazısı səh.3-də

**Gündəm**

### Hökumət sosial şəbəkədə şayiə texnologiyasını necə durdurdu



**Sülhəddin Əkbər:** "Panika yayanlar ya hansısa xarici qüvvənin əlaltılarıdır, ya da..."

yazısı səh.6-da

### Avropa İttifaqı ilə saziş ertələnə bilərmi?

yazısı səh.4-də

### Səməd Seyidov AŞ PA-da gözlənilən müzakirələrdən narahatdır

yazısı səh.6-da

### Yeni polis rəislərinin yerləri və adları açıqlandı

yazısı səh.3-də

### Yeni binalarda idarəetmə MTK-lardan alındı

yazısı səh.5-də

### Gürcüstanda iki azərbaycanlı "donuz qripi"nə yoluxub

yazısı səh.3-də

### AzTV ya ləğv oluna bilər, ya da...

yazısı səh.7-də

### Azərbaycan bu il Ümumdünya Ticarət Təşkilatına üzv ola bilər - gözlənti

yazısı səh.10-da

### ABŞ-ın Cənubi Qafqazın üç ölkəsində səfirini dəyişməsinin səbəbi

yazısı səh.12-də

### Bakı yaşamaq üçün ən rahat şəhərlər sırasında niyə yoxdur?

yazısı səh.13-də

### Ölkəmizin əhalisi ziyanlı qidalanan ölkələr sırasında - səbəb

yazısı səh.14-də

### Amerikalı əsgərlərin öldüyü Menbic terroru ilə bağlı şok iddialar

yazısı səh.12-də

# "ƏLEYHİNƏ 63 SƏS VƏ ƏLVİDA, DEPUTAT MANDATI..." - PREZİDENT QANUN İMZALADI

Milli Məclis deputatının səlahiyyətlərinin itirilməsinin əsasları və bu məsələyə baxılması qaydası təsdiqləndi; Hesablama Palatasının üzvlərinin sayının azaldılması, İntizam komissiyasının üzvlərinin isə sayının artırılması rəsmiləşdi




yazısı səh.5-də

## Moskva "kartları" açır: Paşinyana qəzəbin əsas səbəbi - Qarabağ və...

İrəvana qarşı yeni şok ittihamlar və xəbərdarlıqlar gəldi; erməni baş nazir Rusiyanın planını pozub? Kremlin ideoloqundan açıq təhdidlər: "Putinlə belə oyunlar keçməz", "Ermənistanın yeni rəhbərliyinin bu siyasəti fəlakətlə nəticələnəcək..."

yazısı səh.9-da



Fəzail Ağamalı

### Avropa Parlamentində Azərbaycan əleyhinə qətnaməyə deputatdan sərt reaksiya

yazısı səh.11-də



*Qabil Hüseynli:*

### "Rusiya hökumətindəki bir qanad Bakı-Moskva münasibətlərini pozmağa çalışır"

yazısı səh.8-də



*Elxan Şahinoğlu:*

### "Deyirlər ki, tərəflər xalqları sülhə hazırlamalıdır, hansı sülhə?!"

yazısı səh.11-də

YENİ MÜSAVAT
N 13 (7183) 18 yanvar 2019



# Zakir Həsənov iki gündə ikinci dəfə iranlı generalla görüşdü

**Müdafiə naziri general-polkovnik Zakir Həsənov yanvarın 17-də Azərbaycanda rəsmi səfərdə olan İran İslam Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general-leytenant Məhəmməd Baqerinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən "Report"a verilən məlumata görə, görüşdə iki gün ərzində işçi qruplarda aparılan danışıqların nəticələri müzakirə edilib və hərbi əməkdaşlığın digər istiqamətlərində münasibətlərin genişləndirilməsi ilə bağlı bir daha fikir mübadiləsi aparılıb.

Tərəflər icra edilən tədbirləri yüksək qiymətləndirərək bu cür qarşılıqlı səfərlərin keçirilməsinin vacibliyini xüsusi vurğulayıblar.

Qeyd edək ki, Z.Həsənov yanvarın 16-da da M.Baqeri ilə görüşüb.

# Rəsulzadənin barelyefini oğurlayan şəxs tutulub

**Məhəmməd Əmin Rəsulzadənin Novxanı qəsəbəsində yerləşən barelyefini oğurlayan şəxs polis əməkdaşları tərəfindən saxlanılıb. Novxanı bələdiyyəsindən "Report"a verilən məlumata görə, bu, həmin qəsəbədə yaşayan Emin Məmmədov adlı şəxsdir.**

# İqtisadiyyata investisiya qoyuluşu 4% azalıb

**2018-ci ildə ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 17 238,2 mln. manat və yaxud əvvəlki illə müqayisədə 4,4% az vəsait yönəldilib.**

"Report"un Dövlət Statistika Komitəsinə istinadən verdiyi xəbərə görə, sərf edilmiş vəsaitin 68%-ni bilavasitə tikinti-quraşdırma işlərinin dəyəri təşkil edib.

Bu azalma neft sektoruna yatırılmış investisiyaların azalması ilə bağlı olub, qeyri-neft sektoruna yönəldilmiş vəsaitin həcmi isə 22%, o cümlədən qeyri-neft sənayesinə qoyulmuş investisiyalar 23% artıb. Ümumi sərmayənin 67,6%-i məhsul istehsalı sahələrinin, 24,8%-i xidmət sahələrinin, 7,6%-i isə ümumi sahəsi 2084,7 min kvadrat metr olan yaşayış evlərinin tikintisinin payına düşüb. Daxili mənbələrdən əsas kapitala yönəldilmiş vəsait ümumi sərmayənin 69,7%-ni təşkil edib.

Əsas kapitala yönəldilmiş sərmayənin ümumi dəyərində müəssisə və təşkilatların vəsaitləri 52,7%, bank kreditləri 11%, büdcə vəsaitləri 25,8%, əhalinin şəxsi vəsaitləri 8,2%, büdcədənkənar fondların vəsaitləri 1,6%, sair vəsaitlər isə 0,7% təşkil edib.

# İki erməni əsgəri minaya düşdü

**Ermənistan silahlı qüvvələrində qeyri-döyüş itkilərinin sayı artmaqda davam edir. Bu haqda modern.az Ermənistan KİV-nə istinadən xəbər verir. Ermənilərin iki hərbi qulluqçusu piyada əleyhinə minaya düşərək ağır bədən xəsarətləri alıblar: "Hərbçilər təcili hərbi tibb müəssisəsinə təxliyə ediliblər. Faktla bağlı cinayət işi açılıb və araşdırma aparılır".**

Qeyd edək ki, yanvarın 16-da erməni mətbuatı Tavuş vilayəti Barekamavan kəndinin sakini Arman Mikaelyanın minaya düşərək yaralanması barədə məlumat vermişdi.

# Rusiya Avropa Şurası ilə əlaqələrini dondurur

**Rusiya Avropa Şurasının büdcəsinə illik ödəniş etməyəcək və öz nümayəndə heyətini bu quruma göndərməyəcək. Modern.az Rusiya KİV-nə istinadən xəbər verir ki, bu barədə Dövlət Duması qərar verib.**

Qanunverici orqan Avropa Şurasının Rusiyaya qarşı kampaniya apardığını əsas gətirərək təşkilatla münasibətlərini dondurub.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**

# 20 Yanvarın Şəhidlər Günü elan olunması təklif edildi

**Yanvarın 17-də Qarabağ Azadlıq Təşkilatının (QAT) təşəbbüsü ilə "Qarabağın azadlığına gedən yol şəhidlikdən keçir" adlı dəyirmi masa keçirilib.**

QAT mətbuat xidmətindən "Yeni Müsavat"a verilən xəbərə görə, tədbirdə siyasi, ictimai xadimlər, 20 Yanvar iştirakçıları, Qarabağ döyüşçüləri və digərləri iştirak edib. Dəyirmi masa iştirakçılarından Akif Nağı, Valeh Hüseynov, Barat İmani, Taleh Əliyev, Hacı İlham Əliyev, İsmayıl Ağayev, Cəfər Baxış, Svetlana Şamil, Şakir Abbas, Bəhlul Hümbətov, Ramiz İbayev və digərləri çıxış edərək 20 Yanvar hadisəsi, şəhidlik, Qarabağın azadlığı məsələlərinə münasibət bildirib, təkliflərini bildiriblər. Çıxış edənlər xüsusi olaraq təklif ediblər ki, 20 Yanvar Şəhidlər Günü elan edilsin, Milli Məclis bununla bağlı qərar qəbul etsin. Sonda tədbir iştirakçıları bəyanat qəbul ediblər.

Bəyanatda göstərilir ki, Azərbaycanın yeni müstəqil dövlətçilik tarixi həmin 20



Yanvar hadisələrinin baş verdiyi günlərdə başladı. Bu tarix Şəhidlər Günü kimi qeyd olunmalıdır. Həmin günün nəticəsində Azərbaycan xalqı öz qanı bahasına imperiya əsarətinə son qoydu, müstəqilliyini bərpa etdi. Bu, çox böyük qələbə, tariximizin ən şərəfli səhifələrindən biridir: "Yenidən dövlət müstəqilliyimizi əldə etdik, amma ərazi bütövlüyümüz hələ də bərpa olunmayıb. Ərazi bütövlüyümüzün bərpa olunması, doğma Qarabağımızın işğaldan azad olunması, düşmənlərimizin üzərində son və tam qələbənin əldə olunması üçün Azərbaycan xalqının bir daha ayağa qalxmasına, döyüş meydanlarında kütləvi şəhidlik nümunəsi göstərməsinə ehtiyac vardır. Dinimizə, imanımıza, mənşəyimizə, mənəvi dəyərlərimizə, döyüş, mücadilə, qanla yazılan tariximizə, dədə-babalarımızın şücaət nümunələrinə, İmam Hüseyn məktəbinə, Cavanşir, Babək, Şah İsmayıl, Cavad xan nümunələrinə, Qarabağ müharibəsi qəhrəmanlarının cəsarət nümunələrinə, 20 Yanvar şəhidlərinin fədakarlıq nümunələrinə söykənərək Qarabağın azadlığı naminə müqəddəs savaşa başlamalı və qalib gəlməliyik! Bizim başqa yolumuz yoxdur! Ya Qarabağ, ya ölüm! Qarabağımız azad, Şuşamız paytaxt olsun!".

**E.SEYİDAĞA, "Yeni Müsavat"**



# Bakıda silahlı şəxs saxlanılıb

**Polis əməkdaşları tərəfindən əllərdə qanunsuz saxlanılan odlu silah-sursatın aşkar edilməsi məqsədilə növbəti uğurlu əməliyyat tədbiri həyata keçirilib.**

DİN-in mətbuat xidmətindən bildirilib ki, Sabunçu Rayon Polis İdarəsi 12-ci polis şöbəsinə əvvəllər dəfələrlə məhkum olunmuş paytaxt sakini Çingiz Maşallayevdə odlu silah olması barədə əməliyyat məlumatı daxil olub. Şöbə əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbiri nəticəsində həmin şəxs saxlanılıb. Onun əlindəki idman çantasına baxış zamanı 1 ədəd "AKM" markalı avtomat, 21 ədəd patron və 1 ədəd patron darağı aşkar edilərək götürülüb. Ç.Maşallayev ifadəsində həmin silah-sursatın ona məxsus olduğunu və bir müddət əvvəl Ramana qəsəbəsindən tapdığını bildirib.

Faktla bağlı Sabunçu Rayon Polis İdarəsinin İstintaq şöbəsində cinayət işi başlanılıb, zəruri istintaq hərəkətləri davam etdirilir.




# Rayon təhsil şöbələri ləğv edilir?

**Təhsil Nazirliyi rayon və şəhər təhsil şöbələrinin ləğv edilərək onların bazasında regional təhsil idarələrinin yaradılmasına başlanılması ilə bağlı məlumatlara münasibət bildirib. BakuPost xəbər verir ki, nazirlikdən "Report"un sorğusuna cavab olaraq məlumatı nə təsdiq, nə də inkar etməyiblər.**

"Təhsil Nazirliyində bununla bağlı hər hansı məlumat yoxdur", - nazirlikdən qeyd olunub.

Qeyd edək ki, prezident İlham Əliyevin 2014-cü il iyulun 24-də imzaladığı sərəncama əsasən, rayon təhsil şöbələrinin bazasında Təhsil Nazirliyinin 15 regional qurumu - Sumqayıt, Xaçmaz, İsmayıllı, Oğuz, Balakən, Ağstafa, Şəmkir, Gəncə, Yevlax, Tərtər, Ucar, Sabirabad, Salyan, Masallı, Astara regional təhsil idarələri yaradılmalıdır. Sərəncamda regional təhsil idarələrinin 2015-ci il yanvarın 1-dən yaradılmasına göstəriş verilib. Lakin indiyədək bu reallaşmayıb.

Bu müddətdə Təhsil Nazirliyi sistemində strukturun yenilənməsi baxımından dəyişiklik yalnız ərazi maliyyə hesablaşma mərkəzlərinin yaradılmasından ibarət olub. 2016-cı ildən şəhər və rayon təhsil şöbələrinin mühasibatlıqları və təsərrüfat qrupları ərazi maliyyə hesablaşma mərkəzlərinin tabeliyinə verilib və şəhərlər, rayonlar üzrə təhsil xərclərinin bu mərkəzlər vasitəsilə həyata keçirilməsinə başlanıb.

# Lavrov bu dəfə Azərbaycanı dəstəklədi

**Avropa Şurasının Parlament Assambleyasında (AŞ PA) Azərbaycana qərəzli yanaşırlar. Bunu 2018-ci ilin yekunları üzrə mətbuat konfransında Rusiya XİN-in başçısı Sergey Lavrov deyib.**

"Azərbaycan və Rusiya MDB, BMT, ATƏT və Avropa Şurası strukturlarında pis əməkdaşlıq etmirdilər, sonuncu qurumda isə Azərbaycana qarşı kifayət qədər qərəzli yanaşmağa çalışırlar və hətta AŞ PA-dakı azərbaycanlı parlamentarilərin hüquqlarına qarşı ayrı-seçkilik cəhdləri edilir", - Lavrov deyib.

Qeyd edək ki, 2018-ci ilin may ayında Parisdə keçirilmiş dinləmələrin yekunlarına görə, AŞ PA-nın prosedur qaydalar üzrə komitəsi AŞ PA-nın dörd üzvünə qarşı sanksiyalar barədə qərar qəbul edib və həmin üzvlərin adları təşkilatın iradlar və korrupsiya üzrə müstəqil istintaq orqanının hesabatında dərc edilmişdi.

AŞ PA-nın prosedur qaydalar üzrə komitəsi qərarına əsasən, sanksiyalar İspaniyadan olan Pedro Aqramunt barəsində 10 il müddətinə, Rumıniyadan olan Sezar Florin Preda, Azərbaycandan olan Səməd Seyidov və İspaniyadan olan Xordi Ksukla barəsində iki il müddətinə tətbiq edilib.

Yuxarıda adıçəkilən şəxslər AŞ PA üzvü olaraq qalırlar və çıxış haqları qorunur.

# Borca görə axtarışda olan 19 nəfər saxlanıldı

**Yanvarın 16-dan 17-dək daxili işlər orqanlarında qeydə alınmış cinayət və hadisələr haqqında statistik məlumat açıqlanıb.**

Daxili İşlər Nazirliyindən verilən məlumata görə, respublikanın daxili işlər orqanları tərəfindən gün ərzində 131 cinayət faktı qeydə alınıb, onların da 32-si "isti izlər"lə açılıb. Əvvəlki dövrlərdən bağlı qalmış 8 cinayətin açılması təmin olunub.

Axtarışda olduğuna görə ümumilikdə 25 nəfər, o cümlədən borclu şəxs qismində axtarışda olan 19 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.

Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 21, qanunsuz saxlanılan silah-sursatla bağlı 1 fakt müəyyən edilib.

# Güclü külək Bakıda fəsadlar törətdi

## Paytaxtda müşahidə olunan kəskin hava şəraitindən insanlar qorunsa da, külək yük avtomobillərini aşırıb, reklam lövhələri yararsız hala düşüb...

**Öncədən məlumat verildiyi kimi, yanvarın 17-də Azərbaycanda hava şəraiti kəskin şəkildə dəyişdi. Dağıdıcı tufan, çovğun, qar müşahidə olunmasa da, güclü külək, sulu qar və yağış yağdı, temperatur +2 dərəcəyədək endi.**









Öncə ona diqqət edək ki, yanvarın 16-da müvafiq qurumlar hava şəraitinin kəskin dəyişəcəyi ilə bağlı açıqlama yaydıqdan sonra, sosial şəbəkələrdə müxtəlif şayiələr yayılmağa başlamışdı. Səs yazıları yayıldı ki, guya hava vasitəsilə əslində Azərbaycana “donuz qripi” virusu gələcək. Ona görə də məktəb və uşaq bağçaları fəaliyyətini dayandırıb. Bəzi şəxslər hətta mağazalara yollanıb, çörək, bir neçə günlük qidalar almağa başladılar.

Ekologiya və Təbii Sərvətlər Nazirliyi qərargah yaradaraq, yanvarın 16-dan etibarən operativ şəkildə hava ilə bağlı məlumatları ictimaiyyətə çatdırdı. Bu, insanların bir qədər sakitləşməsinə səbəb oldu. Məlumatlara əsasən deyə bilərik ki, günün müxtəlif saatlarında şimal-qərb küləyi 20-25 metr saniyədən 30-35 metr saniyəyədək gücləndi. Açıq dənizdə isə küləyin süräti arabir 38-40 metr saniyəyədək şiddətləndi. Dalğanın hündürlüyü 3-5 metr, sonrakı inkişafda 6-8 metrə qalxdı. Lakin hava şəraiti ilə bağlı ölkədə ciddi qəza baş vermədi.

Soyuq hava şəraitində evsizlərin küçədə donmasının qarşısını almaq üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sosial sığınacaqları gücləndirilmiş iş rejimində çalışdılar. Sığınacaqdan “Yeni Müsavat”a bildirildi ki, yanvarın16-dan etibarən sığınacaqlara baxımsız, kimsəsiz, sosial təhlükəli vəziyyətdə olan şəxslər qəbul edilib. Hava şəraiti kəskin soyuduqdan sonra küçədə aşkarlanan 1957-ci il təvəllüdlü Rasim Abdullayev Nəsimi Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən sığınacağa gətirilib. Əvvəldən isə ora sığınanların sayı 40 nəfər olub. Sığınacaqdan bildirilib ki, hava şəraiti ilə bağlı proqnozu alan kimi gücləndirilmiş iş rejiminə keçiblər və hazırda da bu tempdə işlərini davam etdirirlər.

Yanvarın 16-dan 17-nə keçən gecə xəsarət alaraq xəstəxanalara müraciət edən olmayıb.

Bu barədə Report-un sorğusuna cavab olaraq Səhiyyə Nazirliyindən məlumat verilib. Bildirilib ki, hava şəraitinə görə xəsarət alan olmayıb.

Onu da qeyd edək ki, səhiyyə naziri Oqtay Şirəliyev ölkə əhəmiyyətli iri tibb müəssisələrinin rəhbərləri ilə şəxsən görüşüb və onlara gücləndirilmiş iş rejiminə keçmələri barədə tapşırıqlar verib. Eyni zamanda digər tibb müəssisələrinin rəhbərlərinə telefonoqramlar göndərilib. Tibb müəssisələri tam hazır vəziyyətə gətirilib.

Xəsarət alan olmasa da paytaxtın bəzi hissələrində küləyin təsiri ilə reklam lövhələri, plakatlar aşıb, hətta dayanacaqlar istifadəsiz hala düşüb.

Nəqliyyatların hərəkətinə gəlincə isə Bakı Nəqliyyat Agentliyi də gücləndirilmiş rejimə keçərək, prosesə nəzarət etməyə çalışıb. Sosial şəbəkələrdə yayılan məlumata görə, Bakı-Ələt yolunda yanvarın 17-də küləyin təsirindən iki yük maşını aşıb. Hadisənin videogörüntüləri də paylaşılıb. Hüseyn Cavid prospektində dayanacağın pavilyonu uçub. Hadisədən sonra BNA-nın əməkdaşları hadisə yerinə cəlb olunub, mövcud problemi aradan qaldırıblar. Hadisə nəticəsində “Bakı Kart”a məxsus ödəniş terminalı da zərər görüb.

Bakı Nəqliyyat Agentliyindən “Yeni Müsavat”a bildirib ki, yanvarın 17-si səhər saatlarından bütün müntəzəm marşrut xətləri üzrə avtobusların reysə çıxarılması təmin edilib. Müntəzəm marşrut xətləri üzrə avtobusların fəaliyyətinə nəzarət artırılıb. Bu məqsədlə agentliyin mobil qrupları nəqliyyat mübadilə mərkəzlərində və şəhərin müxtəlif ərazilərində xidmət aparır.

BNA sürücülərə tövsiyə edib ki, hərəkətdə olarkən yollarda müəyyən edilən sürət həddinə və yol nişanlarının tələblərinə riayət etsinlər. BNA bəzi prospektlərdə sürət həddini də aşağı endirib, belə ki, müşahidə edilən yağışla əlaqədar Heydər Əliyev prospekti-Hava limanı-Bilgəh və Zığ dairəsi-Hava limanı avtomagistrallarında bütün zolaqlar üzrə sürət həddi 20-km/saat həcmində endirilib. Elektron məlumat tablolarında sürüşkən yol xəbərdarlıq nişanı qoyulub.

Sosial şəbəkələrdə müxtəlif istifadəçilər küləyin təsirindən evlərinin pəncərəsinin, binaların giriş qapılarının qırılması kimi müxtəlif məlumatlar paylaşıblar.

Bəs bu cür hava şəraiti nə zamana qədər davam edəcək?

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən “Yeni Müsavat”a bildirilib ki, yanvarın 18-i günün ikinci yarısından etibarən külək mülayimləşəcək.

Bildirilib ki, Bakıda və Abşeron yarımadasında yanvarın 18-də havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, bəzi yerlərdə yağıntılı olacağı, gündüz əsasən yağmursuz keçəcəyi gözlənilir. Güclü şimal-qərb küləyi günün ikinci yarısında tədricən mülayimləşəcək.

Havanın temperaturu Bakıda və Abşeron yarımadasında gecə 0-2, gündüz 4-6 dərəcə isti təşkil edəcək.

Atmosfer təzyiqi normadan yuxarı 762 mm civə sütunundan 767 mm civə sütununa yüksələcək. Nisbi rütubət gecə 85-95, gündüz 60-70 faiz olacaq.

Rayonlara gəlincə isə havanın bəzi yerlərdə yağıntılı olacağı, sulu qar, qar yağacağı, gündüz əsasən yağmursuz keçəcəyi gözlənilir. Ayrı-ayrı yerlərdə duman olacaq. Qərb küləyi bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 3 dərəcə şaxtadan 2 dərəcəyədək isti, gündüz 4-7 dərəcə isti, dağlarda gecə 5-10, gündüz 0-4 dərəcə şaxta təşkil edəcək. Əsasən dağlıq və dağətəyi rayonlarda yollar buz bağlayacaq.

❑ **Əli RAİS,**
**“Yeni Müsavat”**

# Ramil Usubov Baş Narkotiklərlə Mübarizə İdarəsində müşavirə keçirib




**Yanvarın 17-də daxili işlər naziri, general-polkovnik Ramil Usubovun rəhbərliyi ilə Baş Narkotiklərlə Mübarizə İdarəsində 2018-ci il ərzində görülmüş işlərin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş əməliyyat müşavirəsi keçirilib.**

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən “Report”a verilən məlumata görə, R.Usubov insanların həyat və sağlamlığına ciddi təhlükə yaradan, cəmiyyətin mənəvi dəyərlərinə böyük zərbə vuran, bir çox ağır cinayətlərin törədilməsinin əsas səbəblərindən olan narkotiklərin qanunsuz dövriyyəsinə qarşı qətiyyətli mübarizənin əhəmiyyətini qeyd edib, bu mübarizənin dövlət siyasəti olmaqla ölkə başçısının daim nəzarətində olduğunu vurğulayıb.

Sonra Baş Narkotiklərlə Mübarizə İdarəsinin rəisi, polis general-mayoru Həzi Aslanov narkotiklərin qanunsuz dövriyyəsi ilə mübarizə sahəsində hesabat dövründə görülən işlər, əldə olunan nəticələr və xidməti fəaliyyətdə yol verilən nöqsanlar barədə məruzə ilə çıxış edib.

General-polkovnik Ramil Usubov əməliyyat müşavirəsinə yekun vuraraq görülən işləri ümumən müsbət dəyərləndirib.

O, “Narkotiklərlə mübarizə üzrə 36-cı Beynəlxalq Konfransın 2019-cu ilin 16-18 aprel tarixlərində Bakı şəhərində keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamının icrası istiqamətində zəruri tədbirlərin görülməsini də tələb edib, tapşırıq və tövsiyələrini verib.

# Yeni polis rəislərinin yeri və adı açıqlandı

**Azərbaycanın daxili işlər orqanlarında yeni təyinatlar olub.**

“Report”un əldə etdiyi məlumata görə, Sumqayıt Şəhər Polis İdarəsinin rəisi Əkbər İsmayılov vəzifəsindən azad olunaraq Gəncə Şəhər Baş Polis İdarəsinin rəisi, Nərimanov Rayon Polis İdarəsinin rəisi Nəriman İmanov vəzifəsindən azad olunaraq Sumqayıt Şəhər Polis İdarəsinin rəisi, Yevlax Rayon Polis Şöbəsinin rəisi Vaqif Müslümov vəzifəsindən azad olunaraq Nərimanov Rayon Polis İdarəsinin rəisi, Şəmkir Rayon Polis Şöbəsinin rəisi Cəmil Əmirov vəzifəsindən azad olunaraq Yasamal Rayon Polis İdarəsinin rəisi, Yasamal Rayon Polis İdarəsinin rəisi İsfəndiyar Mehbalıyev vəzifəsindən azad olunaraq Xəzər Rayon Polis İdarəsinin rəisi, Mingəçevir Şəhər Polis Şöbəsinin rəisi Cavid Muradov vəzifəsindən azad olunaraq Səbayel Rayon Polis İdarəsinin rəisi, Səbayel Rayon Polis İdarəsinin rəisi Şəmşir Kazımov vəzifəsindən azad olunaraq İsmayıllı Rayon Polis Şöbəsinin rəisi vəzifəsinə təyin olunublar.

Gəncə Şəhər Baş Polis İdarəsinin işdən çıxarılan rəisi Faiq Şabanov və Xəzər Rayon Polis İdarəsinin vəzifədən çıxarılan rəisi Azər Muradov sərəncama götürülüb.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin rəis müavini Orxan Mansurzadə “Report”a təyinatlarla bağlı məlumatı təsdiqləyib.




# Gürcüstanda iki azərbaycanlı “donuz qripi”nə yoluxub

**Gürcüstanda azərbaycanlıların sıx yaşadığı Marneuli rayonunda “donuz qripi”nə 4 yoluxma halı qeydə alınıb.**

“Report”un Gürcüstan bürosu xəbər verir ki, xəstəliyə yoluxanların ikisi azərbaycanlıdır.

Onlardan biri 39 yaşlı qadın, digəri isə 5 yaşlı uşaqdır. Həkimlər qadının vəziyyətini orta-ağır, uşağın durumunu isə ağır kimi qiymətləndirirlər.

Xatırladaq ki, Gürcüstanda bu günə qədər “donuz qripi” adlandırılan A (H1N1) virusundan 17 nəfər ölüb.

YENİ MÜSAVAT
N 13 (7183) 18 yanvar 2019



# Özümüzə layiq təbii fəlakətlər

Samir SARI

**Yer üzündə qorxunc təbii fəlakətlər çoxdur. İndi onların hərəsindən bir cümlə yazaq, bilməyənlər də agah olsun.**

Zəlzələnin xası Yaponiyada olur - il on iki ay. Bu ölkənin adaları daş yolda bərk gedən maşın kimi hey titrəyir. Amma yaponlar vərdiş eləyiblər, nə təşvişə düşür, nə də, türkün sözü, enkaz altında qalıb qırılırlar.

Sunaminin ən yekəsi İndoneziyanı vurur. 70-80 metr, bəzən 100 metr hündürlükdə dalğalar olur. Bu, sunamilər okeanın ortasında baş verən zəlzələdən əmələ gəlir. Su dolu vanna təsəvvür edin. Bax, o vannanın bir tərəfini qaldıranda, içindəki su necə ətrafa calanırsa, sunami də elə bir şeydir, okeandan çıxıb cumur şəhərlərə, nə varsa, basır altına. Bircə pis iş var ki, sunami çox can alır. Andaman dənizi sunamilər oylağıdır, Bali adası indiyəcən yeddi dəfə sunaminin altında qalıb.

Torpaq sürüşməsinin ən nəhəngi Çili, Argentina, Boliviya tərəflərdə baş verir. Jül Vernin "Kapitan Qrantın uşaqları" əsərini oxumusunuzsa, orda da nəhəng torpaq sürüşməsindən bəhs edilir. O vaxtdan bəri Cənubi Amerika torpaqları hələ də sürüşür, dayanmaq bilmir. Qorxulu fəlakətdir, can alandır.

Vulkan püskürməsinin ən qəlbisi İtaliyada olur. Etna vulkanını hamınız tanıyırsınız. Keçmişdə vulkanların yekə-yekə şəhərləri lavasının altında batırdığı olub. Son vaxtlar İslandiyadakı Eyyaflayokuldr vulkanı da fəallaşıb, özünü yaxşı aparmır. Ancaq indinin vulkanları qıraqdan qorxunc görünsə də, çox təhlükəli deyil. Onun yaxınında şəhər tikmirsən, təhlükədən qıraqda qalırsan. O bizik, Hökməli tərəflərdəki palçıq vulkanlarının üstündə qəsəbə salmışıq, bir gün o vulkan ağzının palçığı üstümüzə dağıdıb, bizə dra-dra dedirdəcək.

Musson yağışlarının ən iri şırnaqlısı Banqladeş, Hindistan, Myanma, Vyetnam tərəflərə yağır. Yazıq benqallar sırf o zəhlətökən, başlayanda kəsməyən yağışların üzündən elliklə bərələrə doluşub Avropaya, Amerikaya axışır. Çünki musson yağışı bəzən ölkənin üçdə birini suyun altında qoyur.

Səmum yeli, yəni şiddətli isti külək ərəb səhralarına məxsus təbii fəlakətdir. Qum fırtınası yaradır, göz-gözü görmür. Səmum yeli başladısa, gərək başına mələfə dolayıb bir daldabasar yerdə uzanasan, yoxsa adamı məhv edir. Buna külək zəlzələsi də deyirlər.

Qar uçqunu Himalay və Alp dağlarının təbii fəlakətidir. İldə nə qədər turist və alpinist qar uçqunlarının qurbanı olur.

Tornado deyilən dəhşətli qasırğa Amerikaya xasdır. Bu qasırğa başqa yerdə olsaydı, "Amerikanın oyunudur" deyərdilər, amma bu, Amerikanın özündə olur və oyun-zad deyil. İldə 4-5 dəfə olan şeydir. Tornadodan ən çox ziyan çəkən şəhər isə Yeni Orleandır. Atlantik okeanından start götürmüş qasırğa hərlənib-fırlanıb çox vaxt Yeni Orleandan keçir, şəhəri dağıdır, şəhər merinin qanını qaraldır.

Sel və daşqınlar dünyanın çox yerində olur - qonşu Gürcüstanda da vaxtaşırı olur, bizdə də, hətta üzünə salıb dirəşən, heç cür dağılmaq bilməyən Almaniyada da. Qar əriyəndə, yağış çox yağanda çaylar məcrasından çıxır, belə olur.

Dəhşətli isti və müdhiş şaxta bir o qədər də gözlənilməz təbii fəlakət sayılmaz, amma xoşagələn bir şey deyil. Yer üzünün ən soyuq qəsəbəsi Rusiyanın şimal-şərqindəki Oymyakandır, 70 dərəcə şaxtası olur, uşaqlar 60 dərəcədə məktəbə gedib-gəlir. Dünyanın ən isti şəhəri isə Türkmənistandakı Kuşka şəhəridir. Burada da 70 dərəcə isti olduğu olub. Amma deyirlər, Liviyada bir yer var, orada da ilin 10 ayı sauna havası olur.

Bir də var, bizim Bakıya xas olan təbii fəlakətlər:

4-5 ballıq zəlzələ olur, 7-8 bina carbanaq verir, camaat 20 il danışır;

Yağış 15 dəqiqə artıq yağır, küçələr suyun altında qalır, camaat şəhər rəhbərini biurvat eləyir;

2-3 (nadir hallarda 20-30) santim qar yağır, 147 maşın bir-birinə dəyir, 741 maşın yolda qalır, 85 430 maşın həyətdən tərpənib küçəyə çıxa bilmir, millət Yaradana asi düşür və deyir ki, Bakıya qar yaraşmır;

35 km/s sürətlə meh əsir, təşər-təşər adını "Badi-Kubə" (küləklər şəhəri) qoydumuz Bakı tab gətirmir, ağaclar avtomobillərin üstünə aşır, dayanacaqlar dağılır, sellofon torbalar havada uçuşur, xalq sosial şəbəkədə narazılıq ifadə edir.

Başqa sözlə, biz əkə-bükə təbii fəlakətlərin ən xırda variantlarına təhəmmül edə bilmirik. Görün, əsl zəlzələ, sunami, tornado, musson, səmum yeli-filan görsək, nə olar. Yenə o gözəgörünməzə şükür edək...

---



# Avropa İttifaqı ilə saziş ertələnə bilərmi?

## Ekspert: "Bu saziş Azərbaycana lazımdır, amma Avropaya daha çox lazımdır"

**Azərbaycanla Avropa İttifaqı arasında mart ayının sonlarında tərəfdaşlıq sazişinin imzalanmasına hazırlıq getdiyi bir vaxtda siyasi məhbus məsələsi, xüsusilə blogger Mehman Hüseynov məsələsi gündəmə gətirilib.**

Azərbaycanın AŞ PA-dakı nümayəndə heyətinin rəhbəri Səməd Seyidov AzadlıqRadiosuna müsahibəsində deyib ki, yaranmış vəziyyətdən narahatdır. Bir çox beynəlxalq təşkilatlarda bunun ciddi rezonans doğuran bir hadisəyə çevrilməsi istiqamətində işlər aparılır. Burada Azərbaycana qarşı qüvvələr də öz rolunu oynayır: "Mehman Hüseynov aclıq aksiyasını dayandırıb, ancaq bunun beynəlxalq qurumlarda çox ciddi müzakirə obyektinə çevrilməsinə çox ciddi cəhdlər göstərilir.

Son hadisələr buna dəlalət edir ki, Azərbaycanla bağlı hər hansı məsələ gündəmdən çıxan kimi başqası gündəmə gətirilir. Xüsusilə İlqar Məmmədov azadlığa çıxandan sonra beynəlxalq qurumların gündəmində Azərbaycanla bağlı hər hansı ciddi məsələ yox idi. İndi yenə bu məsələlər beynəlxalq təşkilatlarda, xüsusən Avropa Şurasında, Avropa Parlamentində müzakirə olunacaq. Təbii ki, bu məsələlərlə bağlı ünsiyyətdə olmaq çox çətindir, bu yaxınlarda nümayəndə heyətimiz Strasburqa gedəndə bunların hamısı ilə rastlaşacağıq, fikirlər dinləyəcəyik. Bu, o qədər də asan deyil. Ancaq düşünürəm ki, normal və heç bir problem olmadığı vaxtda yaxşı nailiyyətlər də əldə etdik. Məsələn, Avropa Parlamentində Azərbaycanın ərazi bütövlüyü ilə bağlı məsələləri qaldırdıq, Avropa Şurasında məruzəçilərlə danışıqların normal gedişinə nail olduq. Amma hamısı yenidən imtahana çəkilir. Birinci dəfə olmadığından bizdə belə bir fikir formalaşır ki, bu, təsadüf ola bilməz".

### Bəs Mehman Hüseynov məsələsi Avropa İttifaqı ilə saziş imzalanmasına təsir edə bilər?

**Avropa İttifaqı üzrə ekspert Yeganə Hacıyeva "Yeni Müsavat"a bildirdi ki, istər daxildə müxalifət, istərsə də xaricdəki müxalif qüvvələr və ya beynəlxalq təşkilatlarda anti-Azərbaycan şəbəkəsi təhrif olunmuş məlumatlar üzərindən, Azərbaycanda bir məhbusu öz iradəsinə zidd olaraq siyasi məqsədlərlə istifadə edirlər. Xarici ölkələrdəki anti-Azərbaycan qüvvələri ilə bağlı olan ölkədaxili şəbəkə də bloggerin aclıq etdiyi və hər an ölə biləcəyi xəbəri üzərindən siyasi manipulyasiyalar apardılar:**

"Ümumiyyətlə, günümüzün bir reallığıdır ki, beynəlxalq təşkilatlarda uzun illərdir müxtəlif siyasi-iqtisadi lobbi qrupları təşəkkül tapmışlar və onların hədəflərinə çatmaq məqsədilə təhrif olunmuş informasiyalar əsasında qərəz və təzyiq kampaniyalarının aparılması təcrübəsi mövcuddur. Məhz bu istiqamətdə son illər qlobal siyasi müstəvidə demokratiya, insan haqları mövzusu geniş istifadə olunmaqdadır və zaman-zaman bu mövzular ətrafında yaradılmış süni ajiotajın dövlətlərə və hökumətlərə kənar təsir vasitəsi kimi geniş istifadəsi təcrübəsi mövcuddur. Avropa İttifaqı, həmçinin bu mövzular ətrafında yaradılmış süni ajiotajın müxtəlif iqtisadi lobbi qruplarının müəyyən sazişlər öncəsi dvidend qazanmaq istiqamətində, qurumun özünə qarşı istifadə olunduğunun fərqindədir. Bu mövzular ətrafında baş verənlərin uzunmüddətli hesabda Aİ maraqlarına hədə olaraq istifadə olunan manevrlərə əsas verməsi artıq bir neçə ildir Avropa qurumlarının strateji və təhlükəsizlik sahəsini araşdıran qurumlarının hesabatlarında öz əksini tapıb. Bu mövzular ətrafında yaradılmış süni ajiotajın müxtəlif siyasi iqtisadi lobbi qruplarının maraqlarına xidmət etməsi isə göz önündədir. Biz dəfələrlə Avropa qurumlarında öz daxili nizamnamə və prosedur qaydalarının ziddinə gedərək, Azərbaycana qarşı siyasi təzyiq təşəbbüslərinin hüquqi addımlarla həyata keçirilməsinin şahidi olmuşuq. Bu dəfə də buna çalışacaqlar".

**Ekspertin fikrincə, Mehman Hüseynov məsələsi üzərindən cəhdlər olsa da bu məsələ Avropa İttifaqının Azərbaycanla saziş imzalamasına mane olmayacaq:** "Aİ son illər Azərbaycanın məhz Avropa qurumlarında bu istiqamətdə mütəmadi hücumlara məruz qalan dövlət olmasının fərqindədir. 2018-ci ildə Aİ və Azərbaycan arasında tərəfdaşlığın prioritetləri haqqında imzalanmış baza sənədi, Aİ və Azərbaycan arasında tərəfdaşlığın prioritetləri haqqında danışıqların yekunlaşmasına diqqəti çəkmək istəyirəm. Sənəd tərəfdaşlıq prioritetlərinin yaxın bir il üçün əməkdaşlıq istiqamətlərini müəyyənləşdirir və tərəflər arasında münasibətlərdə və ən əsası, qarşılıqlı öhdəliklərdə prioritet olan mövzular sırasında demokratiya, insan haqları mövzusuna, ümumiyyətlə, toxunulmadı. Odur ki, bu mövzular və bu istiqamətdə olan öhdəliklər Aİ və Azərbaycan arasında əməkdaşlığın prioritetləri sırasına daxil edilməyib.

Prioritetlər bizə istər Avropa Şurası Parlament Assamleyasında, istər Avropa İttifaqının komissiyalarında, dövlətlərarası komitədə mövqelərimizin möhkəmlənməsinə əsas verir. Məsələn, hər hansı bir təşkilatın nizamnaməsi var, o nizamnamə ilə gedəcəyik, nizamnamədən kənara çıxdıqda isə bu, təzyiq vasitəsi kimi qiymətləndiriləcəkdir. Biz son illər sırf Azərbaycanla bağlı deyil, digər ölkələrlə də bağlı Avropa qurumlarının verdiyi hüquqi qərarların siyasi təsir altında verilməsi cəhdlərinin şahidi oluruq. Bu prioritetlərin müəyyən olunması hüquqi qərarlara siyasi müdaxilələrin olmamasına əsas yaradacaq. Avropa Şurası Nazirlər komitəsi İlqar Məmmədov presedentini Azərbaycanın ədliyyə sisteminə təzyiq vasitəsinə çevirdi. O səbəbdən də bu prioritetlərin müəyyən olunması bu kimi sui-istifadə hallarının qarşısını alacaq və Azərbaycanın mövqelərini daha da möhkəmləndirdi.

Üzərində işlənilən yeni saziş Azərbaycan və Aİ arasında münasibətlər üçün yeni hüquqi əsas kimi nəzərdə tutulur və Azərbaycan-Aİ münasibətlərində mühüm mərhələnin başlanğıcıdır. Yeni tərəfdaşlıq sazişi üzərində tərəflər intensiv iş aparır və sazişin bəndlərinin əksəriyyəti tərəflər arasında razılaşdırılıb. Azərbaycan Aİ üçün Cənubi Qafqazın-regionun açar ölkəsidir. Azərbaycan həmçinin Aİ üçün qitənin enerji təhlükəsizliyində böyük rol oynayan dövlətdir. Nəyə görə bu ifadə çoxlarını qıcıqlandırır. Reallıq odur ki, Azərbaycan Avropa ilə Asiyanı birləşdirən keçid regionu, tampon zona adlandırdığımız Cənubi Qafqaz regionunun açar ölkəsidir, Avropa isə bu regionda özünün dayanıqlı mövcudluğu istiqamətində hərtərəfli dərin münasibətlərin yaranmasında, əlaqələrin formalaşmasında maraqlıdır. Bu, Azərbaycana da lazımdır, amma Avropaya daha çox lazımdır. Odur ki, Mehman Hüseynov və ya başqa hansısa məhbus məsələsinə görə tərəfdaşlıq sazişi kənara qoyulmaz".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

**Yanvarın 17-də Milli Məclisin daxili nizamnaməsinə dəyişikliklər prezidentin imzası ilə qüvvəyə minib. Novator.az bildirir ki, yeniliklərin birinə görə, fasilədən sonra Milli Məclisin iclasında üzrsüz səbəbdən qeydiyyatdan keçməyən deputat həmin iclasda iştirak etməmiş hesab edilir.**

# "Əleyhinə 63 səs və əlvida, deputat mandatı..." - prezident qanun imzaladı

## Milli Məclis deputatının səlahiyyətlərinin itirilməsinin əsasları və bu məsələyə baxılması qaydası təsdiqləndi; Hesablama Palatasının üzvlərinin sayının azaldılması, İntizam komissiyasının üzvlərinin isə sayının artırılması rəsmiləşdi



Dəyişikliyə əsasən, aparıcı komitənin tapşırığı ilə Milli Məclisin Aparatı qanun layihələrinin ictimai dinləmələrini və ictimai müzakirələrini təşkil edir. İctimai dinləmə və ictimai müzakirə komitə iclası ilə birlikdə keçirilə bilər. İctimai dinləməyə və ictimai müzakirəyə dəvət edilən şəxslər ictimai dinləmənin və ya ictimai müzakirənin keçirilməsi tarixi barədə azı 5 gün əvvəl, təcili elan edilən qanun layihələri ilə bağlı isə azı 3 gün əvvəl xəbərdar olunurlar.

Milli Məclisin Aparatı komitənin tapşırığı ilə qanun və qərar layihələrinin məcburi hüquqi və linqvistik ekspertizalarını keçirir, habelə qanun layihəsinin qəbul edilməsi ilə əlaqədar hazırlanmalı, dəyişdirilməli və ya ləğv edilməli normativ hüquqi aktların (onların struktur elementlərinin) siyahısını tərtib edir. Hazırlanmalı olan normativ hüquqi aktların (onların struktur elementlərinin) siyahısı olmadan qanun layihələrinin hazırlanmasına yalnız bunun üçün 1 ildən artıq müddət tələb edildikdə yol verilir. Bu halda aparıcı komitə müvafiq siyahının təqdim edilməsi müddətini müəyyən edən tapşırıq hazırlayır.

Başqa bir müddəaya görə, qanunvericilik təşəbbüsü hüququnun subyekti və ya onun səlahiyyətli nümayəndəsi Milli Məclisdə layihə üzərində aparılan işdə iştirak etmək hüququna malikdir. Prezidentin Milli Məclisə təqdim etdiyi qanun layihəsi bütün maraqlı dövlət orqanları ilə razılaşdırılmış hesab olunur.

Qanun layihəsi Milli Məclisdə layihədə edilmiş dəyişikliklərlə birlikdə qanun layihəsini təqdim etmiş qanunvericilik təşəbbüsü hüququnun subyekti ilə; dəyişikliklər edilməsi dövlət vəsaitlərinin ixtisar edilməsinə, xərclərin yaranmasına və ya artırılmasına səbəb ola bildikdə prezidentlə və ya onun tapşırığı əsasında Nazirlər Kabineti ilə razılaşdırılmalıdır (rəy alınmalıdır).

Milli Məclisdə dövlətlərarası və Azərbaycan qanunlarından fərqli qaydalar nəzərdə tutan hökumətlərarası müqavilələrin təsdiq və ləğv edilməsi barədə, uyğunlaşdırma məqsədi ilə hazırlanmış, həmçinin ad və digər texniki xarakter daşıyan dəyişiklikləri (müddət, məbləğ, yaş senzi ilə bağlı, həmçinin subyektlərin hüquqi vəziyyətinə təsir edən, hüquq məsuliyyətini yaradan və ya aradan qaldıran, yüngülləşdirən və ya ağırlaşdıran dəyişikliklər istisna olmaqla) nəzərdə tutan qanun layihələrinə bir oxunuşda, digər qanun layihələrinə, həmçinin konstitusiya qanunu layihələrinə üç oxunuşda baxılır.

Qanunvericilik təşəbbüsü hüququnun subyekti Milli Məclisin müzakirəsinə təqdim etdiyi qanun layihəsini onun yekun oxunuşda baxılmasına qədər geri çağıra bilər.

Başqa bir yeniliyə əsasən, deputat dövlət orqanlarında vəzifə tutduqda, din xadimi olduqda, sahibkarlıq, kommersiya və başqa ödənişli fəaliyyətlə məşğul olduqda (elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla); səsvermə hüququnu şəxsən həyata keçirmədikdə; qanunla müəyyən edilmiş etik davranış qaydalarını kobud surətdə pozduqda Milli Məclisin sədri həmin deputat haqqında məsələni intizam komissiyasına göndərir. İntizam komissiyası bu məsələyə mandatından məhrum edilməsi nəzərdə tutulan deputatın iştirakı ilə iki həftə müddətində baxıb müvafiq rəy qəbul edərək Milli Məclisin sədrinə təqdim edir. Pozuntu halları rəydə öz təsdiqini tapdıqda Milli Məclisin sədri intizam komissiyasının həmin deputatın mandatdan məhrum edilməsi barədə rəyini Mərkəzi Seçki Komissiyasına göndərir.

Milli Məclisin deputatı parlamentin iclasında mandatından imtina etdikdə və həmin imtina iclasın stenoqramına daxil edildikdə imtinasını geri götürə bilməz.

Milli Məclisin sədri əmək qabiliyyətinin fasiləsiz olaraq 6 aydan çox müddətə tam itirilməsi və ya fəaliyyət qabiliyyətsizliyi səbəbindən səlahiyyətləri itirilən deputat barəsində tibbi-sosial ekspert komissiyasının rəyini və ya məhkəmənin qanuni qüvvəyə minmiş qərarını Milli Məclisin növbəti iclasında müzakirəyə təqdim edir. İclasda iştirak edən deputatlar yalnız deputatın səlahiyyətlərinin itirilməsi üçün yetərli əsasların olub-olmamasını aydınlaşdıra bilər, deputatın səlahiyyətlərinin itirilməsinin lehinə və ya əleyhinə çıxış edə bilərlər. Öz səlahiyyətlərini daimi icra edə bilməyən Milli Məclisin deputatının səlahiyyətlərinin itirilməsi barədə Milli Məclisin qərarı azı 63 səs çoxluğu ilə qəbul edilir.

Yada salaq ki, "Deputatların etik davranış qaydaları haqqında" qanun layihəsi ötən ilin yayından parlamentin müzakirəsinə çıxarılmışdı. Bu müzakirələr xeyli gərgin keçmişdi. Qanun layihəsinin ilk variantı 13 maddədən ibarət idi. Məsələn, qanun layihəsində göstərilirdi ki, deputat qanunsuz maddi və qeyri-maddi nemətlər, imtiyazlar və ya güzəştlərdən imtina etməlidir. O, öz səlahiyyət müddətində maraqların toqquşmasına yol verməməlidir və qanunsuz olaraq öz vəzifə səlahiyyətlərindən şəxsi maraqları üçün istifadə etməməlidir.

Həmçinin layihədə qeyd olunurdu ki, deputat "Korrupsiyaya qarşı mübarizə haqqında" Qanunda nəzərdə tutulmuş məbləğdən (55 manat) yuxarı olmayan hədiyyələri qəbul edə bilməz. Bu cür məsələlər də müzakirələr zamanı bəzi deputatlar da ciddi narazılıq doğurmuşdu. Bu səbəbdən də qanun layihəsinə xeyli dəyişikliklər edildi.

"Milli Məclisinin Daxili Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında prezidentin imzaladığı qanunla Hesabla Palatasının tərkibinin azaldılması da rəsmiləşib. Nizamnamənin 44-cü (Milli Məclisin Hesablama Palatası) maddəsinə əsasən, Hesablama Palatası sədrdən, sədr müavinindən və 7 auditordan ibarət idi. Dəyişikliklə isə auditorların sayı 7-dən 5-ə endirilib. Bundan sonra Hesablama Palatası sədri, sədr müavini və auditorları dövlət idarəçiliyi, dövlət nəzarəti, iqtisadiyyat, maliyyə sahələrində 5 il iş təcrübəsinə malik olan ali təhsilli şəxslərdən ibarət olacaq. Əvvəllər isə iş təcrübəsi müddəti nəzərdə tutulmurdu.

Hesablama Palatasının saytında auditorların sayı 5 nəfər göstərilib. Bunlar Mehriban Əlişanova, Cəfər Həsənov, Vaqif Həsənov, Firsənd Qurbanov və Fazil İbrahimovdur. Palata üzvlərin səlahiyyət müddəti 7 ildir, onlar Milli Məclis sədrinin təqdimatı əsasında parlamentin azı 63 deputatının səs çoxluğu ilə təyin edilirlər.

Qeyd edək ki, Hesablama Palatası haqqında bu dəyişiklikləri özündə ehtiva edən qanunu prezident ötən ilin sentyabrında imzalayıb. Yeni qanun Hesablama Palatasının statusunu, fəaliyyətinin hüquqi əsaslarını, idarəetmə və təşkilati strukturunu, habelə dövlət vəsaitinin və digər dövlət əmlakının qanunauyğun, məqsədyönlü və səmərəli istifadəsinə dövlət nəzarətinin təmin edilməsi sahəsində kənar dövlət maliyyə nəzarətinin obyektləri və digər tərəflərlə münasibətlərini tənzimləyir.

Prezidentin yanvarın 17-də imzaladığı qanunla İntizam komissiyasının üzvlərinin də sayı artırıb. Bununla bağlı Milli Məclisin Daxili Nizamnaməsinin 41-ci (Milli Məclisin İntizam komissiyası) maddəsinə dəyişiklik edilib. Maddəyə əsasən, Milli Məclisin İntizam komissiyası Milli Məclisin deputatları sırasından 1 il müddətinə 7 üzvdən ibarət tərkibdə seçilirdi. Dəyişikliklə üzvlərin sayı 7-dən 11-ə çatdırılıb.

❑ **ORXAN,**
**"Yeni Müsavat"**



# Yeni binalarda idarəetmə MTK-lardan alındı

## Qaydanı pozanlar ciddi məbləğdə cərimələnəcək

**Azərbaycanda, o cümlədən Bakıda tikintisi başa çatmış və artıq məskunlaşmış bütün yeni tikililərin MTK-lardan alınaraq idarəedici şirkətlərə və sakinlərə təhvil verilməsinə başlanır. Xəbər verildiyi kimi, prezident İlham Əliyev İnzibati Xətalar Məcəlləsində dəyişiklikləri təsdiqləyib. Məcəlləyə əsas dəyişikliklər mənzil qanunvericiliyinin pozulması ilə əlaqədardır. Belə ki, yeni tikililərin tikintisi başa çatdıqdan və həmin binadakı mənzillərin ümumi sayının əlli faizindən çoxu sakinlərin mülkiyyətinə keçdikdən sonra bir ay müddətində MTK ləğv edilməli və bina sakinlərinin yaratdığı mənzil mülkiyyətçilərinin müştərək cəmiyyətinə təhvil verilməlidir. İnzibati Məcəlləyə edilən dəyişikliklər də bununla bağlıdır ki, bu proses üçün zəruri tədbirlər görməyən vəzifəli şəxslər iki min manat, hüquqi şəxslər beş min manat cərimə ediləcək.**

Qeyd edək ki, qanunvericiliyə əsasən, çoxmənzilli binaların sakinləri binanı idarə etmək üçün mənzil mülkiyyətçilərinin müştərək cəmiyyəti (MMMC) yaradıldıqdan sonra bu təşkilatın qərarı ilə bina idarəedici şirkətə verilməlidir.

Sakinlər özləri bu məsələni həll etməsələr, bu işlə binanın yerləşdiyi bələdiyyə məşğul olacaq. İnzibati məcəlləyə edilən digər yenilik də bələdiyyələrin cərimələnməsinə aiddir.

**Sözügedən dəyişikliyi "Yeni Müsavat"a açıqlamasında şərh edən iqtisadçı ekspert Samir Əliyev bildirdi ki, MTK-lara 1 ay vaxt verilib və bu qaydaları pozanları cərimələr gözləyir:** "Mənzil Məcəlləsinin 141.4-cü maddəsinə görə çoxmənzilli bina sakinləri altı ay ərzində həmin binanın idarə edilməsi üsulu seçməzsə, bu halda bələdiyyə həmin binanın idarəetmə üsulunun seçilməsi məsələsinin həlli üçün binanın sahə mülkiyyətçilərinin yığıncağını çağırmalıdır. Əgər bir il ərzində çoxmənzilli binanın sahə mülkiyyətçiləri tərəfindən həmin binanın idarə edilməsi üsulu seçilməzsə və ya həmin binanın idarə edilməsi üsulunun seçilməsi barədə qərarı həyata keçirilməzsə, bələdiyyə idarəedici təşkilatın seçilməsi üzrə açıq müsabiqə keçirməlidir. Bütün bu addımlar atılmazsa, bələdiyyələrin vəzifəli şəxsləri 300-500 manat cərimə ödəməli olacaqlar. Bundan başqa, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydanı pozmaqla, çoxmənzilli binanın idarə edilməsi, habelə həmin qaydanın müddəalarının çoxmənzilli binanın idarə edilməsi müqaviləsində əks etdirilməməsinə görə vəzifəli şəxslər 500 manatdan 800 manatadək, hüquqi şəxslər isə 500 manatdan 2000 manatadək cərimə edilir. Bina sakini ona məxsus olan sahənin saxlanması xərclərini, habelə binanın ümumi əmlakının saxlanması xərclərini vaxtında və tam məbləğdə çəkməkdən boyun qaçırılmasına görə ödənilməli olan ödənişlərin məbləğinin 100 faizdən 150 faizinədək cərimə edilir. Əgər kimsə çoxmənzilli binanın sahə mülkiyyətçilərinə binanın idarə edilməsi üsulunun seçilməsində maneçilik törədərsə, vəzifəli şəxslər 300 manatdan 800 manatadək, hüquqi şəxslər 1000 manatdan 2000 manatadək məbləğdə cərimə edilir".

**İqtisadçının sözlərinə görə, MTK-ların MMMC-lərlə əvəz olunması mənzil mülkiyyətçiləri üçün müsbət bir addım olacaq:** "Mənzil Məcəlləsi 2009-cu ildə qəbul edilib və artıq 10 ili tamam olur. Bu məcəlləyə görə yaşayış binalarının iki cür idarəetmə forması var. Biri var Mənzil Mülkiyyətçilərinin Müştərək Cəmiyyəti (MMMC) - burada insanlar toplanıb bir qurum yaradır və özləri idarə edirlər. İkinci isə bilavasitə idarətmədir. Bu halda bir şirkətlər müqavilə bağlanır və onlar gəlib binanın idarə edir, problemlərini həll edir. Azərbaycanda isə bu vaxta qədər təxminən 100-ə qədər MMMC yaradılıb, əslində bunların sayı daha çox olmalı idi. Sonuncu dəyişiklik MTK-ları məcbur edəcək ki. binaları MMMC-lərə təhvil versinlər. Daha sonra bina hansısa şirkətə idarəetməyə verilə bilər. Eyni zamanda Mənzil İstismar Sahələrinin (MİS) idarəetməsində olan köhnə sovet binalarında da MMMC yaradılacaq və MİS-lər kənarlaşdırılacaq. Onların fəaliyyəti onsuz da qanunsuzdur".

❑ **Nərgiz LİFTİYEVA**
**"Yeni Müsavat"**

# Səməd Seyidov AŞ PA-da gözlənilən müzakirələrdən narahatdır

## Novella Cəfəroğlu: "Azərbaycana qarşı süni təzyiqlərin olması ölkə daxilində kimlərin marağındadır, bunu bilmirik"



**Yanvarın sonunda Azərbaycan nümayəndə heyəti Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) qış sessiyasında iştirak etmək üçün Strasburqa yola düşəcək. Sessiyada həbsinin bitməsinə az qalmış yeni ittihamlarla üzləşən gənc blogger Mehman Hüseynovun məsələsi də gündəmdə olacaq.**

Bununla bağlı AŞ PA nümayəndə heyətinin rəhbəri Səməd Seyidov AzadlıqRadiosuna geniş müsahibə verib. S.Seyidov açıqlamalarında narahatçılığını ifadə edib. O, gənc bloggerlə bağlı məsələnin əsl mahiyyətini geniş və ətraflı bütün beynəlxalq strukturlara, o cümlədən Avropa Şurasına çatdırdıqlarını bildirib. Seyidov AŞ-də Azərbaycana qarşı qüvvələrin öz rolunu oynadıqlarını da qeyd edib.

**Sitat:** "Məni daha çox narahat edən Azərbaycana qarşı çox düşünülmüş, təsadüfi olmayan prosesin həyata keçirilməsidir. Bunun arxasında müxtəlif maraqlı qüvvələr var. Son hadisələr buna dəlalət edir ki, Azərbaycanla bağlı hər hansı məsələ gündəmdən çıxan kimi başqası gündəmə gətirilir. Xüsusilə İlqar Məmmədov azadlığa çıxandan sonra beynəlxalq qurumların gündəmində Azərbaycanla bağlı hər hansı ciddi məsələ yox idi. İndi yenə bu məsələlər beynəlxalq təşkilatlarda, xüsusən Avropa Şurasında, Avropa Parlamentində müzakirə olunacaq. Təbii ki, bu məsələlərlə bağlı ünsiyyətdə olmaq çox çətindir. Bu yaxınlarda nümayəndə heyətimiz Strasburqa gedəndə bunların hamısı ilə rastlaşacağıq, fikirlər dinləyəcəyik. Bu, o qədər də asan deyil".

**S.Seyidov onu da vurğulayıb ki, Azərbaycan tərəfi beynəlxalq təşkilatlarla konstruktiv əməkdaşlıq etməyə başlayanda bu cür məsələlər ortaya çıxır.**


Novella Cəfəroğlu

**"AŞ PA-nın qış sessiyasında Azərbaycanla bağlı problemlərin, xüsusən də insan haqları və Mehman Hüseynovla bağlı konkret məsələlərin qaldırılacağına görə gərginsinizmi, narahatsınızmı?" sualına nümayəndə heyətimizin rəhbəri bu cür cavab verib:** "Təbii, narahatam. Əminəm ki, belə də olacaq. Ancaq cavab verməyə sözümüz var. Əlimizdə sənədlər, əsaslar aparırıq. Hüquq-mühafizə orqanlarının arayışları var, qeyri-dövlət təşkilatlarının, Azərbaycandakı diplomatik korpusun, ombudsmanın, həbsxanadakı insanların özlərinin fikirlərini aparırıq. Bütün sənədlər əlimizdədir. Bu baxımdan biz həqiqəti, reallığı Avropa deputatlarına, bununla maraqlananlara çatdıracağıq. Amma mən bilirəm ki, bizə, Azərbaycan nümayəndə heyətinə təzyiqlər, ittihamlar, suallar olacaq".

**S.Seyidovun bu narahatlığı diqqət çəkir. Hüquq müdafiəçisi Novella Cəfəroğlu "Yeni Müsavat"a açıqlamasında S.Seyidovun narahatlığına səbəb olan məsələlərin gözlənilən olduğunu dedi:** "Bizdə bir müddət öncədən məlumat var idi ki, qış sessiyasında nümayəndə heyətimizə təzyiqlər olacaq. Səməd Seyidovun narahatlığını başa düşürəm. Amma bir sual da meydana çıxır. Niyə Azərbaycana bu qədər təzyiqlər olmalıdır? Nə üçün Mehmana ikinci dəfə cinayət işi açılırdı? Bizim siyahıda 26 siyasi məhbusun adı var. Bu məhbusları azad edin. Eyni zamanda islamçıların çoxunun təzədən məhkəməsi olmalı və onlar azad edilməlidir. Azərbaycana qarşı süni təzyiqlərin olması ölkə daxilində kimlərin marağındadır? Bu sualın cavabını hüquq müdafiəçiləri ola raq bilmirik. Bizim Qarabağ məsələmiz var. Çox vacibdir ki, ölkəmizdə siyasi məhbus məsələsi birdəfəlik həll olunsun. Bununla dünyaya göstərə bilərik ki, bizdə siyasi məhbus yoxdur. Həm də millətlə dil tapmaq mümkün olacaq. Bu birlik olmadan Dağlıq Qarabağ məsələsi çözülməyəcək. Azərbaycanda müxalif siyasi liderlər var. Onlar güc tapıb hökumətlə mübarizə apara bilmirlər, siyasi məhbuslar azad olunsalar, mübarizə apara biləcəklər ki? Niyə hər kəsi bizim üstümüzə salırsınız? Leyla Yunus haqqımızda yüzlərlə yazı yazıb. İndi isə kitabı dərc olunub. Bütün hüquq müdafiəçilərinin hökumətə işlədiyini deyir. Axı bu sözləri niyə ondan almalıyıq? Niyə siz Leyla Yunusu azad edib lider etdiniz? Onun bütün dünyada bizi biabır etməsi üçünmü? Hökumətlə işləyirik, amma necə? Siyasi məhbusların məsələsini hökumətlə həll edirik, azad etdiririk. Yüzlərlə haqqı pozulmuş insanlar var. Hər şey təkcə siyasi məhbuslarla bitmir. Bu problemləri həll etmək üçün kimlərlə danışmalıyıq? Azərbaycanda millətlər arasında heç zaman söz-söhbət olmayıb. Amma indi Leyla Yunus orada bir qrup separatçı etniki Azərbaycanın üstünə qaldırıb. Məqsəd ölkəmiz daxilində yaşayan etniklərlə münasibətləri korlamaqdır. Hökumətə müraciətim var. Niyə onları dirildirsiniz? Vətənini sevən Gözəl Bayramlını həbsdə saxlayırsınız, amma satqın Leyla Yunusu azad edirsiniz. Mehman Hüseynovun qardaşı Emin Hüseynov Avropa Şurasını təhqir edir. Şəxsən onun son çıxışları mənə ağır təsir etdi. Qardaşı burada çətin şəraitdədir, hər kəs onun azadlığı üçün çalışır, xarici ölkələrin səfirlikləri gedib onunla görüşür. Amma Emin, sən deyirsən ki, Avropa hökumətlə əlbirdir. Emin Hüseynov, Avropa sənin 500 və ya 750 min vergi borcunu ödəyib, səni Azərbaycandan çıxardı. Səni də türməyə salsalar, qalacaqdın orada. Emilə demişdik ki, Mehmanla işin olmasın, o, türmədə qalmamalıdır. Bizlərin mübarizəsi Azərbaycan dövlətini qorumaqdır. Hökumətə müraciət edirəm ki, artıq bu siyasi məhbus məsələsini bitirin. Siyasi məhbus problemi martadək həll olunmalıdır ki, təpkilərdən azad olaq".

**Hüquq müdafiəçisi S.Seyidovun dediklərinin bu hissəsi ilə razıdır:** "Səməd Seyidov deyir ki, Azərbaycan beynəlxalq təşkilatlarla konstruktiv əməkdaşlığa başlayanda belə məsələlər ortaya çıxır. Bu fikirlərlə tam razıyam. Amma biz də müəyyən addımlar atmalıyıq ki, onlar bunu edə bilməsinlər. Onlara şans verməməliyik. Buraxın siyasi məhbusları, qoyun haqlı tərəfə biz çevrilək".

Hüquq müdafiəçisi hesab edir ki, AŞ PA-nın qış sessiyasında Azərbaycana qarşı təpkilər olacaq: "Amma böyük bir təzyiqin olacağını düşünmürəm".

**❑ Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# Hökumət sosial şəbəkədə şayiə texnologiyasını necə durdurdu




## Sülhəddin Əkbər: "Kibercinayətkarlığa qarşı mərkəz yaradılmalıdır; panika yayanlar ya hansısa xarici qüvvənin əlaltılarıdır, ya da..."

**Hökumət ötənlərdə sosial şəbəkələrdə zəif görünürdü. Əvvəllər hansısa kritik məqamlarda sosial şəbəkələr üzərindən təxribatçı xəbərlər yaymaq istəyən qruplar ayaqlana, cəmiyyətdə müəyyən qədər çaşqınlıq yarada bilirdilər. Amma indi vəziyyət dəyişib. Son proseslərdə bəlkə də ilk dəfə idi ki, hökumət sosial şəbəkələrdə - facebookda, votsapda panik kampaniyanı aparanlar üzərində zəfər çaldı. Dövlət strukturları elə bir qüvvə və enerji ilə səfərbər oldular ki, panika yaratmaq məqsədli hər hansı dezinformasiya keçərli olmadı. Söhbət Bakıda gözlənilən güclü külək ajiotajından gedir.**

Hətta anonim şəxslər tərəfindən votsap vasitəsilə göndərilən təşviş xarakterli məlumatlar da işləmədi. Misal üçün, insanları Bakıda baş verəcək zəlzələ, terror aktları və "donuz qripi" epidemiyası ilə qorxudurdular.

Öz sözlərinin sübutu kimi araqarışdıranlar KİV-də dövlət xidmətlərinin gücləndirilmiş iş rejiminə keçmələri barədə yayılan xəbərləri göstərirdilər. Amma bu məlumatların təpədən-dırnağa qədər blef olduğu göründü.

Ən əsası dövlət qurumlarının mətbuat xidmətləri operativ işlədilər, media ilə sıx əməkdaşlıq elədilər, sosial şəbəkələrdə aktivlik göstərdilər. Anbaan mətbuatı, sosial şəbəkələri səhih informasiya ilə təmin etdilər, sosial şəbəkələrdə yayılan şayiələrin yalan olduğunu dərhal açıqladılar, gecikmədilər.

Bu operativlik, sosial medianın gücü ilə ayaqlaşmaq nəticəsində hökumət strukturlarının sosial şəbəkələrdə peyda olan təxribatçılar üzərində qələbə qazandığını söyləmək olar.

Virtualaz.org-a Azərbaycan hökumətindəki mənbələrdən verilən məlumata əsasən, hüquq-mühafizə orqanları və təhlükəsizlik xidmətləri əhali arasında şayiə, təşviş yayanların müəyyənləşdirilməsi üzrə təhqiqata başlayıblar.

Həmin təxribata görə məsuliyyət daşıyanların hamısı cəzalandırılacaq. Amma hələlik məsuliyyətə cəlb edilən olduğu haqda rəsmi məlumat verilməyib.

Xatırladaq ki, 2016-cı ildə fırtına nəticəsində Xəzərdə neftçilər faciəvi şəkildə həlak olmuşdular. Bu dəfə hökumət fırtınaöncəsi bütün qabaqlayıcı, profilaktik tədbirlər gördü və heç bir xoşagəlməz hadisə baş vermədi.

Hava şəraitinin kəskin pisləşməsi ilə bağlı ciddi xəbərdarlıqların nəticəsidir ki, həm müvafiq strukturlar, həm də əhali önləyici tədbirlər gördü.

**Bəs sosial şəbəkələrdə peyda olan təxribatçı qruplarla necə davranılmalıdır? Sabiq MTN I müavini, politoloq Sülhəddin Əkbər "Yeni Müsavat"a dünya üçün bu məsələnin problem olduğunu vurğuladı:** "Hətta texnoloji baxımdan qabaqcıl ölkələrdə də belə problemlər yaşanır. Amma o ölkələrdə kiber təhlükəsizlik qüvvələrinin mərkəzləri yaradılıb. Bəzilərində buna ordu rəhbərləri, bəzilərində xüsusi xidmət orqanlarının rəhbərləri nəzarət edir".

**Ekspertin sözlərinə görə, dəfələrlə Azərbaycanda kibercinayətkarlığa qarşı mübarizə üçün mərkəz yaradılması təklifi irəli sürülüb:**

"Biz bir neçə dəfə demişik ki, bu ayrıca müstəqil qurum da ola bilər, bir mərkəzdən idarə edilə də bilər. Bu hallarla bağlı profilaktik tədbirlər görülməlidir. Həmin mərkəzlər hücumların haradan gəldiyini müəyyənləşdirməlidir.

Bu istiqamətdə müttəfiq dövlətlərlə, əməkdaşlıq etdiyimiz beynəlxalq təşkilatlarla sıx əlaqə qurula bilər, təcrübəsindən istifadə oluna bilər".

**S.Əkbər bildirdi ki, sosial şəbəkələrdə şayiə yayıb təşviş yaradanlar iki qrupa bölünür:** "Bir faktor bundan ibarətdir ki, məqsədyönlü həyata keçirilir, hansısa dövlətin xüsusi xidmət orqanlarının işidir. İkincisi isə psixoloji problemləri olanlardır. Əgər sistem qurulub müvafiq tədbirlər görülsə, belə hallar tam aradan qalxmasa da, kəskin şəkildə azalar".

**❑ Emil SALAMOĞLU,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 13 (7183) 18 yanvar 2019

**“Əlbəttə ki, demokratik ab-havada Azərbaycan Dövlət Televiziyasının ləğvi və İctimai yayıma verilməsi çox normal təklifdir. Mən də bununla razıyam. Əslində Azərbaycan Avropa Şurasına üzv olanda belə bir öhdəlik götürmüşdü. Lakin yerinə yetirilmədi. Azərbaycandakı mövcud reallıq, şərtlər və sistem bu təklifin gerçəkləşməsinə imkan verməz. O səbəbdən güman eləmirəm ki, AzTV ləğv olunaraq maddi-texniki bazası İTV-yə veriləcək. Ən azından yaxın vaxtlarda belə bir dəyişiklik gözlənilmir”.**

# AzTV ya ləğv oluna bilər, ya da...

## Deputat və tanınmış telejurnalist dövlət televiziyasının ləğv edilərək İTV-yə birləşməsi öhdəliyindən danışdılar; MTRŞ rəsmisi telekanaldakı qüsurları açıqladı




Bu fikirləri “Yeni Müsavat”a tanınmış jurnalist, teletənqidçi Qulu Məhərrəmli AzTV-nin ləğv edilərək maddi-texniki bazasının İTV-yə verilməsi haqda səslənən təkliflərə münasibət bildirərkən söylədi.

**Onun sözlərinə görə, nəinki AzTV-nin ləğvi həyata keçirilib, yaradılan İctimai Televiziya da dövlətin əlində ikinci təbliğat olub:** “Nəzəri baxımdan reallaşması mümkündür. Amma belə bir gözləntim yoxdur”.

**Q.Məhərrəmlinin AzTV sədri postundan Arif Alışanovun çıxarılmasından sonra dövlət telekanalında yeni verilişlərin, proqramların hazırlanacağı, kursun dəyişəcəyi barədə gözləntiləri də yoxdur:** “İndilik bir söz deyə bilmərəm. Bu haqda danışmaq tezdir. Amma belə gözləntim də yoxdur”.

**Deputat Fərəc Quliyev isə qeyd etdi ki, gedənin arxasınca danışmazlar, amma Arif Alışanov deputat olanda onun haqqında tənqidi fikirlər səsləndirib:** “Çox qeyri-operativ işləyirdilər. O baxımdan hesab edirəm ki, onun AzTV sədri vəzifəsindən gedişi doğru qərardır. Biz təklif vermişdik ki, cəmiyyətə açıq telekanal olmalıdır. Eyni zamanda parlament televiziyası yaradılmasını təklif etmişdim”.

**Deputat hesab edir ki, bununla belə, dövlət telekanalının olması çox vacibdir və bütün ölkələrdə var:** “Xərclər nöqteyi-nəzərindən AzTV dövlətin üzərində yük ola bilər, amma onu saxlamaq lazımdır. İlk növbədə AzTV-dəki xətt, yanaşma dəyişməlidir. Bu tərz artıq yorucu olub, monotonlaşıb. Televiziyanın bütün sahələrində axsaqlıq müşahidə olunur, AzTV-də hədsiz dərəcədə tənqidə dözümsüzlük var. Bu inkişafı tormozlayır.

Eyni zamanda verilişlərdə bəsit yanaşma, adilik görürük, insanlar baxmırlar. Əhali artıq belə yanaşmadan bezib. Ona görə dövlət telekanalı fərqli yanaşma ilə tamaşaçıların qarşısına çıxmalıdır, yenilənməlidir, rəngini dəyişməlidir".

Yada salaq ki, media hüququ üzrə mütəxəssis Ələsgər Məmmədli deyib ki, Azərbaycan Dövlət Televiziyasının, ümumiyyətlə, ləğv edilərək, onun bütün maddi-texniki imkanlarının İctimai yayıma verilməsi mümkündür.

**Ekspertin sözlərinə görə, bu proseslə dövlətin yükünü azaltmaq olar, həmçinin dövlət televiziyasının ləğvi beynəlxalq öhdəliyimizdir.**

**Sitat:** “Azərbaycan Dövlət Televiziyası ilə İctimai Televiziyanın yayım funksiyası faktiki olaraq üst-üstə düşən xidmətlərdir. Amma İctimai kanal dünyanın hər yerində bu və ya digər formada qəbul olunan formatdır.

Hətta 2001-ci ildə Azərbaycanın Avropa Şurası qarşısında götürdüyü öhdəliklərdə Azərbaycanda dövlət yayımından imtina edib, onu ictimai yayıma çevirməsi ilə bağlı konkret öhdəlik vardı.

Azərbaycan İctimai kanal yaratdı, ancaq dövlət kanalından da imtina etmədi. Hesab edirəm ki, hazırda dövlət kanalı büdcəmiz üçün əlavə yükdür".

“Əlbəttə ki, AzTV-nin işinin daha da təkmilləşdirilərək, müasir tələblər səviyyəsində qurulması ölkədə KİV sektorunun inkişafı baxımından vacib əhəmiyyətə malikdir”.

**Bu sözləri axar.az-a Milli Televiziya və Radio Şurasının (MTRŞ) Ekspertiza, proqramlaşdırma və analitik şöbəsinin müdiri Təvəkkül Dadaşov deyib. O bildirib ki, dövlət büdcəsindən maliyyələşən bütün yayımçılar, o cümlədən də AzTV özəl yayımçılara nümunə olaraq qanunvericiliyin tələblərinə tam şəkildə əməl etməlidir:**

“Lakin təəssüf ki, bir sıra hallarda biz bunun əksini müşahidə etməkdəyik. Məsələn, teleradio yayımı haqqında qanunvericiliyə görə, AzTV insanın immunçatışmazlığı virusu infeksiyasının profilaktikası barədə maarifləndirici verilişlərin, sosial reklam çarxlarının nümayişi üçün ayda 20 dəqiqədən az olmayan efir vaxtı ayırmalı və həmin verilişləri daha əlverişli vaxtda yayımını təmin etməlidir. Ötən illərdə bu tələbə kanal tərəfindən tam şəkildə riayət edilməyib. Bundan başqa, teleradio yayımı haqqında qanunvericiliyə görə, karlar və zəif eşidənlər üçün tədris və informasiya xarakterli sosial yayımlar təşkil olunmalıdır. Təəssüf ki, AzTV-nin efirində bu cür sosial yayımlara da rast gəlinməyib. Həmçinin kanal tütündən istifadənin mənfi təsiri barədə qanunvericiliyin tələblərinə müvafiq olaraq xəbərdaredici, maarifləndirici və tərbiyəvi mövzuda verilişlərin hazırlanması işində də nümunəvi rol oynamayıb”.

Qeyd edək ki, Azərbaycan Televiziya və Radio verilişləri QSC-nin sədri Arif Alışanov postundan azad edildikdən sonra yenicə sədr müavini təyin edilən gənc jurnalist Rövşən Raqifoğlu onun vəzifələrini icra edir. Onu da deyək ki, A.Alışanovun adı bir çox neqativ qalmaqallarda hallanırdı.

**❑ Emil SALAMOĞLU, “Yeni Müsavat”**

# Struktur dəyişikliyi ETSN-ə çatdı

## Milli Hidrometeorologiya Xidməti yaradıldı

**Yanvarın 16-da prezident İlham Əliyev “Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin strukturunun və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” fərman imzalayıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin fəaliyyətinin optimallaşdırılması, qurumun strukturun və idarə edilməsini daha da təkmilləşdirmək məqsədilə xeyli dəyişiklik edilib.**

Fərmanda Ətraf mühitin mühafizəsi departamentinin əsasında Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Dövlət Ekoloji Təhlükəsizlik Xidməti, Meşələrin inkişafı departamentinin, Elmi Tədqiqat Meşəçilik İnstitutunun əsasında Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Meşələrin İnkişafı Xidmətinin, həmçinin Ətraf mühit üzrə milli monitorinq departamentinin, Milli hidrometeorologiya departamentinin, Hidrometeorologiya Elmi Tədqiqat İnstitutunun, Metrologiya və Standartlaşdırma Mərkəzinin və Ətraf Mühit üzrə Laboratoriya Mərkəzinin əsasında Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Milli Hidrometeorologiya Xidmətinin yaradılması qeyd olunub.

Bununla yanaşı, fərmana əsasən, Bioloji müxtəlifliyin qorunması və xüsusi mühafizə olunan təbiət ərazilərinin inkişafı departamenti, Su hövzələrinin bioloji resurslarının artırılması və mühafizəsi departamenti, Ovçuluq Təsərrüfatlarının İdarə Edilməsi və Ovçuluq Fəaliyyətinə Dövlət Nəzarəti Xidməti və Elmi Tədqiqat Balıqçılıq Təsərrüfatı İnstitutunun əsasında Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Bioloji Müxtəlifliyin Qorunması Xidməti yaradılır.

Fərmana əsasən, Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Geodeziya və Kartoqrafiya üzrə Dövlət Agentliyi ləğv edilir, onun funksiyaları Nazirliyin Aparatı vasitəsilə həyata keçirilir. Agentliyin tabeliyindəki Dövlət Aerogeodeziya Müəssisəsi və Bakı Kartoqrafiya Fabriki isə nazirliyin tabeliyinə verilir. Həmçinin Bakı şəhər Ekologiya və Təbii Sərvətlər Departamenti ləğv edilir, onun işçilərinin say həddi daxilində nazirliyin yerli orqanlarının işçilərinin say həddi artırılır, Dövlət Ekspertiza İdarəsinin əsasında Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində publik hüquqi şəxs statuslu Dövlət Ekoloji Ekspertiza Agentliyi yaradılır.




Məsələ ilə bağlı ilk olaraq Ekologiya və Təbii Sərvətlər Nazirliyindən münasibət almaq istədik. Nazirlikdən “Yeni Müsavat”a bildirildi ki, qərar yeni olduğu üçün hələ ki ictimaiyyətə geniş açıqlama verə bilməyəcəklər. Bildirildi ki, yaxın günlərdə ölkə başçısının müvafiq fərmanı və yeniliklər barəsində ictimaiyyətə geniş açıqlama verəcəklər.

**“Yeni Müsavat”a danışan alim-ekoloq Telman Zeynalov bildirib ki, bu kimi struktur dəyişikliyi müsbət haldır. O qeyd edib ki, əslində nazirlik də son zamanlar xeyli yeniliklərə imza atıb. Ekoloq bu yeniliklərin böyük əksəriyyətini müsbət qiymətləndirdiyini söylədi:** “Xüsusilə də meşələrin qorunması istiqamətində atılan addımlar alqışa layiqdir. Əksər yeniliklərdən məlumatlıyam, ancaq hər şeyi də mətbuata açıqlamaq olmur. Onu deyim ki, hazırda regionlarda meşəbəyilərin demək olar ki, 40-50 faizi ixtisara salınıb. Eyni zamanda meşələrə xüsusi kameralar quraşdırılıb ki, bu kameralar vasitəsilə günün 24 saatı meşələri izləmək mümkündür. Bu, çox yaxşı haldır. Meşələri qıranlar kameralar yox, insanlardır. Tanışlıq, qohumbazlıqla meşəbəyi düzələnlər sonradan meşələri qırıb satırlar. Ona görə də bu hal düzəlməli idi ki, düzəldi də. Regionlarda bu və ya digər qurumlar ixtisara salınır. Düzdür, burada pis cəhət odur ki, camaat işsiz qalır. Ancaq digər tərəfdən bu qurumlar onsuz da şişirdilərək yaradılıb. Nazirlik son zamanlar restoranlarla bağlı da addımlar atır. Ancaq bu addımları müsbət xarakterizə etmirəm. Hesab edirəm ki, burada başqa məqamlar da var”.

**Ekoloq, son zamanlar ETSN tərəfindən polietilen torbalara qarşı addımlar barəsində də danışıb:** “Nazirlik ən nazik polietilen torbaları yığışdırır. Bu baxımdan doğru addım atırlar. Ötən gün nazirin özü ilə görüşdüm. O bildirdi ki, sərəncam var ki, mağazalarda bu kimi torbaları pulla satsınlar. Mən isə təklif etdim ki, həmin torbaların pulla satılması doğru deyil. Çünki bu və ya digər formada atılan addım insanların cibinə girmək olacaq. Yaxşı olar ki, qəbuledici məntəqələr yaradılsın və həmin torbalar təkrar emala getsin. Nazirlikdə aparılan yeniliklər fonunda hesab edirəm ki, bu kimi məsələlər də öz həllini tapacaq. Yeni nazir qanun-qayda ilə işləri və nə zaman da zəng etsən, ekoloq kimi səni qəbul edib, fikirlərini dinləyir. Əslində deyim ki, köhnə nazir də bu cür idi. Həyata keçirilən yenilikləri müsbət qiymətləndirirəm”.

Onu da qeyd edək ki, nazirliyin strukturuna daxil olan bəzi qurumların ləğvi ilə əlaqədar müvafiq vakant vəzifələrə elan edilən müsabiqə üzrə müsahibə və ümumi müsahibələrə qeydiyyat dayandırılıb.

**❑ Əli RAİS, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 13 (7183) 18 yanvar 2019



# Bağlı pəncərə

Zamin HACI
zaminhaci@gmail.com

**Əgər 21-ci əsrdə donuz qripinin başqa ölkədən külək vasitəsilə gələcəyinə inanan toplum varsa, o toplum üçün məktəblərin işləməsinin mənası nədir? O üzdən, mən təhsil nazirinin məktəbləri 2 gün bağlamasını dəstəkləyirəm. Hələ imkan varsa, daha çox bağlasın, uşaqlar ikiqat əziyyət çəkməsinlər - repetitor yanına da gedirlər axı. Əgər məktəbi buraxıb, repetitorun yanına getsən, gərək qayıbların əvəzində direktora, sinif rəhbərinə, müəllimlərə görüm-baxım eləyəsən. Rüşvət yox, görüm-baxım. Bizdə korrupsiya yoxdur.**

Hələ deyir bir arvad xeylağı da Vatsap-la panika yayırmış. Hüquq-mühafizə orqanları belə təşviş doğuran uydurmalar yayanları niyə tapıb cəzalandırmır? O palçıqlı yol əhvalatının qəhrəmanı olan balaca oğlan demişkən, "niyə millətə yazıqları gəlmer"? Azca ürək-göbək qalmışdı, bu iki gündə millət onu da basıb yedi. 2012-ci ilin axırət günü əhvalatı kiçik miqyasda olsa da yaşanmışdır, mən bu cızmaqaranı edən dəqiqələrdə hələ yaşanmaqda idi. Deyir camaat çoxlu çörək alırmış. O vaxt çoxlu şam almışdılar, yadınıza gəlirmi? Dünyaya qaranlıq çökməliydi, bunlar şam yandırıb oturacaqmış. Qədim, saqqallı anekdotdakı kimi: deyir, amerikanlar Aya uçub, biz - SSRİ sakinləri mütləq Günəşə kosmonavt göndərməliyik, yoxsa yarışda geri qalarıq. Bir İvanı çağırırlar, deyirlər Günəşə uçmalısan. İvan deyir axı mən orda yanaram. Deyirlər qorxma, biz səni gecə, Günəş sönəndə göndərəcəyik.

150 il qabaq Axundov teatrı olmayan camaat üçün dram əsərləri yazmışdı və onlardan birincisi Molla İbrahimxəlil kimyagər haqda idi. İbrahimxəlil müəllim nefti... üzr istəyirəm, misi qızıla çevirəcəyi ilə aldadıb milləti soyurdu. Ancaq gərək sehr anında meymunu fikirləşməyəydin. Yoxsa mis qızıla çevrilmirmiş. Lənətə gəlmiş meymun... Tərslikdən bütün məşədi və hacılar bu meymunu ağıllarından çıxara bilmirlər, nəticədə mis qızıl olmur. Dünən mən bir xəstəxanada, cərrahiyyə, reanimasiya şöbəsinin qarşısında idim və orda əməliyyat edilən adamın qohumları tələb edirdilər ki, tibb bacısı gətirib kəsilən törəməni ("kista") göstərsin. Sən demə, bizim tibb aləmində belə təcrübə varmış, adamlar əməliyyat zamanı çıxan şey nədirsə, mütləq ona baxırmışlar. Əks halda həkimə inanmırmışlar. "Ay bacı, tez elə kistanı gətir baxaq, işimiz-gücümüz var" - qapıya toplaşan nəsilin ağsaqqalı tibb bacısını yalan olmasın, xirtdəkləmişdi. Bir azdan bacı kamali-ədəblə, dəmir qabın içində "kistanı" gətirdi. Hamımız baxdıq - xəstəyə dəxli olmayan mən də baxdım, maraqlı idi. Ədalət naminə, doğrudan da nəsə kəsib qaba qoymuşdular. Hərçənd orada təcrübəli bir yoldaş dedi ki, nə biləsən, bəlkə başqa xəstənin kistasını bizə göstərdilər. O anda ağlıma gəldi ki, biz mexanizm olaraq öz qayırdığımız maşınlardan daha primitivik. Maşında heç olmazsa hissələri nömrələmək, seriyasını, şifrəsini-zadını qoymaq olur. Adamda isə heç bir orqanın nömrəsi yoxdur, iş qalır həkimin insafına.

Bayaq Ay dedim, dünən biz "ifrat atmosfer hadisəsi" ilə mübarizə aparanda çinlilər Ayın görünməyən tərəfində pambıq əkmişdilər. Hara baxsan bəxtimiz bağlanıbdır. Belə getsə İmişlidə, Saatlıda pambıq becərmək rentabelli olmayacaqdır.

Falçılar, çöpçülər, dua yazanlar, nə bilim, evyıxanlar alimdən hörmətli olarsa, cadugər müəllimdən çox maaş alarsa, bizim axırımız heç yaxşı görünmür. Bananda meymun qanı vasitəsilə SPİD-in yayılmasına inanan nə qədər adamımız nəfəs alır. Zəlzələnin tektonik, soyuq və isti havanın ekoloji silah nəticəsində baş verdiyi haqda sayıqlayan "görkəmli" ekspertlərimiz vardır. Ona görə də yağış suyundan enerji alan bir uşaq gözümüzün işığına çevrilmişdi.

Ümid edirəm, dünən xeyli adam donuz qripindən qorxub qapı-pəncərəsini kip bağlamış, boğulmamışdır. Ya da ümid eləmirəm.



# "Rusiya hökumətindəki bir qanad Bakı-Moskva münasibətlərini pozmağa çalışır" - səbəb

## Qabil Hüseynli: "Bu fəallığın arxasında bir "dirijor çubuğu" görünür və bu, Rusiya XİN-dir"

**Rusiya Xarici İşlər Nazirliyi (XİN) erməni milliyyətindən olan Rusiya vətəndaşlarının Azərbaycan ərazisinə buraxılmaması məsələsini yenidən qaldırıb. Bu dəfə ermənilərlə əlaqədar ölkəmizin Rusiyadakı səfirliyinə yaddaş qeydi göndərib. Sənəddə "Azərbaycanın hava limanlarında Rusiya vətəndaşlarına münasibətdə ayrı-seçkilik"dən narahatlıq əksini tapıb. Həmçinin bildirilib ki, "Azərbaycan tərəfi növbəti dəfə rusiyalı həmkarlarını ümidvar edib ki, problemin həll edilməsi üçün addımlar atılacaq".**

Ötən həftə isə Rusiya XİN sözçüsü Mariya Zaxarova Azərbaycan dövlətini aşağılayıcı tərzdə iddia eləmişdi ki, guya Bakı "öz səhvlərini düzəldəcəyinə" söz verib.

Azərbaycan XİN isə mətbuat xidmətinin rəhbəri Leyla Abdullayevanın timsalında ona sərt cavab vermiş, Bakının erməni vətəndaşlarla bağlı Moskvaya hər hansı bir vəd vermədiyini də diqqətə çatdıraraq, bir daha Azərbaycanın mövqeyini izah eləmişdi. Əsas motiv qismində isə Azərbaycanın Ermənistanla müharibə vəziyyətində olması və həmin erməni vətəndaşların özlərinin təhlükəsizliyi də qeyd olunmuşdu.

**Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu isə Rusiya tərəfinin səfirliyə yaddaş qeydi göndərməsini təsdiqləyərək deyib ki, diplomatik təcrübədə qeyd kimi ötürülmüş informasiyanın KİV-də yayımlanması düzgün deyil.** "Ona görə ki, bu, rəsmi diplomatik yazışma deyil. Mənə bu məlumatın KİV-ə ötürülməsi təəccüblü gəlir, belə ki, lap bu günlərdə Azərbaycan XİN-in mətbuat xidmətinin rəhbəri Leyla Abdullayeva yaranmış vəziyyətə dair obyektiv şərh vermişdi. O da təəccüblüdür ki, məlumatda Azərbaycan tərəfinin problemin tənzimlənməsi ilə bağlı hansısa ümid verməsindən danışılır. Sual yaranır: Azərbaycan tərəfi dedikdə kim nəzərdə tutulur? Şəxsən mən, bir səfir kimi, heç kimə ümid verməmişəm. Azərbaycan tərəfi dəfələrlə bəyan edib ki, bu cür tənzimləmələr həmin kateqoriyadan olan şəxslərə qarşı onların vətəndaşlıq mənsubiyyətindən asılı olmadan tətbiq edilir və bu vəziyyət Ermənistan tərəfindən Azərbaycan ərazilərinin işğalının davam etməsi ilə əlaqədardır və ilk növbədə elə həmin şəxslərin özlərinin təhlükəsizliyinin qorunmasına yönəldilib. Beynəlxalq təcrübədə var ki, ölkələr səbəbini belə izah etmədən müəyyən şəxslərə öz ərazilərinə daxil olmağa icazə vermirlər", - deyə o qeyd edib.

**Beləliklə, açıq-aşkar görünür ki, Rusiya-Azərbaycan münasibətlərində erməni məsələsinə görə bir sərtləşmə prosesi gedir. Bu barədə "Yeni Müsavat"a danışan politoloq Qabil Hüseynli bildirdi ki, son dövrlər Rusiya hökumətinin bir qanadı Azərbaycan-Rusiya münasibətlərinin yüksələn xətt üzrə inkişaf etdiyi bir zamanda bu münasibətləri sanki korlamaq qərarına gəlib:** "Ortalıqda da ciddi bir səbəb olmadığından erməni əsilli Rusiya vətəndaşlarının Azərbaycana girişinin qarşısı alınması məsələsini süni söz-söhbət obyektinə çevirirlər. Bu məsələdə mahiyyəti ermənipərəst şəxs olan Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova daha fəal görünür. Amma bu fəallığın arxasında bir "dirijor çubuğu"nun olduğunu görməmək də mümkün deyil. Həmin "dirijor çubuğu"nun işarəsi ilə Mariya Zaxarova Azərbaycanı guya beynəlxalq konvensiyaları pozmaqda təqsirləndirir, erməni əsilli Rusiya vətəndaşlarının ölkəyə buraxılmasının qarşısının alınmasını insan haqları pozuntusu kimi təqdim etməyə çalışır. Amma bu, çox əsassız və məntiqdən uzaq bir iddiadır. Azərbaycan uzun müddətdir Rusiya vətəndaşı olan Dilqəm Əsgərovun, sadəcə, öz doğma rayonu olan Kəlbəcərə gedib anasının məzarını ziyarət etməsinə görə Ermənistan silahlı qüvvələri tərəfindən tutularaq qondarma "Dağlıq Qarabağ məhkəməsi" tərəfindən ömürlük cəzaya məhkum edilməsi ilə bağlı dəfələrlə Rusiyaya müraciət etsə də Rusiya öz vətəndaşının taleyi ilə zərrəcə maraqlanmayıb. Ancaq indi hansısa erməni vətəndaşının Azərbaycana gediş-gəlişinin qayğısına qalır. Halbuki heç Rusiyanın özü də təminat verə bilməz ki, Azərbaycana gəlmək istəyən erməni əsilli Rusiya vətəndaşlarının sırasından təxribatçılıq məqsədilə, casusluq məqsədilə gəlməyənlər olmayacaq. Rusiya Xarici İşlər Nazirliyi unutmamalıdır ki, Azərbaycan torpaqları hələ də ermənilərin işğalı altındadır, bu işğal aradan qalxmayınca ermənilərə Azərbaycanda münasibətin dəyişməsini gözləmək məntiqsizlikdir. Əsli erməni olan Sergey Lavrov bütün bunları bildiyi halda Rusiya-Azərbaycan münasibətlərində problem yaratmağa çalışır".

**Politoloq qeyd etdi ki, bununla Rusiya XİN-də kök atmış ermənilər və ermənipərəst qüvvələr Ermənistana kömək edirlər:** "Rusiya-Ermənistan münasibətlərində son zamanlar baş verən soyuqluğu, gərginliyi onlar gündəmdən çıxarmağa, Rusiya ilə Azərbaycanın münasibətlərini pozmağa çalışırlar. Məsələnin bu tərəfi kifayət qədər diqqət çəkicidir. Onların Azərbaycanın Rusiyadakı səfirliyinə yazdığı məktublarda müəyyən qədər təhdid xarakterli fikirlər yer alsa da, səfirlik haqlı olaraq bunun diplomatik normalardan kənar olduğunu əsaslandıraraq qəbul etməmişdi. Belə görünür ki, Rusiya elitasının yuxarı dairələri ilə, xüsusilə Vladimir Putinlə Azərbaycan prezidenti İlham Əliyev arasında dostluq münasibətlərinin daha da dərinləşməsi, Azərbaycan-Rusiya münasibətlərinin az qala strateji müttəfiqliyə doğru yön alması Rusiya XİN-dəki qüvvələri hətta provokasiya xarakterli addımlar atmağa sövq edir. Mariya Zaxarovanın bir həftənin içində ikinci dəfə məlum məsələni o şəkildə ortaya atması provokasiyadır və münasibətləri korlamağa hesablanıb. Bütün bunlar onu göstərir ki, Rusiyanın XİN-dəki ermənipərəst lobbi qrupu bundan sonra daha da fəallaşacaq".

**Q.Hüseynli hesab edir ki, Rusiyadan Azərbaycana qarşı addımlarda Azərbaycanın Avropa İttifaqı ilə saziş imzalamasına hazırlıq məsələsi də müəyyən qədər təsir göstərir:** "Martın sonlarına doğru Azərbaycanın Avropa İttifaqı ilə strateji tərəfdaşlıq haqqında saziş imzalaması gözlənilir. Bu saziş 2018-ci ildə tərəflər arasında müzakirə edilərək paraflanmış və demək olar ki, imzalanmağa hazır vəziyyətdədir. Rusiya tərəfindən Azərbaycana qarşı bəhanələrlə təzyiqlər edilməsində bu amil də dayana bilər. Rusiya tərəfi Azərbaycanın qərbyönümlü siyasətinin, Avropa İttifaqına inteqrasiyanın qarşısını müxtəlif maneələrlə almağa çalışır. Bütün bu əngəlləri yaratmaq missiyasını isə xüsusilə Rusiya XİN və onun rəhbərliyi həyata keçirmək niyyətindədir".

**Politoloq sonda vurğuladı ki, Rusiyada Azərbaycanın mövqeyini müdafiə edən qüvvələr də var.** "Həm rəsmi dairələrdə, həm ziyalılar, həm politoloqlar sırasında belə qüvvələrin sayı getdikcə artır. Azərbaycanı müdafiə edən qüvvələrin sayının getdikcə artmaqda olduğunu hiss edən Rusiya XİN-dəki ermənilər və ermənipərəstlər bütün güclərini işə salıblar ki, iki ölkə arasında münasibətlər soyuqlaşsın. Lakin hesab edirəm ki, həmin məkrli qüvvələr öz məqsədlərinə nail ola bilməyəcəklər. Münasibətlər hər iki dövlətin başçılarının müəyyən etdiyi hədəflər uğrunda davam edəcək", - deyə politoloq əlavə elədi.

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**



# Moskva "kartları" açır: Paşinyana qəzəbin əsas səbəbi - Qarabağ və...

## İrəvana qarşı yeni şok ittihamlar və xəbərdarlıqlar gəldi; erməni baş nazir Rusiyanın planını pozub? Kremlin ideoloqundan açıq təhdidlər: "Putinlə belə oyunlar keçməz", "Ermənistanın yeni rəhbərliyinin bu siyasəti fəlakətlə nəticələnəcək..."

**Rusiya forpost hesab olunan Ermənistana təbii qazın satış qiymətində güzəşt etmədi. İl başlanan kimi "Qazprom" qiyməti 15 dollar artıraraq, min kub metr üçün 165 dollara çatdırdı. Bu, əslində Moskvanın İrəvana yumşaq qaz şantajı və xəbərdarlığı idi.**

Eyni zamanda ona işarə idi ki, bundan sonrakı qiymətlər baş nazir Nikol Paşinyanın Rusiyaya münasibətdə atacağı addımlardan asılı olacaq - hərgah ilk baxışda o, Moskvaya qarşı hansısa kəskin hərəkətlər etməyə hazırlaşırmış kimi görünmür. Rusiyanın sadiq adamı, eks-prezident Robert Köçəryanı hələ də həbsdə saxlamasına rəğmən, Nikol işğalçı ölkənin Putinin projeləri olan Avrasiya Birliyi və "Rus NATO-su"ndan (KTMT) çıxmasına həvəsli görünmür. Bunu onun və tərəfdaşlarının son bəyanatları da təsdiq edir.

*****

**Məsələn, "Yeni Müsavat"ın məlumatına görə, Paşinyanın yaxın silahdaşlarından biri, "Mənim addımım" blokunun deputatı Ruben Rubinyan parlamentin ilk iclasında deyib ki, Ermənistanın həmin qurumlardan çıxmasından söhbət belə gedə bilməz.** "Bizim siyasi komandamız istər inqilab dönəmində olsun, istərsə də ondan sonra, dəqiq şəkildə bəyan edib ki, Ermənistanın xarici siyasət kursunda kəskin dəyişiklik olmayacaq və biz həm Avrasiya İqtisadi Birliyində, həm də KTMT-də qalmaqda davam edəcəyik", - deyə o əlavə edib.

Lakin Rusiyanın rəsmi və ekspert çevrələrində belə bəyanatlar hələ də şübhə ilə qarşılanmaqdadır. Qazın qaldırılan qiyməti bunun təsdiqidir.

**"Qazın qiymətləri üzrə yeni razılaşma Rusiya ilə onun ənənəvi tərəfdaşı Ermənistan arasında münasibətlərin çətin vaxtlardan keçdiyinin siqnalıdır". "Yeni Müsavat" AzərTAc-a istinadən xəbər verir ki, bunu "Moskva-Bakı" portalına müsahibəsində Beynəlxalq Avrasiya Hərəkatının lideri, Kremlin danışmanı və ideoloqlarından sayılan Aleksandr Duqin söyləyib.**

O qeyd edib ki, Rusiya üçün neft və qaz təkcə iqtisadi deyil, həm də geosiyasi amildir. "Əgər Rusiya qazı öz tərəfdaşlarına daha ucuz qiymətə satırsa, bu dolayısı yolla həmin dost ölkələrin dəstəklənməsi anlamına gəlir. Bu dostluq müəyyən öhdəliklər sistemini nəzərdə tutur", - deyə o qeyd edib.

*****

Aydın məsələdir ki, neft-qaz məsələsi həm də siyasi faktordur və Moskva bundan Avropaya, Qərbə qarşı da istifadə edir. Çünki enerji təhlükəsizliyi milli və hətta qida təhlükəsizliyinin mühüm tərkib hissəsidir. Eyni zamanda zəruri ərzaq məhsullarının, elektrik enerjisinin qiymətinə birbaşa təsir edən amildir. Qaz-neft asılılığı enində-sonunda siyasi asılılıq da yarada bilər.

Bu xüsusda Ermənistanın yeni rəhbərliyini Moskvanın qazla şantaj eləməsi məntiqli və anlaşılandır. O da yəqindir ki, Rusiya öz qazını yalnız özünə yaxın və ya forpost bildiyi bir ölkəyə ucuz verə bilər. Ermənistandakı 8 may "məxməri inqilab"dan sonra isə Kreml hələ də Paşinyan və komandasına soyuq nəzərlərlə baxır, Putinin gözü Nikoldan "su içmir".

Haqqı var əslində. Ona görə ki, Paşinyan öz komandasını bütünlüklə qərbpərəst uşaqlardan təşkil edib, Rusiyaya sadiq simaları və hərbçiləri isə iqtidara gələn kimi təqib eləməyə başlayıb, bəzilərini (eks-prezident Robert Köçəryan və başqaları) həbsə atıb. Odur ki, Duqinə bəraət qazandırmamaq çətindir. Hər halda, hər bir dövlət kimi Rusiya üçün də birinci onun öz mənafeyidir.

*****

**Duqinin müsahibəsində isə Paşnyana qarşı başqa irad və ittihamlar da yer alır. O cümlədən Qarabağ məsələsində. Sitat:** "Paşinyanın davranışı qeyri-sabitliyi ilə seçilir. O, Dağlıq Qarabağ probleminin nizama salınması üzrə Ermənistanın keçmiş rəhbərliyinin işğal olunmuş beş rayonun Azərbaycana qaytarılması haqqında vasitəçilərlə, o cümlədən Rusiya ilə birlikdə əldə olunmuş çox ciddi razılaşmalardan imtina etdi. Onları sıfırlayan Paşinyan öz etibarsızlığını nümayiş etdirdi. Ermənistan baş nazirinin hakimiyyətdə olduğu dövrdə Rusiya ilə münasibətlərdə göstərdiyi bu cür etibarsızlıq halları çoxdur. Paşinyan Ermənistanın tərəfdaşları ilə müxtəlif qarşılıqlı fəaliyyət istiqamətləri üzrə qüvvədə olan razılaşmaların dəyişdirilməsini tələb edib. Ümumilikdə, o, hələ özünü düşmən kimi aparmasa da, artıq dost kimi də davranmır".

**Politoloqun sözlərinə görə, hazırda Paşinyanın Rusiya ilə nəyin mümkün, nəyin qeyri-mümkün olacağı ilə bağlı anlaşılmazlığı son həddə çatıb.** "Prezident Putin şantaja dözmür. Rusiya prezidenti tərəfdaşlarına öz öhdəliklərinə əməl etdiyi, onların sözü ilə əməlinin uyğun gəldiyi və etibarlı olduğu təqdirdə sakit davranır. Belə olan halda Putin əsl dost ola və böyük güzəştlərə gedə bilər. Lakin tərəfdaşın sözü ilə əməli uyğun gəlmirsə və yaxud ümumiyyətlə, heç bir sözü yoxsa, Putin bir neçə dəfə xəbərdarlıq edə bilər, lakin sonradan sərt tədbirlər görür. Ermənistanın yeni rəhbərliyi özünün bu cür siyasətini davam etdirsə, bu, sadəcə, fəlakətlə nəticələnəcək. Putinlə belə oyunlar keçməz. Hələlik isə biz əsl həqiqətdə Ermənistanla münasibətlərin pisləşdiyini görürük. Bu, xüsusən Azərbaycanla münasibətlərin yaxşılaşması fonunda baş verir... Azərbaycanla münasibətlərin inkişafı fonunda Paşinyanın Ermənistanın Qərbin himayəsinə keçəcəyi ilə bağlı Putini şantaj etməsi mümkün olan strategiyaların ən yanlışıdır", - deyə o, sərt formada xəbərdarlıq edib.

**Duqin hesab edir ki, bu gün Ermənistan xoş niyyət nümayiş etdirməli, Qarabağ probleminin həllinə səy göstərməli və Rusiya, Türkiyə, Azərbaycan və İranın, bəlkə də tədricən Gürcüstanın da timsalında formalaşan Avrasiya balansına qoşulmalıdır:** "Putinin təklifi məhz bundan ibarətdir və bu, prezidentlər Vladimir Putin, İlham Əliyev və Serj Sarkisyanın Qarabağ nizamlanması üzrə bundan əvvəlki mərhələdə əldə etdikləri razılaşmanın mahiyyətdir. Hesab edirəm ki, bu məsələdə başlıca məqam konfliktin sülh yolu ilə həlidir. Moskva bu məsələdə təkidlidir və iki qədim gözəl xalqın münasibətlərinə dair tarixi məntiqdən çıxış edir. Nizamlanma prosesi davam etməlidir və hamı onun nəticələrini görməlidir".

**A.Duqin ardınca bildirib:** "Münaqişənin sülh yolu ilə nizamlanmasına başlamaq üçün Ermənistan 5 rayonu qaytarmalıdır. Sonra daha 2 rayon qaytarılır. Bunu Ermənistanın güzəşti adlandırmaq olmaz. Çünki Ermənistan dünyaya açılacaq, beynəlxalq iqtisadi layihələrdə iştirak imkanı əldə edəcək, iqtisadiyyatını dirçəltməyə başlayacaq. Azərbaycan isə Rusiya, İran, Türkiyə və digər regional güclərin nəzarəti altında blokadanı götürür, azərbaycanlıların və ermənilərin qarşılıqlı fəaliyyəti, onların dinc yanaşı yaşaması istiqamətində proseslər başlayır. Azərbaycan, Ermənistan, Rusiya, İran və Türkiyə buna səy göstərməlidirlər. Əsas hədəf - sülhdür. Əgər 2019-cu ildə nizamlanma prosesində hərəkətlənmə olsa, bu, böyük qələbə olacaq. Bunun üçün beynəlxalq şərait də mövcuddur. Rusiya və Azərbaycan buna hazırdır. Söz İNDİ İrəvanındır".

*****

Duqinin Qarabağla bağlı fikirləri müəyyən mənada yeni olmasa da, rəsmi Moskvanın İrəvana qarşı hələ də kin və qəzəb saxlamasıma dair dəlillər kifayət qədər təzədir. Əlbəttə ki, Azərbaycan öz ərazilərinin ən əvvəl dinc yolla işğaldan azad edilməsinə çalışır. Qoy ilk mərhələdə Duqinin dediyi kimi, 5 rayon boşaldılsın. Çox yaxşı. Ancaq bunu hamı bilməlidir ki, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi bu zaman siyasi alver predmeti edilməməli, şübhə altına alınmamalıdır - o cümlədən də Rusiya tərəfdən. Moskva buna hazırdımı?

❑ **Siyasət şöbəsi, "Yeni Müsavat"**

---

# Çevrə söhbəti, dost umacağı



Zahid SƏFƏROĞLU
zsafaroglu@gmail.com

**İranın Azərbaycan kökənli Baş Qərargah rəisi, general Məhəmməd Baqerinin Bakı səfəri başa çatdı. Bu ilk səfər şübhəsiz ki, işgüzar yox, kritik xarakterli idi. Detallar açıqlanmasa da, ABŞ sanksiyalarından, Amerika ilə pisləşən münasibətlərdən sonra Tehranın üzləşdiyi həssas durumla, bölgədəki hərbi təhlükəsizliklə birbaşa bağlı idi. Belə görünür, Azərbaycan sarıdan İran bir daha əmin-arxayın olmaq istəyir və bizdən hansısa umacağı var.**

Baqerinin Bakıdan sonra İrəvana getməməsi isə ölkəmizin cənub qonşumuz üçün strateji önəmini məxsusi olaraq qabardır. Ancaq Azərbaycandan İrana təhlükə gəlməz. Bakı buna indiyədək hər hansı əsas da verməyib. Biz qonşuluq, tərəfdaşlıq, dindaşlıq prinsiplərinə sadiqik. Hərçənd bizim də Tehrandan umacağınız var. Çünki özünə rəva bilmədiyini gərək başqasına, illah da, qonşuya görməyəsən.

Məsələn, Azərbaycan çox istərdi ki, qonşu və dindaş İran qonşu və dindaş Türkiyə kimi, müsəlman Pakistan kimi Qarabağ məsələsində, nəhayət, ədalətli mövqe tutsun. Belədə problemin həlli xeyli yaxınlaşar, 1 milyonluq azərbaycanlı Məhəmməd ümməti öz dədə-baba yurduna geri dönərdi.

İnsafən, İran generalı Bakıda bu mövzuda pis danışmadı. Prezident İlham Əliyevlə görüş zamanı o dedi ki, "İran Qarabağı Azərbaycan torpağı sayır və Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir". Baqeri onu da bildirdi ki, İran bundan sonra da ərazi bütövlüyümüzü dəstəkləyəcək. "Sərhədlərin zor gücü ilə dəyişdirilməsi qəbuledilməzdir, İran bu məsələdə hər zaman Azərbaycanın yanındadır". Bunu da iranlı general söylədi.

Farslar demiş, xub. Yoxsa ki, Tehran rəsmilərinin dilindən "Qarabağ müsəlman torpağıdır" kimi mücərrəd, ikibaşlı, ərazi bütövlüyümüz və suverenliyimizə, hətta beynəlxalq hüquqa dəxli olmayan bəyanatlar eşitmək bizə qətiyyən xoş deyildi. Heç olmasa, bu, nəsə yeni yanaşmadır, "Ermənistan işğalçıdır" deyilməsə də, yetərincə ədalətli mövqedir.

Ancaq Baqeri siyasət adamı deyil. Generaldır, hərbçidir. Keşkə, eyni sözləri İranın siyasi rəhbərlərinin də dilindən eşidə biləydik...

Rusiyadan isə bənzər bəyanatlar heç eşitməzsən - nə rəsmisindən, nə də hərbçi-generalından. Yalnız şablon yanaşmalar. Necə ki, srağagün Rusiya XİN başçısı S.Lavrov bəyan edib ki, "Dağlıq Qarabağ ixtilafı İrəvan və Bakının iradəsi ilə və Minsk Qrupu həmsədrləri timsalında beynəlxalq ictimaiyyətin dəstəyi ilə tam həll oluna bilər".

Erməni "rəhmətliyin" oğlu, nə iradə, hansı iradə? Ermənistanın müstəqil iradəsimi var? Hamı bilir ki, Qarabağ məsələsində o, söz sahibi deyil. Ermənininin iradəsi nəyi həll edir ki? Bu, Kremlin vaxtaşırı təkrarladığı başqa bir demaqoji bəyanata bənzəyir ki, "Bakı və İrəvan məsələdə razılığa gəlsin, biz qarant durmağa hazırıq". "Mozalan"ın məşhur tele-personajlarından birinin sözü olmasın, "qoyursuz ki?.."

Qərəz, illər dəyişsə də Moskvanın Qarabağ ritorikası dəyişmir ki, dəyişmir. Ermənistanda hakimiyyətin inqilabla dəyişməsinə rəğmən, ermənin də Qarabağa yanaşması dəyişməyib. Hətta "erməni xəstəliyi" daha pis formada residiv verib...

Ancaq İran və Rusiyanı birləşdirən bir ortaq cəhət var. O da hər ikisinin işğalçı qonşumuza isti münasibətdir. Yadınıza gələr yəqin, İranın baş diplomatı Məhəmməd Cavad Zərif təxminən bir il qabaq İrəvanda olarkən demişdi ki, "Ermənistan regionda sülhün carçısı və təminatçısıdır". İran prezidenti Həsən Ruhani isə işğalçı Ermənistana indiyədək səfər eləmiş yeganə və iri müsəlman dövlətinin başçısı kimi tarixə düşüb.

Zərifin rusiyalı həmkarı Lavrov isə "Dağlıq Qarabağda müharibə Azərbaycanın daxili işi deyil" kimi təxribatçı, ölkəmizi təhdid edən bəyanatın müəllifidir. Bunu da unutmamışıq.

Sözü ona gətiririk ki, təcavüzkar Ermənistanla dost-müttəfiq olan istənilən ölkə özünü nə qədər bizə isti göstərsə də, bu jest yumşaq desək, bayağı alınır, yamaq kimi çıxır. Əfsus ki, İran bizim cəmiyyətdə qardaş Türkiyə, Pakistan qədər nüfuz, rəğbət və etimad yiyəsi deyil. Özü də bu, Güney amilinə, oradakı soydaşlarımızın elementar haqlarının tapdanmasından çox, işğalçı Ermənistanla dostluq münasibətlərinə görədir. Halbuki Azərbaycan bölgədə İran üçün ölçüyəgəlməz dərəcədə lazımlı ölkədir, nəinki heç bir iqtisadi, geosiyasi dəyər daşımayan Ermənistan. Biz hələ din, tarix, məzhəb ortaqlığını demirik.

Odur ki, insanlar kimi dövlətlər də dostlarına, çevrəsinə görə tanınar və qiymətini alar. Yəni çevrəni, dostlarını göstər, deyək kimsən. Əsl dost umacağı isə ayrı şeydir...

# Azərbaycan bu il Ümumdünya Ticarət Təşkilatına üzv ola bilər - gözlənti

## Ekspertlər 22 illik danışıqların, nəhayət, yekunlaşacağını ehtimal edirlər

**Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına (ÜTT) üzvlüyü ilə bağlı 22 ildən bəridir aparılan müzakirələr hələ ki yekun nəticə ilə sonuclanmayıb. Ölkəmiz dünyada ticarət qaydalarını müəyyənləşdirən əsas qurum olan ÜTT-yə üzvlük üçün 1997-ci ildə müraciət edib. Elə həmin il də ÜTT tərəfindən ölkəmizlə danışıqlar üzrə işçi qrupu formalaşdırılıb. Ötən müddət ərzində İşçi Qrupun 14 iclası keçirilib.**

ÜTT-yə üzvlüklə bağlı komissiyanın məlumatına görə, Azərbaycan 21 dövlətlə ikitərəfli danışıqlar aparır. Bu müddətdə cəmi 5 ölkə ilə ikitərəfli danışıqlar protokolla yekunlaşıb. Bunlar Türkiyə, Oman, Birləşmiş Ərəb Əmirlikləri, Gürcüstan və Qırğız Respublikasıdır. Sonuncu dəfə ikitərəfli danışıqlar 2017-ci ilin iyulunda Avropa İttifaqı, ABŞ, İsveçrə, Yaponiya, Hindistan, Rusiya Federasiyası və Tayland ilə mallar və xidmətlər üzrə keçirilib. Ötən ilin dekabrında Cenevrədə Azərbaycanla ÜTT arasında danışıqların aparılması nəzərdə tutulurdu. Bu barədə İşçi Qrupun rəhbəri, xarici işlər nazirinin müavini Mahmud Məmmədquliyev məlumat vermişdi. Lakin danışıqların gedişi ilə bağlı hər hansı məlumat açıqlanmayıb.

Qeyd edək ki, ÜTT-yə üzvlük Azərbaycanla Avropa İttifaqı arasında strateji əməkdaşlıq sazişinin imzalanması üçün əsas şərtlərdən birinə çevrilib. Bununla bağlı məlumatı Aİ-nin Azərbaycandakı Nümayəndəliyinin əməliyyatlar üzrə koordinatoru Ülviyyə Abdullayeva açıqlayıb. Onun sözlərinə görə, Aİ ilə hazırlanmaqda olan sazişin ticarətlə bağlı olan hissəsində bütün müddəalar ÜTT qaydalarına uyğun olmalıdır.




**İqtisadçı-ekspert Vüqar Bayramov bildirir ki, son illərdə təşkilata üzvlüklə bağlı danışıqlar intensivləşsə də, müsbət nəticə hələ yoxdur:** “Azərbaycanın bu təşkilata üzvlüyü ilə bağlı danışıqlarda əsas mübahisəli məqam ölkəmizin hansı statusla üzv qəbul olunması ilə bağlıdır. Belə ki, ÜTT Azərbaycanı inkişaf etmiş ölkə statusunda qəbul etmək istəyir. Azərbaycan hökuməti isə inkişaf etməkdə olan ölkə statusunu əldə etməyə çalışır. Çünki bu halda ölkə daha yüngül şərtlərlə üzvlük əldə edəcək. Güman olunur ki, bu məsələdə razılıq əldə olunacaq”.

**Digər məqam aqrar sektora subsidiya məsələsidir:** “Azərbaycan "Yaşıl zənbil"ə iddialıdır. Bu, Azərbaycan üçün aqrar sektora bu sahədə istehsal olunan məhsulun 10 faizi həcmində subsidiya vermək imkanı deməkdir. Amma ÜTT Azərbaycana 5 faizə qədər subsidiya imkanı tanıyan “sarı zənbil”i təklif edir. Bu məsələdə də tərəflərin razılıq əldə etməsi mümkündür. Bütün bunlara rəğmən, hələ də ÜTT-yə üzvlüklə bağlı bir nəticə əldə olunmayıb".

**V.Bayramovun dediyinə görə, Ermənistanın bizdən əvvəl quruma üzv olması Azərbaycanın üzvlüyünə heç bir problem yaratmayacaq:** “Əvvəla, ona görə ki, qəbulla bağlı səsvermədə müharibə aparan ölkələrin səsi nəzərə alınmır. İkinci tərəfdən isə Ermənistan ÜTT-yə üzv olanda Türkiyə qarşısında öhdəlik götürüb ki, hətta qaydalar dəyişsə belə, Azərbaycanın quruma üzvlüyünün əleyhinə səs verməsin”.

**Ekspertin fikrincə, ÜTT-yə üzvlüklə bağlı danışıqların intensivləşməsi və məsələnin həll olunması indiki mərhələdə daha çox aktualdır:** “Çünki bir tərəfdən qeyri-neft sektorunun inkişafı və ixracın genişləndirilməsi əsas hədəflərdən biridir. ÜTT-yə üzvlük yalnız daxili bazarın xarici məhsullar üçün açılması deyil, eyni zamanda yerli istehsalçılar üçün Avropa bazarlarına çıxış imkanlarının genişlənməsi deməkdir. Digər tərəfdən, üzv olan ölkələr üçün ÜTT tərəfindən daxili bazarını təşkilatın qaydalarına uyğunlaşdırmaq üçün güzəşt müddəti müəyyənləşdirilir. Rusiya üçün bu müddət 7 il idi. Azərbaycan üçün yəqin ki, azı 4-5 illik müddət müəyyənləşdiriləcək ki, bu da kifayət qədər normal vaxtdır. Azərbaycanda gömrükdə şəffaflaşma prosesi gedir, bu da ÜTT-yə üzvlük üçün əlverişli mühitin yaranması deməkdir. Biz hökuməti mümkün qədər qısa müddətdə danışıqları yekunlaşdırmaqla Azərbaycanın ÜTT-yə üzvlüyünü təmin etməyə çağırırıq”.

İqtisadçı-ekspert Natiq Cəfərlinin sözlərinə görə, Azərbaycan 22 ildir bu təşkilata üzvlük prosesini yubadır: “Danışıqlar bütün postsovet ölkələri ilə başlamışdı. 2003-cü ildə Ermənistan və Gürcüstan üzv oldular, ən sonuncu isə Rusiya ilə Qazaxıstan 2015-2016-cı illərdə üzv oldular. Bu üzvlük onların aqrar sektora subsidiyalar verməsində və digər məsələlərdə heç bir problem yaratmadı. Hansı ki, Azərbaycan hökuməti dəfələrlə rəsmi şəkildə bəyan edib ki, bu təşkilata üzvlük kənd təsərrüfatı dövlət dəstəyi və digər məsələlərdə problemlər yarada bilər. Rusiya 4 ildir ÜTT-nin üzvüdür, kənd təsərrüfatına ən çox subsidiya ayıran ölkələrdən biri olaraq qalır”.

**Ekspertin fikrincə, Azərbaycanda problem iki istiqamətdədir:** “Birincisi budur ki, üzv olmaq üçün Azərbaycanın daxili qanunvericiliyi, o cümlədən vergi və gömrük qanunvericiliyi beynəlxalq standartlara uyğunlaşdırılmalıdır. İkinci məsələ isə budur ki, beynəlxalq iqtisad məhkəmələrinin yurisdiksiyası tanınmalıdır. Yəni Azərbaycanda ticarətlə bağlı hər hansı problemlə üzləşən sahibkarın yerli məhkəmələrdən yan keçərək problemini beynəlxalq iqtisad məhkəmələrində həll etmək imkanı yaranacaq. ÜTT-nin öz hüquq müstəvisi var. Məncə, Azərbaycan hökumətinin bu təşkilata üzvlükdən yayınmasının əsas səbəbləri bunlardır. Aqrar sektora subsidiyalar məsələsi doğru deyil. Çünki Azərbaycan üzv olduqdan sonra 10 il müddətində bu subsidiyalarla bağlı güzəştlər alacaq. Elə üzv olan kimi bütün subsidiyalar dayandırılmır ki. Keçid dövrü tanınır və həmin dövr üçün güzəştlər limiti müəyyənləşdirilir”.

**N.Cəfərli bildirir ki, bir istehlakçı olan sadə vətəndaş üçün fərqi yoxdur aldığı məhsul harada istehsal olunub:** “Onu maraqlandıran əsas məsələ məhsulun keyfiyyətidir. Bu zaman yerli istehsalçı məcburdur ki, keyfiyyətli və ucuz məhsul istehsal etsin ki, xaricdən idxal olunan məhsullarla rəqabət apara bilsin. ÜTT-yə üzvlük istehlakçılara seçim hüququnu tanıyır, seçim imkanlarını genişləndirir. Eyni zamanda əhaliyə imkan verir ki, daha keyfiyyətli məhsul əldə edə bilsin. Yəni bu üzvlük əhalinin marağında olan prosesdir. Kimin marağında deyil? Əlbəttə, ölkəyə mal gətirən inhisarçıların, daxili bazarı monopoliyada saxlayan yerli istehsalçıların. Məmur oliqarxiyası ilə çulğalaşmış olan bu inhisarçılar marağında deyillər ki, gömrük qanunvericiliyi beynəlxalq standartlara uyğunlaşsın. Çünki bu halda istədikləri məhsulun idxalına əlavə rüsum tətbiq etdirə bilməyəcəklər. Bildiyiniz kimi, son vaxtlar belə bir mənfi ənənə formalaşıb ki, yerli istehsalçıları qorumaq adı ilə bu və ya digər məhsulun idxalına rüsumlar artırılır. ÜTT-yə üzv olduqdan sonra belə addımlar atmaq mümkün olmayacaq”.

**Ekspertin fikrincə, ümumilikdə götürdükdə, ÜTT-yə üzv olmaq hökumət üçün daha cəlbedicidir:** “Bu, Azərbaycan sahibkarlarının Avropa bazarında biznesi üçün əlverişli şərtlər formalaşdıracaq, ölkəyə xaricdən investisiya axınının güclənməsinə gətirib çıxaracaq. Mənə elə gəlir ki, 2019-cu ildə bu sahədə ciddi dönüş olması ehtimalı böyükdür. Belə ki, bildiyim qədərilə mart ayında danışıqların növbəti raundu olacaq. Azərbaycan tərəfdən danışıqlara rəhbərlik edən xarici işlər nazirinin müavini Mahmud Məmmədquliyevin son açıqlamaları çox pozitivdir. O, sazişin imzalanması ehtimalının yüksək olduğunu demişdi. Məncə, bu, ən doğrusudur. Azərbaycan heç bir halda ÜTT-yə üzvlükdən uduzmayacaq. Bu təşkilata üzv olduqdan sonra isə Avropa Birliyi ilə ikitərəfli əməkdaşlıq sazişinin imzalanması üçün real şərait yaranacaq”.

**❑ Dünya SAKİT,**
**“Yeni Müsavat”**

# İdarəetmədə islahatlar büdcəyə milyonlar qazandıracaq

## Struktur islahatlarının əsas məqsədlərindən biri dövlət büdcəsi vəsaitlərinə qənaət olunmasıdır

**Azərbaycanda həyata keçirilən struktur islahatlarının əsas məqsədlərindən biri idarəetmə sistemində çevikliyin təmin olunmasıdırsa, digəri də dövlət büdcəsi vəsaitlərinə qənaət olunmasıdır.**

Prezident İlham Əliyevin yanvarın 14-də imzaladığı fərmanları ilə ləğv edilən Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinə 2019-cu ilin dövlət büdcəsindən 4 milyon 600 min manat, Prezident yanında Bilik Fonduna 835 min 316 manat, Prezident yanında Strateji Araşdırmalar Mərkəzinə 2 milyon 271 min 488 manat, ləğv edilən və fəaliyyətləri özünümaliyyələşdirmə prinsipi ilə yenidən qurulmalı olan Prezident yanında Elmin İnkişafı Fonduna 4 milyon 36 min 756 manat ayrılmışdı.

Bundan əlavə, Prezident yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyanın Katibliyi, Tarif (qiymət) Şurasının Katibliyi, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının İşçi Qrupu ləğv edilərək fəaliyyətləri ictimai əsaslarla həyata keçirilməklə yenidən təşkil edilib. Bu isə həmin strukturlara ayrılan büdcə vəsaitlərinə də qənaət edilməsi deməkdir.

**İqtisadçı-ekspert Pərviz Heydərovun dediyinə görə, struktur islahatları idarəetməni təkmilləşdirir, onun funksionallığını artırmaq, çevik təşkil etmək və səmərəliliyini artırmaq məqsədi daşıyır:** “İllər üzrə dövlət büdcəsində ümumi dövlət xidmətləri xərclərinə diqqət yetirsək, bunun hər il artdığının şahidi olarıq. Bu tendensiya heç də müsbət hal sayıla bilməz. İdarəetmə xərcləri nə qədər az təşkil etsə, bu, bir o qədər keyfiyyətə və operativliyə dəlalət edər. Odur ki, idarə xərclərinin ildən-ilə, o cümlədən əsassız yerə artmasına imkan verməmək olmaz. Bunun üçün həm idarəetmə orqanlarının daxilində, həm də, ümumiyyətlə, idarəetmə orqanlarının sayları üzrə müntəzəm dəyişikliklər və islahatlar aparmaq lazımdır. Və bu, ilk növbədə işçilərin sayının, ştatlar üzrə kəmiyyət göstəricisinin məhdudlaşdırılması - azaldılması ilə xarakterizə olunmalıdır”.

**Ekspert bildirir ki, prezidentin yanvarın 14-də imzaladığı dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında fərman da əsasən buna xidmət edir:** “Bu, son illər ərzində əhatə etdiyi və toxunduğu qurumların sayına görə struktur islahatları baxımından ən böyük addım sayılır. Belə ki, 10-a yaxın qurum ləğv olunacaq və yaxud fəaliyyətləri özünümaliyyələşdirmə prinsipi, həmçinin ictimai əsaslarla həyata keçirilməklə yenidən təşkil olunacaq. Həyata keçiriləcək işlər nəticəsində həm əmək haqqı, həm də bir sıra istiqamətlərdə xərclər azalacaq. Ölkədə 800 min dövlət büdcəsi işçisi vardır. Bu, 1 milyondan cəmi 200 min nəfər aşağı deməkdir. Bu, olduqca böyük rəqəmdir. Bunun bir hissəsi özəl sektorda çalışsa yaxşıdır və daha məqsədəuyğundur. Onlara verilən maliyyə hesabına isə yerdə qalan dövlət büdcəsi işçilərinin maaşlarını artırmaq olar”.

**P.Heydərov qeyd edir ki, ümumiyyətlə, idarəetmə aparatında, həmçinin təhsil ilə səhiyyədə çalışanların əmək haqlarının ümumən iqtisadiyyatda çalışanların orta aylıq nominal əmək haqqı səviyyəsindən yüksəkdə dayanması üçün dövlət və qeyri-dövlət bölməsində çalışan muzdlu işçilərin sayı ikincinin xeyrinə artmalı və bu sahədə balans düzgün təmin olunmalıdır.**

**❑ DÜNYA,**
**“Yeni Müsavat”**

# Avropa Parlamentində Azərbaycan əleyhinə qətnamə-Bakıdan sərt reaksiya

**Yanvarın 17-də Avropa Parlamenti Azərbaycan əleyhinə qətnamə qəbul edib. İnsan hüquqlarının pozulması ilə bağlı vəziyyətin və konkret olaraq azadlığa çıxmasına iki ay qalanda barəsindəki əlavə maddələrlə cinayət işi açılan gənc blogger Mehman Hüseynovun işinin müzakirə olunduğu iclasda ölkəmizə yönəlik sərt tənqidlər səsləndirilib.**

Contact.az-ın xəbərinə görə, həmçinin Azərbaycan hakimiyyətinin uzun illərdir öz öhdəliklərinə məhəl qoymadığı, insan hüquqlarını və demokratiya normalarını kobud şəkildə pozduğu bildirilib. Çıxışlara ticarət üzrə Avropa komissarı Sesiliya Malstr yekun vurub. O qeyd edib ki, Brüssel Azərbaycan hakimiyyəti ilə Mehman Hüseynovun işi üzrə daimi dialoq aparır və onun dərhal və qeyd-şərtsiz azad edilməsini tələb edir: “”Ona qarşı saxtalaşdırılmış yeni cinayət işi Aİ və Azərbaycan arasında tərəfdaşlıq münasibətlərinə ziddir. Biz Bakı ilə daimi dialoqu davam etdirirk və bu ölkə ilə yeni saziş ətrafında danışıqlarımıza mütləq demokratiyaya, insan hüquqlarına, qanunun aliliyinə və ədalətli dövlət idarəçiliyinə dəstək bəndləri daxil ediləcək. Bu müddəalar çərçivəsində biz Azərbaycanın vətəndaş cəmiyyəti ilə əlaqə saxlayacağıq və fevralın 5-də məsləhətləşmələrimizi Bakıda davam etdirəcəyik".

Contact.az xəbər verir ki, müzakirələrin yekunlarına görə Avropa Parlamentinin Bakını insan hüquqlarının “kütləvi və kobud şəkildə pozulmasına görə” tənqid edən qətnaməsi qəbul edilib.

**Ana Vətən Partiyasının sədri, deputat Fəzail Ağamalı “Yeni Müsavat”a açıqlamasında qətnaməyə sərt reaksiya verdi:** “Avropa Parlamenti vaxtaşırı Azərbaycana qarşı qərəzli mövqeyini nümayiş etdirməkdədir. Bir neçə müddət öncə Avropa Parlamentinin münaqişələr olan ölkələr sırasına əvvəlkilərdən fərqli olaraq Azərbaycanı da əlavə etməsi bizdə belə bir fikir formalaşdırmışdı ki, deyəsən, Avropa İttifaqı ölkəmizə qarşı ədalətli mövqe nümayiş etdirməyə başlayıb. İndi bu cür qətnamənin meydana gəlməsi sübut etməkdədir ki, Avropa Parlamentinin anti-Azərbaycan qüvvələri öz mövqelərindən əl çəkməyiblər, təzyiq və təhdid kampaniyasını davam etdirməkdədirlər. Sual olunur, Mehman Hüseynov kimdir ki, Avropa İttifaqı bu qədər əndişələnib, böyük həyəcan təbili vurur, özünün diplomatlarının onunla görüşünü təşkil edir, görüşdən fotolar çəkdirib ictimailəşdirir, onun südlə keçirmiş olduğu aclığı insan fəlakətinin, faciəsinin ifadəsi kimi təqdim edir? Mehman Hüseynov konkret əməllərinə görə cinayət məsuliyyətinə cəlb olunub, haqqında həbs-qətimkan tədbiri seçilib, istintaq gedir, bu istintaqın nəticəsində məhkəmə Mehman Hüseynova və onun əməllərinə hüquqi qiymət verəcək.

## Fəzail Ağamalı: “Sübut olundu ki, anti-Azərbaycan qüvvələr öz mövqelərindən əl çəkməyiblər”





Fəzail Ağamalı

Avropa Parlamentində böhtan, qərəz kampaniyasının belində gedən həmin o deputatlar faktiki olaraq Azərbaycanın daxili işlərinə qarışmaqla bərabər Mehman Hüseynovla bağlı istintaqın gedişinin obyektiv aparılmasına maneçilik törədirlər. Bu, bütövlükdə beynəlxalq hüquq normalarına daban-dabana ziddir. Avropa Parlamentinin qarşısında Azərbaycanın xüsusi bir öhdəliyi yoxdur. Bu parlament başa düşməli, nəhayət, dərk etməlidir ki, Azərbaycan müstəqil dövlətdir. Azərbaycan müstəqil dövlət kimi vətəndaşlarının hüquq və azadlıqlarını bütün istiqamətlərdə yüksək səviyyədə qoruyur. Ölkəmizə qarşı hansı kampaniyaların aparıldığını hər kəs görür. Baxmayaraq ki, həmin kampaniyalarda şər-böhtan, əxlaqsızlıq, şərəfsizlik var, amma bu məsələlərə Azərbaycanda, hətta dövlət başçısı səviyyəsində böyük təmkinlik göstərilir. Hazırda Fransada nələrin baş verdiyi göz önündədir. Bu ölkədə mitinqçilər kütləvi şəkildə həbsxanalara salınır, təhqir olunur, əzilir, tapdalanır. Avropa buna öz səsini çıxarmır, Fransaya qarşı hər hansı bir fikrini ifadə etmir. Amma Azərbaycanla bağlı nə baş verir? Mehman Hüseynov qanunları pozub, buna görə də cinayət məsuliyyətinə cəlb olunub. İndi belə şəxslər cinayətə yol verirlərsə, Avropada dayaqları var deyə bunları edirlərsə, hər şeyi edə bilərlər? Bu baxımdan anti-Azərbaycan qüvvələrin ortaya qoyduğu bu qətnamələri lənətləyirəm. Onların bu fikirlərini qərəzli hesab edirəm, onları Azərbaycana şər-böhtan atmaqda, öz şərəf və ləyaqətlərini itirməkdə günahlandırıram. Onlar ölkə prezidentinin dediyi kimi, “Konyak diplomatiyası”nın hesabına Azərbaycana qarşı şər-böhtan kampaniyasını davam etdirirlər. Hesab edirəm ki, belə qətnamələr Azərbaycanın beynəlxalq nüfuzuna təsir etmək gücündə deyil".

**Deputat belə qətnamələrin davamlı ola biləcəyini də vurğuladı:** “Bu və ya buna bənzər qətnamələri bundan sonra da gözləyə bilərik. Çünki Azərbaycanın mövqeyi gücləndikcə bu cür kampaniyalar olacaq. Baxın, indiki qətnamə hansı vaxta təsadüf edir? Ölkə prezidenti struktur islahatları ilə bağlı çox ciddi fərmanlara imza atdı. Bu fərmanlar Azərbaycanın demokratik yolda inkişafını təmin edən addımlardır. Bu proseslər davam edəcək. Azərbaycan dünyada öz layiqli yerini müəyyən etməkdədir. Bu da anti-Azərbaycan qüvvələri ciddi şəkildə narahat edir. Onun üçün də şər-böhtan kampaniyaları təşkil etməkdədirlər. Biz dövlətimizin və xalqımızın maraqlarına xidmət edən yolla addımlayırıq. Bu yol Azərbaycanı dünyada inkişaf etmiş ölkələr sırasına çıxarıb və çıxarmaqdadır. Bu yolun yolçusu Azərbaycan xalqıdır, yolun da xəritəsini cızan cənab prezident İlham Əliyevdir”.

❑ **Cavanşir ABBASLI, “Yeni Müsavat”**

# “Deyirlər ki, tərəflər xalqları sülhə hazırlamalıdır, hansı sülhə?!”

## Ekspertlərdən Paris görüşündən sonra yayılmış bəyanata maraqlı reaksiyalar; **Elxan Şahinoğlu:** “XİN deməliydi ki, biz Ermənistandan konkret addımlar gözləyirik”

**Hazırda Azərbaycan və Ermənistanda əsas müzakirə mövzularından biri xarici işlər nazirlərinin Parisdəki 4 saatlıq görüşüdür. Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həllində beynəlxalq vasitəçilər - ATƏT-in Minsk Qrupunun həmsədrləri İqor Popov (Rusiya), Stefan Viskonti (Fransa), Endrü Skofer (ABŞ) bəyanat yayıblar.**

Bəyanatda qeyd olunur ki, həmsədrlər nazirlərlə danışıqlar prosesinin əsas prinsip və parametrlərini, həmçinin danışıqlara güclü təkan vermək məqsədilə Azərbaycan və Ermənistan liderlərinin görüşünü təşkil etmək imkanlarını nəzərdən keçiriblər. Həmsədrlər yaxın vaxtda hər iki ölkənin liderləri ilə görüşməyi planlaşdırır.

Azərbaycanın Xarici İşlər Nazirliyinin mətbuat xidməti Paris görüşü ilə bağlı açıqlama yayıb. “Tərəflər arasında 4 saatdan çox davam edən danışıqlarda daha çox anlayışın və etimadın qurulmasının əhəmiyyəti də daxil olmaqla, faydalı və çox müsbət fikir mübadiləsi aparılıb. Ardıcıl və nəticəyə yönəlik danışıqların qarşıdan gələn ay davam etdirilməsi razılaşdırılıb” - açıqlamada deyilir. O da bildirilir ki, tərəflər danışıqlar zamanı bir sıra məsələləri, o cümlədən hər iki tərəfin əhalisinin sülhə, təhlükəsizliyə və dayanıqlı regional inkişafa hazırlanması yollarını müzakirə ediblər.

Əhalinin sülhə hazırlanması məsələsi xeyli suallar doğurub və geniş diskussiyalara meydan verib. Belə ki, 2019-cu ilin ilk günlərindən başlayaraq Ermənistan-Azərbaycan sərhədində təxribatlar ara vermir, hətta mülki əhali, kənd təsərrüfatı və mühəndis işləri ilə məşğul olan texnika hədəfə alınır. Yanvarın 16-dan başlayaraq qatı millətçiləri öz ətrafında toplayan Daşnaksütyun Partiyası Qarabağda 8 günlük ümumi iclasına başlayıb ki, bu da beynəlxalq hüquqa tüpürməkdir.



Təqribən eyni saatlarda Parisdə keçirilən danışıqlar zamanı bu məsələlərin bir kənara qoyularaq xalqların sülhə hazırlanması məsələsinin əsas vəzifə kimi ortaya qoyulması birmənalı qəbul olunmur.

**“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu “Yeni Müsavat”a açıqlamasında dedi ki, xarici işlər nazirlərinin son Paris görüşünün uğurlu olmadığı qənaətindədir:** “Deyirlər ki, tərəflər xalqları sülhə hazırlamalıdır. Hansı sülhə? Axı işğal faktına son qoyulmadan sülh mümkündürmü? Mərhələli həll planı işə düşmədən xalqları sülhə hazırlamaq mümkün olmayacaq. Belə bəyanatları və ”xalqları sülhə hazırlamalıyıq" cümlələrini 20 ildə çox görmüşəm. Quru sözlər nə sülhü yaxınlaşdırıb, nə də işğal faktına son qoyub. Azərbaycan Xarici İşlər Nazirliyi Dağlıq Qarabağ danışıqları ilə bağlı optimist açıqlamalarına son qoymalıdır. XİN-in bəyanatlarını oxuduqda belə görüntü yaranır ki, danışıqların gedişi Azərbaycanın xeyrinədir. Məsələn, XİN-in bu gün Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Parisdəki görüşü ilə bağlı yaydığı bəyanatdakı bu cümləyə diqqət yetirin: “Tərəflər arasında 4 saatdan çox davam edən danışıqlarda daha çox anlayışın və etimadın qurulmasının əhəmiyyəti də daxil olmaqla faydalı və çox müsbət fikir mübadiləsinin aparıldığı bildirilir”. Bu tip cümlələr işğalçının başının altına yastıq qoyur". **E.Şahinoğlu qeyd etdi ki, 25 ildir eyni bəyanatlar, eyni açıqlamalar, işğal isə davam edir:** “XİN-in bəyanatında göstərildiyi kimi ”müzakirələr faydalı və müsbət istiqamətdə" gedirsə nədən yerimizdə sayırıq? Tam əminliklə deyirəm ki, bu tip açıqlamalar Ermənistanın hazırkı baş naziri Nikol Paşinyanın xeyrinədir. O, hazırda daxili problemlərlə üz-üzədir, ona görə də Qarabağla bağlı status-kvonu uzatmağa imkan verir və belə çıxır ki, biz ona bu imkanı yaradırıq. Halbuki XİN deməliydi ki, biz Ermənistandan konkret addımlar gözləyirik, Dağlıq Qarabağ ətrafındakı rayonların işğal altında saxlanılması üçün heç bir əsas yoxdur və sair".

**Politoloq Arzu Nağıyev isə “Yeni Müsavat”a Paris şəhərində keçirilən görüşlə bağlı bunları bildirdi:** “Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Ermənistanın xarici işlər naziri vəzifəsini icra edən Zöhrab Mnatsakanyan arasında keçirilən görüşdən münaqişənin həlli ilə tam gözləntim olmasa da, bu görüşün keçirilməsində əsas məqam yeni yaradılan erməni hakimiyyətinin Dağlıq Qarabağla bağlı planlarına aydınlıq gətirmək üçün bir imkandır. Buna görə də növbəti görüşün fevralda keçirilməsinin nəzərdə tutulması və bundan sonra hansısa proqnozların verilməsi mümkün olardı. Bu görüş danışıqlar naminə olmasa da, yenə də ATƏT-in Minsk Qrupunun həmsədrlərinin deklorativ bəyanatları ilə yadda qaldı”. **A.Nağıyev qeyd etdi ki, danışıqlar zamanı hər iki tərəfin əhalisinin sülhə, təhlükəsizliyə və dayanıqlı regional inkişafa hazırlanması yollarının müzakirə edilməsi haqqında bəyanatlar da ümumi sözlərdən ibarətdir:** “Azərbaycan buna daim hazırdır və diqqət yetirir. Ermənistan tərəfi düşünməlidir ki, bu bəyanatlarla münaqişə həll edilməyəcək və bunun sonu Azərbaycan tərəfinin öz ərazilərini hərbi yolla azad etməsi ilə nəticələnə bilər və bu variant kimi gündəmdədir. Bunu ən çox Rusiya düşünməlidir, çünki açar fiqurdur və mühüm regional aktyordur. Azərbaycan da öz tərəfindən hücum diplomatiyasını davam etdirəcək”. **Politoloq dedi ki, tərəflərin sülhə hazırlanması məsələsi, sadəcə, bir bəyanatdır:** “Bu, çoxpilləli bir proses olduğuna görə vaxt tələb edir. Regional inkişafa gəldikdə isə Paşinyan hakimiyyəti hakimiyyətdə qalmaq üçün separat və milliyyətçi fikirlərdən əl çəkməlidir”.

❑ **E.PAŞASOY, “Yeni Müsavat”**

# ABŞ-ın Cənubi Qafqazın üç ölkəsində səfirini dəyişməsinin səbəbi

**ABŞ ötən ilin noyabr və dekabr aylarında Azərbaycan, Gürcüstan və Ermənistana yeni səfirlər təyin etdi. Örl Litzenberger Azərbaycana, Linn Treysin Ermənistana səfir, Ross Uilson isə Gürcüstana müvəqqəti işlər vəkili kimi təsdiqləndi. Birləşmiş Ştatların bu qərarı müzakirələr doğurub.**

## Əhəd Məmmədli: "ABŞ bölgəni Rusiyanın əlindən almaq istəyir"
## Elşən Mustafayev: "Səfirlər münasibətlərdə ciddi dəyişiklik etmək iqtidarında olmurlar"

**Politoloq Əhəd Məmmədli "Yeni Müsavat"a bildirdi ki, ABŞ-ın dünyada ən böyük səfirliklərindən biri Ermənistanda yerləşir:** "Fikrimcə, ABŞ Rusiyanın burnunun dibində Ermənistanda inqilaba dəstək oldu. Amerika üçün Cənubi Qafqaz regionu önəmlidir və get-gedə bu önəm artır. Cənubi Qafqazın hər üç ölkəsi İraq və Əfqanıstanda ABŞ-ın hərbi tərəfdaşlarıdır. Gürcüstan ildən-ilə Qərbə tərəf daha yaxın inteqrasiya edir. Yaxın illərdə Gürcüstanda ABŞ-ın hərbi bazasını yerləşdirəcəyini təxmin edirəm. Bunun söhbəti artıq neçə vaxtdır gedir. Azərbaycan ABŞ üçün regionda ən vacib ölkədir. Azərbaycanın strateji önəmi, təbii sərvətləri, Qərb korporasiyalarının milyardlarla yatırımları, İranla həmsərhəd olmaq, ABŞ təyyarələrinin Əfqanıstan və İraqa uçuşları zaman Azərbaycanı tranzit kimi istifadə etməsi və buna oxşar çox misallar gətirə bilərik. Ermənistan Cənubi Qafqazda ABŞ üçün son dayanacaqdır. Bu dayanacağı da Rusiyanın caynağından qoparmaqla ABŞ Cənubi Qafqazı tamamilə Rusiyanın əlindən almaq istəyir. Amerikalılar əbəs yerə Ermənistanda o boyda səfirlik saxlamırlar. Ötən il üç Qafqaz ölkəsində də Vaşinqtonun səfir dəyişməsi təbii ki, bu regionda öz təsir rıçaqlarını artırmaq səbəblərini güdür. İldən-ilə Amerika regionumuzda daha da güclənir. Gürcüstanın ardından Ermənistanda inqilabla hər iki ölkədə qərbyönümlü sayılan qüvvələrin iqtidara gəlməsini müşayiət etdik. Bütün bunlar təsadüfi deyil. Rusiya ABŞ tərəfindən cəmbər əhatəsinə götürülür. Amerika Cənubi Qafqaz siyasətini dəyişmir, gücləndirir. İranla yeni mübarizə fazasında, Türkiyənin iddiaları, Rusiyanın ekspansiya siyasəti regionumuzun Vaşinqton üçün əhəmiyyətini artırdı. Hər üç ölkəyə təyin edilmiş səfirlər çalışacaqlar ki, dövlətlərinin bölgədə təsir rıçaqlarını daha da artırsınlar. Fikrimcə, bu üç təyinat Amerikanın bölgədə mövqelərini gücləndirəcək. Gürcüstan böyük ölçüdə Amerikanın nəzarətindədir. Qalır Azərbaycanla Ermənistan. Ermənistanın yeni iqtidarının ABŞ-da yerləşən erməni lobbisi ilə çox sıx əlaqələri var. Ağ Ev güclü erməni icmasının əli ilə Paşinyana təsir etməyə çalışacaq. Hesab edirəm ki, bu üçlükdə Azərbaycan ABŞ üçün daha vacibdir. Siyasi, iqtisadi və hərbi baxımdan Azərbaycan regionun ən güclü dövləti sayılır. Azərbaycanın iqtisadi potensialı da, təbii sərvətləri də Gürcüstan və Ermənistanla müqayisə edilə bilməz. Azərbaycana təyin edilmiş səfirin fəaliyyətindən çox şey asılı olacaq. Bu il həm region, həm də Azərbaycan üçün sınma nöqtəsi ola bilər. Azərbaycanın kimlə və haraya doğru gedəcəyində böyük ölçüdə bu il aydınlıq gətiriləb bilər".



**Beynəlxalq əlaqələr üzrə ekspert Elşən Mustafayev isə bunları düşünür:** "ABŞ-ın Cənubi Qafqazda yeni səfir təyinatları rəsmi olaraq həmin səfirlərin müddətlərinin bitməsi ilə əlaqələndirilir. Nadir hallarda müddətindən öncə səfir dəyişikliyi edilir. Təcrübə göstərir ki, hətta prosedurlara uyğun səfirlər dəyişəndə belə həmin səfirlərin təcrübəsi, proseslərə yanaşması, bir sözlə, bütün keyfiyyətləri təyin olunacaq dövlətə Vaşinqtonun münasibəti ilə uyğunlaşdırılır. Adətən səfirlər ölkələr arasındakı münasibətlərdə ciddi dəyişiklik etmək iqtidarında olmurlar. Onlar ölkəsində formalaşan xarici siyasət kursunu təyinat yerlərində həyata keçirməklə məşğul olurlar. ABŞ-ın Cənubi Qafqazla bağlı maraqlarında isə hansısa dəyişiklik olduğunu zənn etmirəm. Lakin mövcud situasiyaya uyğun aparılan siyasətin həmişə şahidi olmuşuq. Məsələn, Saakaşvili zamanında Gürcüstanda, Sərkisyan dönəmində Ermənistanda olan situasiya indi fərqlidir. Yeni o zaman qatı Qərb mövqeli Saakaşvili Gürcüstanda, rusiyameyllli Sərkisyan Ermənistana rəhbərlik edirdisə, hazırda hər iki dövlətdə bunların təxminən əksi olan bir siyasət mövcuddur. Sözsüz ki, belə vəziyyətlərə uyğun fəaliyyət baqajları olan diplomatların rotasiyası mütəmadi həyata keçirilir. Azərbaycana yeni təsdiq olunmuş səfirlə bağlı isə indidən bir fikir söyləmək çətindir. Amma o, müxtəlif, fərqli sahələrdə diplomatik təcrübə toplamış biridir. Marşal Fondunda işləmiş, NATO-da, Əfqanıstanda, Balkanlarda, Serbiyada müxtəlif diplomatik vəzifələr daşıyıb. Düşünürəm ki, o da ABŞ-ın Azərbaycanla bağlı müəyyən etdiyi xarici siyasətinə uyğun bir seçim kimi təyin olunub. Amma Bakıya gələndən bir müddət sonra bu siyasətin konturlarını görə bilərik və o zaman daha rahat münasibət bildirmək olar".

**❑ Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# ABŞ əsgərlərinin öldüyü Menbic terroru ilə bağlı şok iddialar

## Trampın ordunu Suriyadan çıxarması qərarından kimlər narahat olub?

**Yanvarın 16-da Menbicdə baş verən terror aktı ABŞ ordusunun Suriyadan çıxarılması qərarını yenidən müzakirəyə çıxarıb. Xatırladaq ki, baş verən terror aktı nəticəsində 7 mülki sakin və ABŞ ordusunun 4 əməkdaşı ölüb.**

Terror aktını İŞİD öz üzərinə götürüb. ABŞ Mərkəzi Qüvvələr Komandanlığı (CENTCOM) bəyan edib ki, terror aktı nəticəsində ölənlərin ikisi hərbçi, bir nəfər Müdafiə Nazirliyinin mülki işçisi, bir nəfər isə tərcüməçi olub. 3 amerikalı hərbçi və 9 yerli sakin isə yaralanıb.

Terrordan dərhal sonra bütün dünyanın diqqəti Vaşinqtona çevrilib. Çünki hər kəs ehtimal edir ki, planlaşdırılmış bu terror ABŞ ordusunun İŞİD-ə qarşı mübarizə missiyasını bitirdiyi üçün bu ölkədən çıxarılma prosesinə mənfi təsir edə bilər. ABŞ müdafiə naziri səlahiyyətlərini icra edən Patrik Şanahan Suriyada İŞİD-ə qarşı mübarizənin davam edəcəyini bildirsə də, Menbic terrorunun ordunun Suriyadan çıxarılması prosesinə təsir edib-etməyəcəyi barədə suala cavab verməyib.

Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan bildirib ki, terror aktı ABŞ ordusunun Suriyadan çıxarılması ilə bağlı qərara təsir etmək məqsədilə törədilə bilər.

Ağ Evin yüksək rütbəli rəsmisi bildirib ki, terror prezident Trampın ordunun Suriyadan çıxarılması ilə bağlı qərarını dəyişməyəcək. Lakin respbulikaçı senator Lindsi Qrem Menbic hadisəsi ilə bağlı Trampı tənqid edib. Senator deyib ki, İŞİD Trampın ordunu Suriyadan çıxarmaq qərarından ilhamlanıb.

Ancaq terrordan bir sutka keçməmiş kürd tərəfi skandal iddia ortaya atıb. Suriyanın şimalında Menbic də daxil olmaqla böyük bir əraziyə nəzarət edən Suriya Demokratik Qüvvələri koalisiyası tərkibində fəaliyyət göstərən "Menbic Hərbi Məclisi" bölgədə terror törətməyə hazırlaşan şəxslərin ələ keçirildiyini açıqlayıb. Və iddia ediblər ki, ələ keçirilən terrorçular Türkiyə kəşfiyyatı ilə əməkdaşlıq edib və MİT-dən (Milli İstihbarat Təşkilatı - K.R.) əmrlər alıb. Kürd qüvvələrinin Menbic terrorundan dərhal sonra məlum qrupu ələ keçirməsi və bu qrupun tez bir zamanda Türkiyə ilə bağlarının olmasını aşkarlaması sual və şübhə doğurur. Şübhə ona görə ki, nədən bu günə qədər deyil, məhz bu gün? Və necə olur ki, ələ keçirilən terrorçular dərhal Türkiyə ilə əlaqələrini açıqlayır?

Əcəba, Menbicdə terror Türkiyə üçün nə qədər lazımlı ola bilər? Kürd tərəfi tutulan terrorçularla mesaj vermək istəyir ki, Menbic terroru Türkiyənin sifarişi ilə törədilə bilərdi. Lakin məlum məsələdir ki, ABŞ ordusunun Suriyadan çıxması və ya orada qalması Ankara üçün xüsusi önəm kəsb etmir. Digər tərəfdən, bir neçə gün əvvəl Ərdoğan-Tramp telefon danışığında da Suriyadan ABŞ ordusunun çıxarılması məsələsinə toxunulub və Ərdoğan bu prosesə dəstək verib. İndi nə oldu ki, Türkiyə birdən-birə ABŞ ordusunun qalmasını istədi? Üstəlik, Türkiyə açıq şəkildə bəyan edir ki, ABŞ ordusu kürdləri qoruyur və PKK-nın Suriya qolu olan PYD/YPG ilə əməkdaşlıq edir. O zaman Türkiyənin ABŞ ordusunun Suriyada qalıb kürdlərə daha çox dəstək verməsində hər hansı marağı olduğunu demək çətindir.



Ancaq bunun əksinə, ilk növbədə kürdlər ABŞ ordusunun Suriyadan çıxmasından narahatdır. Bunu hələ dekabrın 19-da Tramp Suriyadan çıxma qərarını elan edəndə bildiriblər. Çünki hər kəs bilir ki, ABŞ ordusunun çıxması kürdləri Türkiyə və Suriya ordusu arasında qoyacaq. Bu mənada YPG və onun liderləri üçün ABŞ ordusunun çıxması heç cür əlverişli və xoş hadisə deyildi.

ABŞ ordusunun Suriyadan çıxmasından narahat olan ikinci qüvvə regionun səssiz oyunçusu İsraildir. Çünki İsrail birbaşa Suriya münaqişəsində iştirak etməsə də, Suriyada kəşfiyyat fəaliyyətləri həyata keçirir, o cümlədən Əsədə qarşı qüvvələrə gizli və aşkar dəstək verir. İsrail hakimiyyəti bəyan edib ki, ABŞ ordusunun Suriyanı tərk etməsi İran və onun region müttəfiqi Hizbullahın əl-qolunu açacaq. Və təbii ki, ABŞ-ın regiondakı digər müttəfiqləri də Trampın ordunu Suriyadan çıxarmaq qərarından narazı idilər. O cümlədən ABŞ ordusu və bir sıra siyasi dairələr də ordunun Suriyadan çıxarılmasından narazı idilər.

Bu mənada ABŞ ordusunun Suriyadan çıxarılmasını istəməyən qüvvələrin siyahısı çox genişdir. Bu siyahıda Türkiyə ya yoxdur, olsa belə sıralamada ən sonuncu sırada ola bilər. Əlbəttə ki, Menbic terrorunun əsas hədəfi, yəni bu aktı sifariş verənlərin məqsədi ABŞ ordusunun Suriyadan çıxarılması prosesinin dayandırılması, ya da ən azından ləngidilməsi olub. Ancaq hələlik Tramp qərarlıdır, ehtimal ki, Ağ Evdəki strateqlər də terrorun əsas hədəfinin nə olduğunu anlayırlar. Yeri gəlmişkən, iddialara görə, Menbicdə ötən gün öldürülənlərdən biri ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin (CİA) əməkdaşı olub.

Bu arada Türkiyə mətbuatı hökumətin Suriyanın şimalında təhlükəsizlik bölgəsinin qurulmasının səbəblərini yazıb. "Sabah" qəzetində dərc olunan yazıda qeyd edilir ki, Türkiyə Suriyanın şimalında Türkiyə ordusunun nəzarətində "Daxili Təhlükəsizlik Qüvvələri" yaradacaq. İkincisi, bölgədə terror təşkilatlarına dəstəyin kəsilməsini təmin edəcək təhlükəsizlik mərkəzləri qurulacaq. Daha sonra adları terror təşkilatları ilə əlaqədə hallanmamış şəxslərdən ibarət yerli məclislər təşkil olunacaq. Türkiyə ordusu Suriyanın 32 kilometr içərilərinə qədər irəliləyəcək. Təhlükəsizlik bölgəsi ilk növbədə terrordan təmizlənmiş olacaq. O da bəlli olub ki, ilk növbədə hazırda Türkiyə ordusunun nəzarətində olan Afrin, Cerablus və əl-Bab məntəqələrində bu proses həyata keçiriləcək. Bu bölgələrdə təhlükəsizlik Türkiyə ordusu və "Azad Suriya Ordusu" tərəfindən təmin olunacaq.

Xatırladaq ki, Tramp bu həftənin əvvəlində bildirib ki, Suriyanın şimalında Türkiyə və kürdlər arasında 20 mil (33 kilomterə qədər - K.R.) uzunluğunda "təhlükəsizlik zolağı" yaradılacaq. Bununla da həm kürdlər Türkiyənin hücumundan qorunacaq. Həm də Türkiyə ərazisi kürd terrorçu qruplarının hücumundan mühafizə olunacaq. Pentaqon isə bəyan edib ki, "təhlükəsizlik zonası" müzakirələri aparılsa da, detallar dəqiqləşdirilməyib. Türkiyə ordusu son həftələrdə Suriya sərhədinə yeni qüvvələr toplamaqdadır.

**❑ Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 13 (7183) 18 yanvar 2019

# Bakı yaşamaq üçün ən rahat şəhərlər sırasında yoxdur

## Əzim Məsimov: "Bu, ancaq 30 ilə mümkün ola bilər"

**Litvanın paytaxtı Vilnyus şəhəri keçmiş SSRİ məkanında yaşamaq üçün ən rahat şəhərdir. Bu barədə Numbeo Tədqiqat Mərkəzinin indeksində bildirilir. Vilnyus şəhəri indeksdəki mümkün 226 şəhər arasında 99-cu yerdədir. Vilnyus hətta Brüssel (111-ci yer), Madrid (112-ci yer), Seul (124-ci yer), Nyu-York (140-cı yer) və London (163-cü yer) kimi şəhərlərdən irəlidədir. Siyahıda ilk yerlərdə müvafiq olaraq Avstraliyanın Kanberra, Hollandiyanın Eydhoven və ABŞ-ın Roli şəhərləridir.**



Bu siyahıda Bakı 197-ci yerdədir. Ekspertlər bu indeksi şəhər sakinlərinin alıcılıq qabiliyyəti, ətraf mühitin çirklənmə indeksi, yaşayış minimumu, səhiyyə səviyyəsi, iqlim və yol hərəkəti, eləcə də mənzil qiymətləri və şəhər sakinlərinin gəlirləri arasındakı nisbət əsasında hesablayıb.

### Göstəricilər fərqli, lider şəhərlər ondan da fərqli...

"Yeni Müsavat" xatırladır ki, zaman-zaman bu siyahılar yayılır və hər biri digərindən fərqlənir. Siyahının liderləri əsasən Avropa ölkələri olsalar da, postsovet ölkələri də burada yer alır. Ayrı-ayrı illər ərzində hansı ölkələrin bu siyahılara liderlik etdiyinə diqqət yetirək.

2018-ci ilin avqustunda Avstriyanın paytaxtı Vyana Amerikanın "The Economist" jurnalı tərəfindən hər il tərtib edilən yaşamaq üçün ən rahat şəhərlərin reytinqinə başçılıq edib. Şəhərlər səhiyyə, sabitlik, mədəniyyət, təhsil və infrastrukturun inkişafı kimi kateqoriyalara əsasən qiymətləndirilib.

Vyana 100 mümkün baldan 99,1 bal toplayıb. Siyahıda ikinci yerdə Avstraliyanın Melburn şəhəri (98,4 bal), üçüncü yerdə isə Yaponiyanın Osaka şəhəri (97,7 bal) qərarlaşıb. Maraqlıdır ki, Vyana və Kopenhagendən başqa, reytinqin ilk onluğuna daxil olan şəhərlərin hamısı Avstraliya, Kanada və Yaponiyada yerləşir.

Siyahıda dünyanın ən böyük meqapolisləri - Paris, London və Nyu-York müvafiq olaraq 19, 48 və 57-ci yerləri tutub. Bu şəhərlərdə cinayətkarlıq səviyyəsi yüksək olsa da, ictimai nəqliyyat daha çox yüklənsə də, səhiyyə sahəsi yaxşı inkişaf edib, mədəni həyat zəngindir, əməkhaqqı isə yüksəkdir.

Siyahıda MDB məkanından yalnız iki şəhər yer alıb ki, onların da hər ikisi Rusiyadadır. Belə ki, mütəxəssislərə görə, Moskva 6-cı, Sankt-Peterburq isə 54-cü yerə layiqdir. Bakı isə ümumiyyətlə, 100 ən yaşamalı şəhərin yer aldığı siyahıda yer almayıb.

### Yaşanmalı ən ucuz şəhərlər - Tunis birinci imiş

2017-ci ildə isə Tunis yaşamaq üçün ən ucuz şəhərin siyahısında birinci olub. Bu reytinqi Almaniyanın yük taksisi xidmətlərini göstərən "Movinga" şirkəti hazırlayıb. Ekspertlər yeni getdiyiniz yerdə birinci aydakı yaşayışınız - mənzil kirayəsi, telefon xidməti, yemək və nəqliyyat xərcləri-ni hesablayıblar.

Beləliklə, Afrikadakı eyniadlı ölkənin paytaxtı olan Tunisdə bu xərclər 398 dollara başa gəlir. İkinci yerdə Hindistanın cənubundakı Banqalor şəhəridir - ora getməyinizə təxminən 422 dollar xərciniz çıxacaq. Ardınca 532 dollardan bir az çox lazım olacaq ölkə Qahirədir. Dördüncü sırada Buxarestdir. Burada birinci ayda yaşamaq 583 dollara başa gəlir. Sonrakı yerdə gələn Kolumbiyanın Medelinu şəhərinə gedişiniz üçün 603,6 dollar lazımdır.

İlk onluğa Bolqarıstanın paytaxtı Sofiya, Kolumbiyanın paytaxtı Boqota, Nigeriyanın paytaxtı Laqos, Riqa və Budapeşt də düşüb.

Siyahıda ümumilikdə 75 yaşayış məntəqəsi var. Sonuncu yerdə Anqolanın paytaxtı Luandadır. Burada birinci ayda yaşamaq üçün 3,3 min dollar xərcləmək lazımdır.

### Daha çox lider olan şəhər Melburndur - niyə?

"Economist İntelligence Unit" jurnalı dünyanın ən yaşamalı şəhərlərinin adlarını açıqlayıb. 2017-ci ili əhatə edən "Global Liveability Report" hesabatında bildirilir ki, dünyada ən yaşamalı şəhər Avstraliyanın Melburn şəhəridir. Siyahıda ikinci yerdə Avstriyanın paytaxtı Vyana gəlir. Reytinq cədvəlində sonrakı üç yeri Kanadanın Vankuver, Toronto, Kalqari şəhərləri tutur.

Yaşamaq üçün ən yaxşı şəhərlər cədvəlinin ilk onluğunda sonrakı yerlərdə Avstraliyanın Adelaida və Pert, Yeni Zelandiyanın Oklend şəhərləri, Finlandiyanın paytaxtı Helsinki və Almaniyanın Hamburq şəhəri qərarlaşır.

Yuxarıda da qeyd etdiyimiz kimi, yaşamaq üçün ən yaxşı şəhərlərin siyahısına bir qayda olaraq Avropa şəhərləri başçılıq edib. Avstriyanın paytaxtı Vyana 2016-cı ilin həyat səviyyəsinə əsasən dünyada yaşamaq üçün ən yaxşı şəhər seçilib. "Mercer" şirkətinin araşdırmasına görə, Vyana 230 şəhər arasından seçilib. Siyahıda ilk beşliyə Vyanadan sonra İsveçrənin Sürix, Yeni Zelandiyanın Oklend, Almaniyanın Münhen və Kanadanın Vankuver şəhəri daxil olub. Ümumilikdə, siyahıda ilk 30-luqda yer alan şəhərlərin 7-si Almaniyanın, 5-i Avstraliyanın, 4-ü Kanadanın, 3-ü İsveçrənindir.

Bundan başqa, siyahıda Danimarkanın Kopenhagen, Hollandiyanın Amsterdam, İsveçin Stokholm, Belçikanın Brüssel və Norveçin Oslo şəhəri də yer alıb.

Siyahıda son 5-liyə düşən şəhərlər isə İraqın Bağdad, Sudanın paytaxtı Hartum, Haitinin paytaxtı Port-o-Prens, Yəmənin Səna və Mərkəzi Afrika Respublikasının paytaxtı Banqi şəhəri var.

Seçim zamanı şəhərlərdəki siyasi sabitlik, təhlükəsizlik, bank xidmətləri, mətbuatın vəziyyəti, insan haqlarının vəziyyəti, səhiyyə xidməti, təhsil səviyyəsi, nəqliyyat, əyləncə mərkəzləri, daşınmaz əmlak bazarı, iqlim və təbii fəlakətlər kimi bir çox faktorlar nəzərə alınıb.

### Bakının adı siyahıda - həyat səviyyəsi yaxşılaşan şəhər...

"The Economist" məcmuəsi 2016-cı il üçün dünyanın "Ən yaşamalı şəhərləri"nin reytinq cədvəlini və bu barədə hesabatı dərc edib. Hesabatda deyilir ki, dünya şəhərlərinin reytinqini hazırlamaq o qədər də asan deyil, buna görə də məcmuənin araşdırmaçı qolu "The Economist Intelligence Unit" "yaşamalı şəhər" deyilən yeni konsepsiyadan istifadə edib.

**"The Economist"in hesabatında qeyd olunur ki, əslində son qiymətləndirmədən, yəni 2011-ci ildən bu yana şəhərlərin reytinq cədvəlində dramatik dəyişiklik baş verməyib. Dünyanın "ən yaşamalı" 10 şəhəri yenə də aşağıdakı kimidir:**

Melburn (Avstraliya), Vyana (Avstriya), Vankuver (Kanada), Toronto (Kanada), Kalqari (Kanada), Adelaide (Avstraliya), Pert (Avstraliya), Oklend (Yeni Zelandiya), Helsinki (Finlandiya) və Hamburq (Almaniya).

"The Economist" məcmuəsinin reytinqində Bakı "həyat səviyyəsi yaxşılaşan" 10 şəhərə aid edilib.

Dünyanın "ən az yaşamalı" şəhərləri isə Kiyev, Duala (Kamerun), Harare (Zimbabve), Kəraçi (Pakistan), Əlcəzair, Dəkkə (Banqladeş), Tripoli (Liviya) və Dəməşqdir (Suriya).

Lakin 2016-cı ilin hesabatında Azərbaycanın adı xüsusilə çəkilir. Belə ki, Paytaxt Bakı yaxşılığa doğru dəyişən "yaşamalı şəhərlər" sırasındadır. Son beş ildə Bakının reytinqi 1,6 faiz yaxşılaşıb. Bakının ümumi yeri isə 140 şəhərin arasında 103-cüdür.

Yaşama şəraiti yaxşılaşan şəhərlərin sırasında Bakıdan başqa, Dubay (74), Küveyt (81), Bratislava (63) və Varşava (65) da var.

Hesabatda deyilir ki, şəhərlərin göstəricilərindəki dəyişmələr terror, münaqişə və siyasi sabitsizliyi nümayiş etdirir. Məsələn, son beş ildə həyat səviyyəsi Dəməşq (140) və Kiyevdə (131) 25-26 faiz pisləşib. Moskva (80) və Sankt-Peterburq (76) şəhərləri də pisləşməyə doğru dəyişib.

### Əzim Məsimov: "Bakının mərkəzi yaxşıdır, ətrafı isə..."

**Bakı Baş Tikinti İdarəsinin keçmiş rəisi, ekspert Əzim Məsimov "Yeni Müsavat"a açıqlamasında Bakının niyə yaşanılacaq şəhərlər siyahısında olmamasına diqqət çəkdi. Müsahibimiz ən son yayılan siyahını yada salaraq dedi ki, əslində Bakı hər zaman postsovet şəhərləri arasında itirilmiş şəhər hesab edilib. Buna səbəb ekoloji baxımdan Bakının problemli şəhər olmasıdır:** "Bakı ümumən ağır ekoloji paytaxtdır. Tullantılar arasında olub. Yaşamaq üçün bu faktorlar nəzərdə tutulub. Səhiyyə, ekologiya baxımdan problemlər var və mövqeyimizi qaytarmaq üçün ciddi işlər görülməlidir. Doğrudur, Bakı çox dəyişib, gözəl binalar tikilib, nəqliyyatda xeyli irəliləyişlər var. Böyük kimyəvi komplekslər dayanıb. Bu nöqteyi-nəzərdən həm də Bakının yeni imici haqda ciddi təbliğat getməlidir ki, fikir dəyişsin".

**Müsahibimiz vurğuladı ki, Bakının mərkəzi hissəsi yaxşıdır. Parklar, dənizkənarı bulvarlar şəhərin vizual görüntüsünü gözəlləşdirir. Onun sözlərinə görə, şəhərin kənarlarında isə vəziyyət yaxşı deyil:** "Şəhərimizin ərazisinin 3-40 faizi yaxşı vəziyyətdədir. Bakının belə mövqe tutması tamamilə mümkün olandır. Vilnyusu tanıyıram, sakit və təmiz şəhərdir. Sənaye yoxdur, ətrafı meşəliklərdir".



**Ə.Məsimov şəhərin böyük hissəsinin istilik almadığını, fasiləsiz su təminatının aşağı səviyyədə olduğunu, lift təsərrüfatının bərbad vəziyyətdə olduğunu dedi. Onun sözlərinə görə, məhz bu kimi problemləri həll edəndən sonra Bakının yaxın 30 ildə yaşanacaq şəhər olmasına ümid bəsləmək mümkündür.**

❑ **Sevinc TELMANQIZI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 13 (7183) 18 yanvar 2019

# "Qiymət artsa, siqaretdən istifadə azalar" iddiasına reaksiyalar

## Tütündən istifadə ilə mübarizədə qiymət amili necə rol oynayır...

**Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Azərbaycan üzrə ölkə ofisinin rəhbəri Fatoş Hande Harmancı ölkə əhalisinin tütündən istifadəsi ilə bağlı rəqəmləri açıqlayaraq həyəcan təbili çalıb. Müşahidələrini bölüşən ekspert bildirib ki, Bakıda gənclərin siqaretdən və ya qəlyandan istifadə etməyə maraqları çoxdur. Onun sözlərinə görə, 1 saatlıq qəlyan çəkmək 40 siqaretə bərabərdir: "Bütün dünyada tütündən istifadə ciddi problem olaraq qalır. Təəssüf ki, Azərbaycanda da tütündən istifadə edən kifayət qədər insan var".**

ÜST rəsmisi bildirib ki, Azərbaycanda təxminən 1,3 milyon insan tütündən istifadə edir. O qeyd edib ki, həmin insanların da yarısı 70 yaşına çatmadan dünyalarını dəyişəcəklər: "Ona görə də bunun qarşısını almaq üçün həyata keçiriləcək mübarizə çox vacibdir. Bu istiqamətdə atılacaq addımlardan başlıcası tütün məmulatlarının qiymətinin artırılmasıdır. Çünki Azərbaycanda siqaretlərin qiyməti çox ucuzdur. Bu da xüsusilə gənclərin siqaret çəkməyə başlamasının qarşısını nisbətən almış ola bilər".

**ÜST rəsmisi əlavə edib ki, tütün məmulatlarının reklamlarını azaltmaq lazımdır:** "Dükanlarda, böyük marketlərdə siqaretlər açıq şəkildə satılır. Bunu qapalı şəkildə satmaq, yaxud qutularının yenilənməsini təmin etmək olar. Ölkədə keçən il qəbul edilən qanunu təqdirəlayiq hal kimi qiymətləndirirəm".

**H.Harmancı hesab edir ki, əgər tütündən istifadə ilə bağlı mübarizə tədbirləri həyata keçirilməsə, siqaret çəkənlərin sayı durmadan artacaq:** "Çünki tütün satışı ilə məşğul olan sahibkarlar qazanc əldə etmək istəyirlər".

Bəs görəsən, tütün məhsullarının qiymətinin artması onlardan istifadəni azaldacaqmı?

**Mövzu ilə bağlı "Yeni Müsavat"a danışan sosioloq Əhməd Qəşəmoğlu qiymət artımının problemi köklü şəkildə həll etməyəcəyini bildirdi:** "İndiki vaxta cəmiyyət gündən-günə mürəkkəbləşir və birtərəfli hər hansı metodun tətbiqi problemi heç vaxt həll edə bilməz. Çünki cəmiyyət mürəkkəbləşdikcə bu məsələlərə münasibət də dəyişir. Ola bilər ki, tütün məhsullarının bahalaşması kimlərinsə onu daha az alması ilə nəticələnə bilər. Ancaq bu, ümumilikdə problemin həllinə gətirib çıxartmaz. Bu prizmadan yanaşsaq, narkotik maddələr də həddindən artıq bahadır, ancaq ondan istifadə edənlərin sayı da azalmır. Bu mənada qiymətləri artırmaq çıxış yolu deyil. Burada kompleks yanaşma həyata keçirilməlidir. İndiki dövrdə hər hansı problemin həlli üçün mexaniki yollarla təsir o qədər də effekt verməyəcək. Mexaniki yollardan biri də qiymətləri artırmaqdır, yəni kənardan mexaniki təsir etməkdir. İdarəetmə o zaman uğurlu sayıla bilər ki, obyekt özü də problemin aradan qalxmasında köməkçi olsun".



**Ə.Qəşəmoğlunun sözlərinə görə, bunun üçün ciddi maarifləndirmə işinə ehtiyac var:** "Ancaq maarifləndirmə işi də bu cür olmamalıdır. Harasa plakat yazıb asmaqla və ya televiziyada bir-iki çarx verməklə maarifləndirmə tamamlanmır. Bu, yanlış yanaşmadır. Tədris sistemində, orta məktəblərdə aşağı yaşlardan bu iş başlamalıdır. Əgər valideyn siqaret çəkirsə, onun qucağında böyüyən uşaq istər-istəməz o tütün iyini öz atasının iyi kimi qəbul edir. Onun beynində elə kodlar formalaşır ki, sonradan hansı qiymətə olsa da siqareti alıb çəkəcək. Ona görə də bu məsələdə elmi metodlardan istifadə edilməli, fəaliyyət proqramları hazırlanmalıdır. O zaman bəlli olacaq ki, təhsil sistemində hansı işlər görmək lazımdır, hansı inzibati metodlara əl atmaq lazımdır. Bunları etmədən biz istəyirik ki, hər hansı problemin həllində uğur qazanaq. Mən sosial -iqtisadi sahədə mütəxəssisəm və əminliklə deyirəm ki, bu kimi prosesləri hər hansı bir-iki tədbir görməklə həll etmək mümkün deyil. Hər hansı rol oynasa da arzuolunan nəticəni verməyəcək".

Qeyd edək ki, tütünün bir çox ziyanları haqqında danışılıb. Onlardan ən önəmlisi ağciyər xərçəngi, astma, ağciyərin xroniki xəstəliklərinə yol açmasıdır. Həmçinin siqaret çəkmək eyni zamanda immunitet sistemini də zəiflədir. Siqaretin və siqaret tüstüsünün tərkibi dəyişkən xüsusiyyətli zərərli maddələrdən ibarətdir. Aparılan araşdırmalar siqaret tüstüsündə minlərlə zərərli maddə olduğunu ortaya çıxarıb. Bu maddələrin böyük bir qismi xərçəng xəstəliyinə səbəb olur. Bu səbəbdən hökumət də siqaretlə mübarizə istiqamətində bəzi inzibati addımlar atıb. Qadağan edilən yerlərdə siqaret çəkilməsini təklif edənlərə cərimə tətbiq olunacaq. Bununla bağlı İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilib. Yeni bəndə əsasən, "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Qanunla qadağan edilən yerlərdə tütün çəkilməsinə şərait yaradılmasına, yaxud tütün çəkilməsinin təklif edilməsinə görə vəzifəli şəxslər 500 manat, hüquqi şəxslər 1200 manat məbləğində cərimə ediləcək. Bundan başqa, tütün məmulatları tullantılarının ətraf mühitə atılmasına görə 50 manat məbləğində cərimə nəzərdə tutulur.

"Tütün və tütün məmulatı haqqında" Qanunda isə deyilir ki, tütün, tütün məmulatlarının və onların ləvazimatlarının, o cümlədən tənbəki çubuqlarının, qəlyanların, elektron siqaretlərin, siqaret kağızlarının, alışqanların reklamı qadağandır.

❑ **Nərgiz LİFTİYEVA**
**"Yeni Müsavat"**

# Azərbaycan əhalisi ziyanlı qidalanan ölkələr sırasında-səbəb

## Qida mədəniyyətimizdəki yanlışlıqlar və ölümə aparan səbəblər...

**Fridrix Şiller adına Yen Universitetinin alimləri zərərli qidalanma səbəbi ilə yüksək ölüm göstəriciləri olan ölkələrin siyahısını tərtib edib. Keçmiş SSRİ ölkələri bu siyahıda ilk 10-luqdadır. Siyahıda ilk yerdə Özbəkistandır, burada pis qidanlanma səbəbilə hər 100 min nəfərə 394 ölüm hadisəsi düşür. İkinci yerdə gələn Türkmənistanda hər 100 min nəfərə 376 ölüm halı, Qırğızıstanda 350, Ukraynada 349, Moldovada 328, Azərbaycanda isə 319 ölüm düşür. Sonrakı yerləri isə Belarus, Tacikistan, Qazaxıstan və Rusiya bölüşür.**

Alimlər bu ölkələrin sakinlərinin qidada yüksək miqdarda duz istifadə etməsi və tərəvəz, qoz-fındıq və tam buğdalı taxılı az istifadə etməsi səbəbindən xəstəliklərə məruz qaldığını iddia edirlər.



**Qeyd edək ki, Azərbaycan insanının pis qidalanmasını yerli ekspertlər də təsdiq edir. Tanınmış həkim Seyfəddin Əsədov "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Azərbaycanda insanların təmiz meyvə-tərəvəz məhsulları ilə qidalanma imkanı digər ölkələrlə müqayisədə daha yüksəkdir:** "Çox təəssüf ki, insanlarımız tərəvəz yemirlər. Bu gün çox az qadın evinə gələn qonağın süfrəsinə göyərti qoyur. Eləcə də insanlar meyvə yeməkləri ilə fəxr edirlər. Bu baxımdan təbii ki, bu siyahıda bir reallıq var. Bizdə insanların ölümündə qida rasionunun düzgün qurulmaması çox böyük rol oynayır. İnsanlarımız qidanı qarışdırırlar. Mən bir həkim kimi və dünyanın bir çox ölkələrində olmuş şəxs kimi deyirəm ki, ən çox bizim insanlar yeməkləri qarışdırırlar və həddindən artıq çox yeyirlər. Bu enerjini isə sərf eləmirlər. Bu gün ölüm səbəblərini araşdırdıqda görürlər ki, düzgün olmayan qidalanma və fiziki hərəkətin olmaması, qidadan alınan enerjinin sərf olunmamasıdır. İnsanın gün ərzində qəbul etdiyi qidalardan aldığı enerji həmin gün istifadə olunmalıdır. İnsanlar yeyib yatırlar. Yeməkdən sonra yatmaq və uzanmaq olmaz".

**S.Əsədin sözlərinə görə, insanlar, xüsusən də gənclər fast-fooda çox meyllidirlər:** "Evdə hazır yeməyi yemir, bayırdan fast-food, dönər, pizza sifariş edirlər. Bu da ömrü qısaldır və deyilən rəqəmlərin əmələ gəlməsinə səbəb olur. İnsanlarda şüuru dəyişmək üçün geniş təbliğat aparılmalıdır. Bu gün dünyada xərçəng xəstəliyinin yaranmasının ən böyük səbəblərindən biri heyvani zülallar, hərəkətsizlik və şəkər məhsullarıdır. Bu 3 faktor xərçəng xəstəliyinin əmələ gəlməsində çox mühüm rol oynayır. Bizdə insanlar ət yeməndən doymurlar, bu bir xəstəliyə çevrilib. Həmin qidalar da hərəkətlə kompensasiya olunmur. Şəkər məmulatları da hədsiz çox istifadə olunur, uşaqlar şirniyyatla nəfəs alırlar. Bu qeyd etdiyimiz faktorlar xəstəliklərin və ölümün əsas səbəbləridir".

**Seyfəddin Əsəd onu da qeyd etdi ki, Azərbaycanda insanlar hər gün normadan 5 dəfə artıq duzdan istifadə edirlər:** "Bu da orqanizmdə maddələr mübadiləsini pozur. Ölkəmizdə faiz etibarilə oynaq xəstəliklərindən əziyyət çəkənlər həddindən artıq çoxdur. Duz insan orqanizmində suyu yığır və bu da piylənməyə gətirib çıxarır. Bizim insanların qışda bu qədər turşu və şoraba yeməsi faciədir. Ümumiyyətlə, normal cəmiyyət düşünməlidir ki, bankaya qoyulmuş məhsullardan istifadə etmək zərərlidir. Görürsünüz ki, nə qədər faciələrə gətirib çıxarır, ailələr zəhərlənib ölür. Pomidor turşusunda, pəlpətöyün turşusunda botulizm çöpləri yaranır. Kompot içən kimi insanda köp yaranır, bu məhsul sağlam olsa köp olmaz. Şorabadan istifadə hədsiz çoxdur, körpə uşaqlar şoraba ilə yemək yeyir. Bu faciədir".

Qeyd edək ki, pis qidalanmanı insanların sosial durumu ilə izah edənlər də var. Belə ki, qeyd olunan ölkələrin, o cümlədən Azərbaycan əhalisinin maddi rifahı Avropa əhalisi ilə müqayisədə daha aşağı olduğundan daha keyfiyyətsiz məhsullardan istifadə edirlər. Ancaq bir fakt da var ki, duzdan artıq istifadənin maddi vəziyyətlə hər hansı əlaqəsi yoxdur. Digər tərəfdən, Azərbaycan aqrar ölkədir və meyvə-tərəvəz məhsulları kifayət qədər ucuzdur, ən azı emal olunmuş konservləşdirilmiş məhsullardan və fast-fooddan daha ucuz başa gəlir. Həmçinin ölkəmizdə bu məhsullar aqrotexniki qaydalara çox məruz qalmadığından təbiiliyi və keyfiyyəti Avropa ölkələri ilə müqayisədə daha yüksəkdir. Təsadüfi deyil ki, Azərbaycan kənd təsərrüfatı məhsulları dünyanın əksər ölkələrində məhz dadına görə rəqabətdə ilk yerləri tutur. Bu səbəbdən əsas problem məhz qida mədəniyyətimizlə bağlıdır. Restoran və şadlıq evlərində süfrəyə onlarla növ yeməyin və salatın düzülməsi, evlərdə bayram süfrələrində 4-5 cür yemək qoyulması və qarışıq qidalanma, qış aylarında gündəlik olaraq yüksək duzlu şorabaların yeyilməsi, tam taxıllı çörəklərdən istifadə edilməməsi tez yaşlanmanın, ölüm və xəstəliklərin cavanlaşmasının əsas səbəbidir.

❑ **Nərgiz LİFTİYEVA**
**"Yeni Müsavat"**


## Diqqət! Diqqət!!!

2012-ci ildən bütün beynəlxalq bal sərgilərinin qalibi - Qırğızıstanın dünya şöhrətli "Darı Tyanşana" şirkətinin balları və müalicəvi bal məhsulları geniş çeşidlə Bakıda:

**- Arı südü (cavanlıq cövhəri)**
**- Ağ bal (Atbaşı)**
**- Qara bal (Qreçka)**
**- İssık kul balı**
**- Esparset balı**
**- Karkıra balı**
**- Uzqen balı**
**- Suusamır balı**
**- Çayek balı**
**- Mumiya**
**- Şan balı və s.**

Diqqətinizə çatdırırıq ki, Şirkətin məhsulları yarmarka və bazarlarda satılmır. Çatdırılma pulsuzdur.

**Əlaqə telefonları: (051) 922-15-71;**
**(055) 300-29-91**
**Ünvan: Neftçi Qurban küçəsi 103**
**(5 saylı doğum evinin yaxınlığında)**


**Elan**

**Ağdaş şəhəri Azadlıq küçəsi. 80/33 mənzilin sakini Paşayeva Zərnisə Mayıl qızına məxsus 696 №-li qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**

YENİ MÜSAVAT
N 13 (7183) 18 yanvar 2019




# Özünü tədricən tərbiyə etmək

**Cümə söhbətləri**

**Bismilləhir-Rahmənir-Rahim! Allaha şükürlər olsun ki, bizlərə yaşama, dərk etmə nemətləri nəsib edir. Allah Təala bizlərə bu həyatımızın içərisində etməli olduğumuz işləri həyata keçirməyi, çəkinməli olduğumuz məsələlərdən uzaq olmağı nəsib etsin!**



**Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com**
**İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı**

### Əməlin baş tutmasının 2 bünövrəsi

Silsilə bəhslərimizdə qeyd etdik ki, hər bir insan yaxşı əməl sahibi olmaq istəyir. İstisnasız olaraq hər bir insan yaxşı əməl etmək istəyir. İnsan yaxşı əməl nəyi bilirsə, ona can atır.

Bir misal çəkim. Bir dəfə bayramlardan birində bir uşaq Qurani-Kərimlə bağlı bilgilərini təzahür etdirirdi, müxtəlif yerlərdən suallar verilirdi, uşaq da cavab verirdi. Bu yerdə camaat onu alqışlamaq istədi. Bu toplumda insanlar bir kəsi alqışlamağın yolunu əl çalmaqda bilir, heç bir xüsusi tənzimləmə olmadan Qurani-Kərim məclisləri üçün xas olmayan bir şəkildə çox gurultulu əl çalmaqla uşağı alqışlayırdılar. Bu toplum yetmiş il Sovet dönəmini yaşayarkən sevincini, məmnunluğunu, razı qalmasını, alqışlamanı bu cür anlayıb, bundan başqa cür təsəvvürü yoxdur. Onlar bu işi yaxşı iş bilib edirdilər. Halbuki həmin məclisə xas vəziyyət deyildi.

Deməli, bu, bir fitri məsələdir ki, hər kəs yaxşı əməl etməyə can atır. Bir qədər elmi anlamda desək, insanlar hamısı uğura can atır. İslam əxlaq sistemində yaxşı əməlin baş tutması üçün iki zəruri bünövrə var. Biri - əməlin niyyəti, biri məzmun və formasıdır.

Bir əməl zahirən gözəldirsə, amma niyyəti yaxşı olmasa, İslamın əxlaq sisteminə görə o əməl yaxşı əməl sayılmır. Və əksi də elədir - əməlin özünün niyyəti yaxşıdır, amma özü qırmızı xətlərdən kənardadırsa, Allahın bəyənmədiyi işlər çərçivəsindədirsə - bu zaman da o əməl yaxşı əməl hesab olunmur.

Niyyət öz-özünə yaxşı ola bilmir. Niyyətin yaxşı ola bilməsi üçün imanımız diri olmalıdır. İmanımız da diri olması üçün tanımamız olmalı və şövqümüz, məhəbbətimiz olmalıdır. Mərifət və məhəbbət cəmləşəndə imanın diriliyi əmələ gəlir. Bunun da üstünə gəldik ki, bu diriliyə mane olan üç amil var - həvayi-nəfs, dünyapərəstlik və şeytanın (lən) vəsvəsələri.

### Ən çox tanıyanlar

Yeri gəlmişkən, tanıma ilə bağlı hədislərə diqqət edək.

Tanımağın dəyərini vurğulayan hədisdə Allahın Peyğəmbərindən (s) nəql edilir: "Sizlərin ən imanlısı - ən çox tanıyanlarınızdır".

Bu mövzuda İmam Əli (ə) buyurub: "Elm - ilk yol göstərən, (Allah Təalanı) tanıma isə onun son nöqtəsidir".

Bilik əldə etməklə tanımanın mütənasibliyi barədə İmam Hüseyndən (ə) buyurulur: "Bilik qazanmaq tanımağı daha da bərəkətli edər".

Dinimiz buyurur ki, tanımasız əməlin dəyəri yoxdur. İmam Sadiq (ə) buyurur: "Allah bilmədən, qavrayışsız heç bir əməli və heç bir əməllə müşaiyət olunmayan qavrayışı qəbul etməz. Kim qavrayışa nail olsa, bu tanıma onu əmələ doğru istiqamətləndirər. Əməli olmayanın qavrayışı da yoxdur".

### Tanımanın səmərəsi

Bəs tanımanın ən səmərəli təzahürü hansıdır? İmam Əli (ə) buyurub: "Özünüdərk - ən faydalı tanımadır".

Digər yerdə İmam Əlidən (ə) nəql edilir: "Özünü dərk etməyə nail olmuş şəxs, ən böyük qələbəni qazanmışdır".

Tanıyanların mahiyyəti barədə hədisdə İmam Əlidən (ə) nəql edilir: "Özlərini ən yaxşı tanıyan insanlar - Allahdan ən çox qorxanlardır".

Digər yerdə İmam Əlidən (ə) nəql edilir: "Özünü tanıyan, Allahını da tanıdı".

Yenə də İmam Əlidən (ə): "Kimsə öz nəfsinin şərafətini başa düşsə, onu dünyanın çirkabından təmiz saxlamağa layiqdir".

İmam Sadiqdən (ə) nəql edən hədisdə isə tanımanın böyük səmərəsinə işarə edilir: "Əgər insanlar Allahı tanımağın nə qədər dəyərli olduğunu bilsəydilər, dünya həyatının bəzək-düzəyinə və onun Allah Təalanın düşmənlərinə verdiyi nemətlərinə göz dikməzdilər. Dünya, onların nəzərlərində ayaqlarının altındakı torpaqdan daha dəyərsiz olardı.

Onlar Allahı tanımaqdan, həmişə cənnət bağlarında övliyalar və Allahın dostları ilə birgə olanlar kimi bəhrələnərdilər.

Allahı tanımaq hər tənhaya munis, hər kimsəsizə dost, hər qaranlığa işıq, hər gücsüzə güc və hər xəstəyə şəfadır".

Bu mövzuda Rəsuli-Əkrəmdən (s) nəql edilir: «Allahı lazım olduğu kimi tanısaydınız, dənizlərin üstündə gəzər, dualarınızla dağları yerindən qoparardınız».

İmam Əlidən (ə) nəql edilən hədisdə isə tanımanın artması ilə təvazökarlığın güclənməsinin əlaqəsinə diqqət çəkilir: "Allahın əzəmətini dərk edənə özünü böyük sanmaq yaraşmaz. Çünki Allahın əzəmətini dərk edənlərin böyüklüyü, Onun qarşısında təvazökar olmalarına görədir".

Bəs tanımanın ən aşağı səviyyəsi nədir? İmam Musa Kazim (ə) tanımanın ən aşağı dərəcəsi haqda suala cavabında buyurmuşdur: "Tanımanın ən aşağı dərəcəsi - Allahdan başqa məbudun olmadığını, Onun tay və bənzərinin olmadığını, əzəliliyini və əbədiliyini, (vücudunun) sabitliyini, var olduğunu və yoxluğun Ona yolu olmadığını bəyan etməkdir".

### Allahı necə tanımaq?

Bəs Uca Allah necə tanınır?

**İmam Əli (ə) buyurub:** "Hər kim Allahı vəsf edərsə, ona hədd və sərhəd qoymuş olar. Hər kim ona hədd və sərhəd qoyarsa, onu sayla saymışdır. (Onun üçün hissələr təyin etmişdir). Hər kim onu sayla sayarsa, Onun əzəliliyini batil etmişdir. "Necədir?" deyə soruşan, şübhəsiz ki, Onu vəsf etmişdir. "Haradadır?" deyə soruşan, Onu bir məkanda qərar vermişdir".

**Yenə də İmam Əli (ə) buyurub:** "(Allah) Birdir, ancaq sayda deyil. Daimidir, ancaq onun (əvvəli və sonu olan) vaxt anlamı ilə deyil, dayanıqlıdır, ancaq sütun və söykənəcəklərlə deyil".

"Allah daha böyükdür" deyən kişiyə İmam Sadiq (ə) buyurdu: "Allah nədən daha böyükdür?" Ərz etdi: "Hər şeydən". İmam Sadiq (ə) buyurdu: "Onu məhdudlaşdırmısan". Həmin kişi ərz etdi: "Elə isə necə deyim?" Buyurdu: "De ki, Allah vəsf olunmaqdan daha böyükdür".

İmam Hadi (ə) buyurub: "Xaliq, Onun özünü etdiyi vəsfdən qeyri vəsf edilməz. Hisslər Onu dərk etməkdə gücsüz, xəyallar Ona çatmaqda çarəsiz və düşüncələr Onun izahında aciz qaldığı, gözlər isə Onu əhatə etməkdə gücsüz olduğu halda, Tanrı necə vəsf olunar?

Vəsf edənlərin vəsfindən daha yüksək və dua edənlərin duasından daha ucadır".

### İmanın diri qalmasına mane olan amillərdən necə qorunaq?

Sual budur ki, nə edək, necə edək, niyyətlərin qarışmasının qarşısında necə dayanıqlıq göstərək? Hamımızı düşündürən, fikirləşdirən məsələ məhz budur. Əxlaq ustadları buyururlar ki, labüddür ki, insanın nə etməsi üçün proqramı olsun. Əgər bir insanın hesab-kitabı, proqramı olmasa, özü üçün müəyyən etdiyi mənəvi yol xəritəsi olmasa, heç nə edə bilməyəcək.

Əgər yoxumuzdursa, deməli uğura çatmağımız, irəli getməyimiz mümkün deyil. Necə olur ki, insan dünyəvi məsələlərdə uğura çatmaq üçün bir proqram qurur, hesablamaları olur, onu ildən-ilə təkmilləşdirir və s. Bunun təzahürlərini biz bütün sahələrdə görürük. Necə ola bilər ki, bizim mənəvi həyatımız öz axarı ilə nizamlansın? Gərək bizim də sistemli proqramımız, hesablamalarımız olsun.

Əxlaq ustadları zəruri bilir ki, insanın özü ilə bağlı mənəvi proqramı olmalıdır. Bunu heç kimə elan etməyə gərək yoxdur. İnsanın özü üçün qurduğu mənəvi proqramı gizli olmalıdır. Çünki, nə qədər bildirsə, o qədər adiləşəcək və dəyərdən düşəcək.

Əllamə Misbah Yəzdi cənabları buyurur ki, bunun xüsusi bir iynəsi yoxdur ki, vursunlar, hər hansı bir həb yoxdur ki, insan onu içsin və dünyaya vurğun olmasın. Mütləqdir ki, proqram olsun.

İkinci tərəfdən, biz əmin olmalıyıq ki, bu, bir tədrici prosesdir, bir günə baş tutan məsələ deyil. Dünyəvi işlərdə də bir günə heç nə olmur. Nə dil öyrənən bir günə öyrənir, nə müalicə alan bir günə sağalır, nə idmanla məşğul olan bir günə idmançı olur və s.

Proqram olmalı və tədricilik olmalıdır. Hədəf budur ki, İlahi peyğəmbərlərin (ə) və Allahın dostlarının dostu olaq, özümüzü onların karvanına daxil edək. Əllamə Misbah Yəzdi buyurur ki, bu, bir pilləkən kimidir. Birdən-birə beşinci pilləkənə çıxmaq mümkün deyil.

**Həzrət Əli (ə) Həzrət İmam Həsənə (ə) bir məktubunda tövsiyə edir. Tövsiyədə buyurur:** "Özünü öyrəşdir ki, qərar verərkən həvayi-nəfsinə müqavimət etməyi bacarasan və imanla qərar verəsən".

Həzrət Əmirəlmöminin (ə) Həzrət İmam Həsənə (ə) tövsiyə edir ki, özündə bu xüsusiyyəti, bu keyfiyyəti yetişdirsin. Elə etsin ki, onda bu adət halına gəlsin, mələkəyə çevrilsin, bunu bacarsın. Səy etsin, çalışsın, əlindən gələni etsin ki, bu mövzu onda adət halına gəlib çatsın. Özündə bunu mələkə halına çatdırsın ki, bir mövzuda qərar verərkən həvayi-nəfsinin istəyi ilə deyil, şüurla, ağılla, dərklə qərar versin.

### Bir gün bacardıqsa, hər gün bacaracağıq anlamına gəlmir

Əllamə Misbah Yəzdi cənabları bu buyuruşun izahında bildirir ki, əgər bu gün hər hansı bir işi yaxşı yerinə yetirdiksə, bunu bu gün üçün bacardıq. Bir gün bizdə alındı ki, həvayi-nəfsimizlə davranmayaq. Düşünməyək ki, artıq hər şey həll olub.

Biz bilməliyik ki, şeytan (lən) təzə bir hazırlıqlar, oyunlar yaradacaq, təzə vəsvəsələr icad edəcəkdir. Görəcək ki, biz bu mövzuya hazırıq - başqa mövzular tapacaq. Şeytanın (lən) həm rəngarəngliyi var, həm yeniliyi xoşlayır, həm təcrübəsi var, həm dünyaya vurğunluq kimi insanın daxilində bir müttəfiqi var, həm daxilimizdə həvayi-nəfs kimi təsir agenti var. O cümlədən, vəsvəsə etməyin də ustasıdır. Bir gün bizi bir günaha dəvət edər, görər ki, xoşumuza gəlmir, növbəti gün onu etməməklə bağlı bizi öyündürməklə azdırmağa çalışar.

Vəsvəsə edər ki, sənin kimi imanlı insan az tapılar. İnsan da düşünər ki, artıq bir yerə gəlib çatıb. Ona görə də, biz çox diqqətli olmalıyıq ki, bir gün bacarmaqla iş həll olmur. Biz çalışmalıyıq ki, o səy və çalışmanı tərk etməyək və davamlı olaraq edək.

### Ən sadədən başlamaq gərəkdir

Əxlaq ustadları bu mövzuda bir neçə tövsiyələr edir. Birincisi budur ki, sadədən başlamaq lazımdır, çətindən deyil. Adətən hamımız burada səhvə yol veririk. İstəyirik ki, hər şey birdən həll olsun. Adamın bir günün qəza namazlarını qılmağa gücləhalı olur, onu inandırırlar ki, hər gün on günün qəzasını qıla bilər. Həyatında bir gün qəza qılmaq təcrübəsi olmayan insan gəlib on günün qəzasını qılır. Bir gün, iki gün, üçüncü gün - nəticədə pisikir.

Deməli, sadə işlərdən başlamaq çox zəruridir. Mürəkkəbləşdirmək, çətinə salmaq - Allahın üslubu deyil.

Misal üçün, bir insan ömründə ingilis dilini öyrənməyib. Buna ibtidai yanaşmada ingiliscə çox söz vermirlər. Bəzən birinci gün müəllim ona evə heç tapşırıq da vermir. Növbəti gün bildiyi bir neçə sözü daha yaxşı öyrənməyi tövsiyə edir. Növbəti günlər bir az çox, sonra bir az da çox - beləliklə onu asandan çətinə doğru öyrəşdirirlər.

Beləliklə bu adam gələcəkdə çox rahat şəkildə günə əlli söz öyrənə biləcək. Amma bir adam birdən-birə əlli söz öyrənməyə başlasa, bir gün, uzağı iki gün öyrənəcək, sonra dil öyrənməyi bir ömür tərk edəcək.

### Sonadək yerinə yetirəcəyimizə əmin olduqlarımızdan başlayaq

Bu cür olmasın ki, çətin olan bir işi yerinə yetirməyə qərar versin, iki-üç gün onu yerinə yetirsin, sonra desin ki, bacarmıram. Adam qərar verir ki, artıq mən dəyişəcəyəm, daha belə yaşamayacağam, az yeyəcəyəm, gündə on kilometr yeriyəcəyəm, hər gün üç cüz Quran oxuyacağam, əlli ayə əzbərləyəcəyəm, axşam saat onda yatacağam və s. Mütləqdir ki, bunları edə bilməyəcək. Sonra edə bilməyəndə adam özünə nifrət edir.

Bu, nə əxlaq ustadlarının, nə də övliyaların üslubudur, nə də təkamülün yoludur. Bacaracağımıza əmin olduğumuz işlərdən başlamalıyıq. Tərəddüdümüz olan işdən başlamayaq. Gərək bir işi görə biləcəyimizə əminliyimiz olsun.

Birinin tərəddüdü var ki, ziyarətə hər gün gedə bilər, ya bilməz. Adam özünə hər gün ziyarətə gedəcəyinə dair proqram qoysa, bir gün, iki gün gedəcək, sonra düşünəcək ki, bunun axırı necə olacaq? Amma əgər ayda bir dəfə gedə biləcəyinə əmindirsə, proqramını buna uyğun qursun.

Əvvəlki halda üç gün ardıcıl gedən, sonra bir il getmir. Bir də var ki, özünü çətinə salmadan ayda bir dəfə proqramlaşdırsın.

Əmin olduğumuz işdən başlamalıyıq.

Adət halına çevrilənə qədər yavaş-yavaş hərəkət edək

Digər mühüm tövsiyə budur ki, mələkə olana qədər gərək yavaş-yavaş, addım-addım irəli gedək. Məsələn, pis vərdişlərdən birdən-birə imtina etmək çətindirsə, yavaş-yavaş uzaqlaşmaq lazımdır. Yaxşı işlərlə bağlı da yavaş-yavaş irəli getmək gərəkdir. Əgər yavaş-yavaş getsə, buna öyrəşdikcə, onu etməyə şövqü meydana gələcək.

İnsan gərək öz varlığını həvayi-nəfsin təsiri altına düşməməyə adət etdirsin. Bu, insanda adət halına gəlsin ki, qərar verərkən şüur və imanla versin.

Bu mövzuda bəzi mübarək hədislərə diqqət edək.

**Rəsuli-Əkrəm (s) buyurub:** "İşlərin ən üstünü - az olmuş olsa belə, ən davamlı olanıdır".

İmam Əli (ə) buyurub: "Adət - ikinci (insan) təbiətdir".

**İmam Əli (ə) əziz övladı İmam Həsənə (ə) tövsiyələrindən birində buyurub:** "Yeniyetmə qəlbi - xam torpaqtək boşdur. Ona atılan hər bir şeyi qəbul edər. Buna görə də qəlbin bərkiməmiş və ağlın məşğul olmamış, sənə tərbiyə və ədəb verməyə tələsdim".

Yekunda başqalarının eybindənsə, öz qüsurları ilə məşğul olanların təqdir olunması barədə hədislərə diqqət edək.

**Allahın Peyğəmbəri (s) buyurub:** "İnsan üçün elə bu eyib bəs edər ki, camaatda eyib görsün, özündə isə görməsin, camaatı özünün tərk edə bilmədiyi işə görə danlasın, oturub-durduğu yoldaşını boş və aidiyyətsiz şeylərə görə incitsin".

**İmam Əli (ə) buyurub:** "Kim camaatın eyiblərini görsə, onları çirkin saysa və özündəki həmin eyibləri bəyənərsə - həqiqi ağılsızdır".

**Allahım, bizlərə həvayi-nəfslə deyil, imanla qərar verməyi nəsib et!**

**Allahım, bizlərə özümüzlə məşğul olmaq ləyaqətini nəsib et!**

**Allahım, bizi Sənə doğru yaxınlaşanlardan qərar ver! Amin!**

# YENİ MÜSAVAT

## Son səhifə

N 13 (7183) 18 yanvar 2019




## Araqdan zəhərləndi, pivə ilə sağaltdılar

**Vyetnamda həkimlər xəstənin alkoqol zəhərlənməsindən ölümünün qarşısını onun üzərinə 4.5 litr pivə tökməklə alıblar. Bu barədə "Daily Mail" nəşri xəbər verib. İnsident Kuanqçi bölgəsində baş verib. Reanimasiya şöbəsi rəhbəri Le Van Lamanın verdiyi məlumata görə, 48 yaşlı Nguyen Van Nhat ağır vəziyyətdə xəstəxanaya gətirilib. Onun qanında metanolun miqdarı normadan 1119 dəfə çox olub. Buna səbəb onun keyfiyyətsiz alkoqollu içki qəbul etməsi olub.**

Həkimlər kişinin orqanizminə 3 pivə bankası töküblər. Bankalardan hərəsi 0.3 litr olub. Onun tərkibində etanol, antidot və metanol olub. Bu, xəstəyə kömək edib, ona görə də növbəti 12 saat ərzində ona hər saatbaşı pivə veriblər. Bu müddət ərzində hemodializ keçirilib - bu, qanın təhlükəli toksinlərdən təmizlənməsidir. Prosedurlar nəticəsində Nxat özünə gəlib. Üç həftə sonra isə o, tamamən sağalıb

Soktor Lam izah edib ki, alkoqol insan bədəninə iki formada daxil ola bilər - etil spirti və metil spirti. İkinci insan orqanizmi üçün ölümcül təhlükə təşkil edir.

# Striptizçi müştərisini döydü

**Parisdə striptizçi qadın britaniyalı müştərini vurub. Buna səbəb tərəflər arasında pul üstündə düşən dava olub. İnsident bazar ertəsi günü, Piqal meydanında baş verib. Britaniyalı Conatan striptiz kluba daxil olub, orada onu 50 avroya şou bileti almağa razı salıblar. O, şou biletini alıb, şouya baxmağa girəndə isə qapını arxadan bağlayıblar və rəqsin qiyməti 250 avroya qədər yüksəlib.**

Conatan striptizçiyə həmin məbləği ödəməkdən imtina edib və çıxışa doğru gedib. Bu zaman həmin qadın onun arxasınca gəlib, arxadan başına qapaz və dəmir alətlə zərbə vurub. Ardınca konfliktə müəssisənin rəhbəri qarışıb və asfaltda uzanan müştərini silahla təhdid edib.




Turist növbəti gün hüquq-mühafizə orqanlarına müraciət edib. Polis klubun işçilərini zor tətbiq etməklə dələduzluq əməlində ittiham edib.

2018-ci ilin fevralında isə xəbər verilmişdi ki, amerikalı məktəbli məktəbə striptizçi çağırıb. Qız məktəbə çağırıldığından xəbər tutanda məktəbin qapısını döyüb, bu barədə rəhbərliyi məlumatlandırıb və içəri daxil olmadan geri qayıdıb.

# Yuxuda sevdiyi qıza evlənmə təklif edib, indi xatırlamır...



**Reddit istifadəçisi olan bir nəfər danışıb ki, sevdiyi qıza yuxuda evlənmə təklifi edib və bu barədə növbəti sabah xəbər tutub. Bu barədə "New York Post" nəşri xəbər verib. Kişi bildirib ki, yata bilmədiyi üçün dörd tabletka Ambien yuxu dərmanı qəbul edib. Səhər qızın barmağında ucuz evlənmə üzüyü görüb. O, həmin üzüyü elan vasitəsilə alıb və satmağa hazırlaşırmış. Sevdiyi qız ona nə baş verdiyini izah edib.**

Gənc baş verənlərin heç birini xatırlamır və sarsılıb. Facebooku açanda görüb ki, keçən gecə yuxudan oyanmadan hətta ailə vəziyyəti ilə bağlı məlumatı da dəyişib. "Mən il yarım ərzində nişanlanmağı düşünmürdüm. Həmin vaxt yəqin ki, daha yaxşı üzük alardım. Amma Ambien dərmanı prosesi doqquz dəfə tezləşdirdi".

İnsanların Ambienin təsiri altında müxtəlif gündəlik işlərlə məşğul olması, eləcə də maşın sürməsi ilə bağlı hallar mövcuddur. Onlar səhər saatlarında gecə etdiklərini unudurlar. "New York Magazine" amerikalı bir qadın Ambien qəbul edəndən sonra yatıb və yuxudan oyanmadan şkafı təmir edib.

Bu dərmanın uzunmüddətli qəbulu zamanı daim yuxululuq, başdönməsi, allergiya, boğazda, beldə, qarında və sinədə ağrı, ağızda quruluq, qəribə yuxular, yaddaş itkisi, depressiya və yuxu pozğunluğu kimi hallar özünü göstərir.

Somnambulizm (yuxuda gəzmək) - xəstəlik sayılır. Bu halda insanlar yuxuda bu və ya digər hərəkətlər edirlər.

## Qoroskop




**QOÇ** - Yeni simalarla, xoş təsadüflərlə rastlaşma ehtimalınız böyükdür. Hətta bir neçə sürpriz də mümkündür. Saat 19-dan sonra bütün təkliflərdən imtina edin, hətta xeyirli görünsə də.

**BUĞA** - Günün ilk yarısında mümkün qədər ehtiyatlı olun. Çünki sizə qarşı təxribat hazırlandığı güman olunur. Nahardan sonrakı ərəfəni isə bütünlüklə ailə-sevgi məsələlərinə həsr edin.

**ƏKİZLƏR** - Dünəndən mənfi yüklü Ay bürcünüzdə qərar tutduğu üçün yeni, riskli və ağlınız kəsməyən işlərdən imtina etməlisiniz. Hər bir addımı məntiqli və ağıllı atın. Mübahisəyə zəmin yaratmayın.

**XƏRÇƏNG** - Şəxsi işlərinizdə əsaslı dönüşə başlamaq istəyirsinizsə, bu təqvimdən yararlanın. Təcrübəli adamların məsləhətindən nəticə çıxarın. Həmkarlarınızla səmimi davranın. Sürprizlər gözlənilir.

**ŞİR** - Təzə xəbərlər yolunuzu gözləyir. Ola bilsin ki, səfərə də çıxasınız. Ümumiyyətlə, bu gün uzaqda yaşayan doğmalarınızla mütləq əlaqə saxlamalısınız. Ədalət prinsiplərindən çıxmayın.

**QIZ** - Kifayət qədər uğurlu gündür. Nəzərdə tutduğunuz bütün ədalətli planların reallaşacağı gözlənilir. Qonaq getmək ehtimalınız da var. Amma gərək gecəni öz evinizdə keçirəsiniz.

**TƏRƏZİ** - Yalnız istirahətə aludə olun. Hər hansı fəaliyyət və ya riskli sövdələşmə zərərinizə ola bilər. Özünüzü hər hansı münaqişələrdən qoruyun. Nahardan sonra qonaq getməyə dəyər.

**ƏQRƏB** - Maraqlı bir gün yaşayacaqsınız. Ətrafınızda olan hər şey ürəyinizcə olacaq. Ulduzlar günün ikinci yarısını gəzinti və əyləncələrə, qonaqlıqlara həsr etməyinizi tövsiyə edir.

**OXATAN** - Göy qübbəsi bu təqvimdə bütün külli-ixtiyarı öz əlinizə verəcək. Deməli, proseslərin inkişafı çıxardığınız qərarlardan asılı olacaq. Ədalətli addımlar atın, Tanrı hökmünü unutmayın!

**OĞLAQ** - Yeni əlaqələrə başlamaq üçün şanslı ərəfədir. Çalışın ki, təşəbbüskarlığı əldən verməyəsiniz. Nahardan sonra aldığınız bütün təkliflərə razılıq verin. Riskdən qorxmayın.

**SUTÖKƏN** - Sağlamlığınıza zidd işlər görməyiniz ümumi əhvalınızda passivlik yarada bilər. Odur ki, səhhətinizə qarşı diqqətli olun. Yeni planlarınızı bir daha götür-qoy edin. Sədəqə verməkdən çəkinməyin.

**BALIQLAR** - Fəaliyyət zəminində böyük uğurlara gedən yolu tapacaqsınız. Buna görə də hər şeyi dəfələrlə ölçüb-biçin. Asudə vaxtlarınızı isə xilas mənbəyiniz olan məhəbbətə həsr edin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Tez-tez şokolad yemək psixikanı məhv edir



**Tez-tez ət və şokolad yemək insan psixikasını məhv edir və uzunsürən depressiyaya səbəb olur. Bu qəribə nəticəyə Amerika tədqiqatçıları gəliblər. Alimlər 10 il ərzində 15 min könüllünün analizini toplayaraq onların psixi durumunu və qida rasionunu dəyərləndiriblər. Tədqiqatların yekununa əsasən müəyyən edilib ki, şirni, xüsusilə şokolad və yağlı ət həvəskarları əsəb sisteminin pozulmasından daha çox əziyyət çəkirlər. Onlar sakitləşmək və normal hala düşmək üçün daha çox sedativ preparatlar qəbul edirlər.**

Alimlər depressiyanın inkişaf riskini azaltmaq üçün şirnisevənlərə və "ət yeyənlərə" bir müddət ət və şokoladdan uzaq olmağı, yaxud heç olmasa pəhriz günləri keçirməyi məsləhət görürlər.

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 5.100